Bu bir xalq qəzetidi

# ƏDALƏT

## Hikmət Hacıyev BMT rəsmisi ilə UNEP-in azad olunmuş ərazilərə missiyasını müzakirə edib



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi ilə UNEP-in azad olunmuş ərazilərə missiyasını müzakirə edib.**

Adalet.az xəbər verir ki, bu barədə Hikmət Hacıyev öz rəsmi "Twitter" hesabında bildirib. "BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi ilə ekoloji vəziyyəti qiymətləndirmək üçün UNEP-in işğaldan azad edilmiş torpaqlara, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan, Hadrut və Şuşaya missiyasını müzakirə etdik. Ermənistanın 30 il davam etmiş hərbi işğalı böyük ekoloji ziyanla müşayiət olunub", - paylaşımda bildirilir.

## MEDİA və ADA Universiteti arasında memorandum imzalandı



**17 mart 2022-ci il tarixində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.**

MEDİA-dan Adalet.az-a verilən məlumata görə, sənədin imzalanmasında məqsəd ADA Universiteti və MEDİA Agentliyi arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması, elmi-praktiki tədbirlərin, tələbələrin təcrübi biliklərinin artırılması, habelə media sahəsində mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkil edilməsidir.

Sənədi Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə imzalayıblar. Memoranduma əsasən, tədris ili ərzində istehsalat təcrübəsinin və yay təcrübə proqramlarının keçirilməsi, bununla yanaşı təhsil sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmənin təmin edilməsi nəzərdə tutulub.

Memorandum çərçivəsində tərəflərin nümayəndələrinin iştirakı ilə birgə layihə və tədqiqatlar həyata keçiriləcək, konfranslar, təlimlər və seminarlar təşkil ediləcək.

**Əməkdaşlıq memorandumu tələbələri MEDİA Agentliyinin fəaliyyəti və mövcud olan vəzifələr haqqında məlumatlandırmaq məqsədilə Universitetdə "Karyera günləri"nin keçirilməsini də nəzərdə tutur. Həmçinin tələbələrin kurs və buraxılış işləri, magistrantların dissertasiya mövzuları Agentliyin həyata keçirdiyi layihələrin məzmunu ilə əlaqələndiriləcək.**

## Yazıçı Aqil Abbas Azərbaycan Universitetinin tələbələri ilə görüşüb



**Yazıçı-publisist, Milli Məclisin deputatı, "Ədalət" qəzetinin baş redaktoru Aqil Abbas Azərbaycan Universitetinin filologiya tələbələri ilə görüşüb. Görüş Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimovanın giriş sözü, kafedranın professoru Asif Hacıyev və kafedranın dosenti Fərhad Mədətov Aqil Abbasın həyat və yaradıcılığına həsr olunmuş məruzələri ilə başlayıb.**



Çıxışlardan sonra Aqil Abbas tələbələrin onun yaradıcılığı, nəşr olunduğu dövrdə böyük hadisəyə çevrilən "Dolu", XVIII əsrin sonunda Azərbaycan xanlıqları arasındakı ziddiyyətli münasibətlərdən, həmin dövrdə Qarabağda cərəyan edən hadisələrdən bəhs edən "Batmanqılınc" romanları, ədəbi görüşləri, Azərbaycan ədəbiyyatının dünyadakı mövqeyi haqqında suallarını cavablandırıb, tələbələrlə görüşməkdən hər zaman məmnun olduğunu vurğulayıb.

Sonda xatirə şəkli çəkdirilib, yazıçının tələbələrə kitabları hədiyyə edilib.

## Kamran Əliyev 3 rayona prokuror təyin etdi



**Laçın, Ucar və Ağcabədi rayonlarına yeni prokurorlar təyin olunub.**

Adalet.az xəbər verir ki, təyinatlarla bağlı Baş Prokuror Kamran Əliyev müvafiq əmrlər imzalayıb.

Əmrlərə əsasən, İlkin Mustafayev Ucar rayon prokuroru, İlqar Səadətov Laçın rayon prokuroru, Vüqar Hacıyev Ağcabədi rayon prokuroru vəzifəsinə təyin olunub.

## SÜLHMƏRAMLILARIN BAŞLARI QARIŞIB ERMƏNİ QIZLARINA

**Qarabağdakı erməni silahlıları da demək olar ki, hər gün Azərbaycan ordusunun mövqelərini atəşə tuturlar. Düzdür, layiqli də cavablarını alırlar.**

**Cəfər Cabbarlı "1905-ci il" əsərində necə deyib:**

**- Atan kazaklardı.**

## Bakıda atası ilə geyim üstündə mübahisə edən qız öz boğazını kəsdi

**Bakının Nəsimi rayonunda intihara cəhd hadisəsi baş verib. Belə ki, Təcili Tibbi Yardım Stansiyasına Nəsimi rayonunda yerləşən kafelərdən birindən müştərilərdən birinin boğaz nahiyəsindən xəsarət alması ilə bağlı məlumat daxil olub. Həkimlər dərhal çağırış ünvanına gəliblər.**

Zərərçəkən, 20 yaşlı qız huşsuz vəziyyətdə xəstəxanaya çatdırılıb. Ona dərhal tibbi müdaxilə olunaraq həyatı xilas edilib. İTV-nin əməkdaşları məsələ ilə bağlı kafeyə yollanıblar. Sözügedən kafenin inzibatçısı Ceyhun Səmədov bildirib ki, həmin qız evində özü-özünə xəsarət yetirib: "Boğazını kəsdikdən sonra yaylıq bağlayaraq kafeyə gəlib. Daha sonra ürəyi gedib. Əməkdaşlarımız da kömək məqsədi ilə yardım göstəriblər. Yanlış anlaşılma olub. Elə biliblər ki, xanım boğazını bizim məkanda kəsib". İnzibatçı qeyd edib ki, həmin şəxs onların daimi müştəriləri olub. Məlumata görə, 20 yaşlı qızın atası yaxın günlərdə həbsxanadan çıxıb və son günlər onun geyim üslubu ilə bağlı ata-övlad arasında münaqişələr yaranıb. O, atasına geyimin şəxsi məsələ olduğunu bildirərək, müdaxilə etməməsini tələb edib, buna etiraz olaraq özünə xəsarət yetirib.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 13 (5950) 19 mart 2022-ci il | Qiyməti 30 qəpik

# Prezident Azərbaycan xalqını təbrik etdi



Bax:səh-2

## DEYƏNDƏ Kİ PULUNUZU İTƏ ETİBAR ETMƏYİN EŞİTMİRSİZ...




**İsveçrə bankları dünyanın ən etibarlı bankları sayılır. Və bundan başqa da İsveçrə bitərəf dövlətdir. Hətta Hitler İsveçrənin toxunulmazlığını saxladı və bu ölkəni işğal eləmədi.**

İndi oxuyuram ki, İsveçrə elan edib ki, onun banklarında 213 milyard dollar Rusiya oliqarxlarının pulu var. Görən, bu gündən belə də İsveçrə banklarına etibar edən olacaq?

## Ədalət Muradov: "Cənab sədrin tapşırığı ilə YAP-da ciddi dəyişikliklər gedir"



**"VII qurultayda Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin verdiyi tapşırıq və tövsiyyələrə uyğun olaraq YAP-da ciddi dəyişikliklər davam edir".**

Adalet.az xəbər verir ki, bunu YAP İdarə heyətinin üzvü Ədalət Muradov "Facebook" səhifəsində yazıb.

"Bu gün YAP İdarə Heyətinin genişləndirilmiş iclasında "YAP Mərkəzi Aparatı və yerli təşkilat Aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti" sənədi qəbul edildi. Sənəd layihəsinin hazırlanmasında UNEC mütəxəssislərinin fəal iştirakı və layihənin mənim tərəfimdən təqdim edilməsi xüsusilə sevindiricidir", - deyə o, bildirib.

## MƏNASIZ NOBEL SÜLH MÜKAFATI



**Ukrayna prezidenti Zelenski Nobel Sülh mükafatına təqdim olunub. Və yəqin ki, alacaq. Ölkədə isə sonu görünməyən müharibə gedir.**

İsraillə ərəb dövlətləri müharibəsində dünyada bu savaşın durdurulması xətrinə ən azı 10 nəfərə Nobel Sülh mükafatı verdilər, hətta Yasir Ərəfata da. Amma İsraillə ərəb dövlətlərinin müharibəsi hələ də davam edir.

Day keçib, birini də Putinə verin.

## Prokuror sabiq icra başçısına 12 il həbs cəzası istədi



**Biləsuvar rayonunun sabiq icra başçısı Mahir Quliyevin cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb.**

Adalet.az xəbər verir ki, Lənkəran Ağır Cinayətlət Məhkəməsinin hakimi Müşfiq Məmmədovun sədrlik etdiyi prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror çıxışında M.Quliyevin 12 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

## Mübariz Mənsimov Türkiyədəki azərbaycanlı tələbələrə təqaüd verəcək



**Novruz Bayramı ərəfəsində şad xəbər! Mübariz Mənsimov Türkiyədə təhsil alan azərbaycanlı tələbələrə təqaüd verəcək.**

Adalet.az xəbər verir ki, bu barədə "Palmali" Şirkətlər Qrupunun mətbuat xidmətinin rəhbəri Fidan Quliyeva məlumat yayıb.

Palmali Holding, Türkiyədə oxuyan 100 azərbaycanlı tələbəni dəstəkləmək üçün təqaüd proqramının davam etdiyini elan edir. Bu təqaüdlər 2022-2023-ci il tədris üçün olacaqdır. Bu təqaüd proqramının əsas məqsədi hazır ki, bakalavr və magistratura tələbələrinə maliyyə dəstəyi göstərmək, ciddi və yaxşı layiq olan tələbələrin təhsillərini davam etdirməsinə təşviq etməkdir. 2022-2023 tədris ilinin ümumi bölgüsü Təqaüd Komitəsi tərəfindən təqdim olunan müraciətlərin qiymətləndirilməsi əsasında müəyyən edilir.

Təqaüd üçün 100 azərbaycanlı tələbə seçiləcəkdir.

* Tədris ilindən bir il əvvəlki ili yüksək bal və dərəcə ilə bitirən tələbələr
* Şəhid ailəsinin üzvləri olan tələbələr
* Qarabağ müharibə veteranlarının ailəsindən olan tələbələr
* Maddi vəziyyəti çətin olan tələbələr

Palmali'nin yeni təqaüd proqramı qeydiyyat tarixi 2022-ci il aprel ayının 1-30 tarixləri arasında başlayacaq.

Proqramda iştirak etmək istəyən tələbələr tələb olunan sənədləri palmaliegitim@gmail.com elektron poçtuna göndərməlidirlər. Sənədlərin yoxlanmasından sonra seçilmiş 100 tələbəyə təqaüd verilməsi növbəti tədris ilində başlayacaq.

Təqaüd proqramı üçün sənədlər aprelin 1-dən 30-dək davam edəcək.

**Xatırladaq ki, bu Palmali Holding tərəfindən azərbaycanlı tələbələrə verilən ilk təqaüd proqramı deyildir.**

## "Ukrayna danışıqları uzadır"

*Rusiya Prezidenti Vladimir Putin bəyan edib ki, Kiyev "yeni real olmayan təkliflər" irəli sürməklə danışıqları keçirilməsini uzatmağa cəhd göstərir.*

*Adalet.az Kremlin saytına istinadən xəbər verir ki, bunu Rusiya Prezidenti Almaniya kansleri Olaf Şoltsla martın 18-dəki telefon danışığında bildirib.*

*Putin kanslerlə söhbətində Ukrayna Silahlı Qüvvələrinin Donetsk və Makeevka şəhərlərində yaşayış binalarını atəşə tutduğunu bildirib.*

*Onun sözlərinə görə, həmin şəhərlərin atəşə tutması nəticəsində çoxlu sayda dinc sakin ölüb. Prezident martın 17-də Ukraynanın Mariupol şəhərindən 43 min nəfəri təxliyə etdiklərini bildirib.*

*Vladimir Putin Rusiya və Urayna nümayəndə heyətlərinin videoformatda keçirilən danışıqları ilə bağlı materialları da Olaf Şoltsa təqdim edib.*

*Qeyd edək ki, martın 18-də V.Putinin Fransa Prezidenti Emmanuel Makronla telefon danışığı olacaq.*

## GÖRDÜLƏR RAKETDƏN, BOMBADAN BİR ŞEY ÇIXMIR, KEÇDİLƏR SÖYÜŞƏ

**Rusiya kanallarına baxmaq olmur. Aparıcılar və ekspertlər Zelenskiyə və ukraynalılara o qədər söyüş söyür ki, hətta özüm söyüşcül olsam da utanıram.**

## GƏLSƏNİZ, TUTUB YEYƏCƏYİK



*Yeni Zelandiya Putinlə Şoyquya sanksiya qoyub. Deyiblər ki, biz tərəfə gəlsəniz tutub yeyəcəyik. Qoymayın, Putinin üstünə İrasim gəlir.*

## ERMƏNİLƏR UKRAYNANI ABIRA SALMAĞA GEDİR





**Ermənistan ordusu da Putinə müraciət edib ki, Ukraynada döyüşməyə hazırdılar. Belə xəbəri oxuyanda yadıma "Mauqli" filmindəki çaqqal düşür.**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## RUSİYA-UKRAYNA BİR-BİRİNİ QIRSIN, XEYİR ABŞ-a QALSIN



*Raketlər atılır, bombalar partlayır, uşaqlar ölür - həm ruslar, həm də ukraynalılar bu bombaların altında qırılır. Kimin nə vecinə ki? Qırılan fransız deyil, ingilis deyil, alman da deyil, amerikalı heç deyil.*

*Vaqif Bayatlı Odərin bir şeiri var:*

*Kimin nə vecinə ki,*
*Anamın əziziyəm*
*Anam yalvarır göyə*
*O qarasaç Allahım,*
*O gödəkboy Allahım*
*susub*
*qorumur məni.*

*Və qurban olduğum Allah da susub, nə körpəni qoruyur, nə qocanı, nə də hər iki tərəfin əsgərlərini.*

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ

Cavan tərbiyəçi otağa kompyüter gətirir.

Çətinliklə əyilib onu yerə qoyub uşaqlardan soruşur:

**- Uşaqlar, deyin görüm, otaqda neçə kompyüter var?**

- Bir!

**- Düzdür, - tərbiyəçi çox çətinliklə ikinci sonra isə üçüncü kompyüteri gətirir:**

**- İndi neçə kompyüter oldu?**



Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!

**- Axı kitabda kompyüter yazılıb.**

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan?**

## Prezident Azərbaycan xalqını təbrik etdi



**Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

”Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır. Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda, Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir. Məhz parlaq Zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır. Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm.

Əminəm ki, xaricdəki soydaşlarımızın bizimlə birgə azərbaycançılıq məfkurəsi işığında baharı qarşılamaları onların qəlbində yurdumuza bağlılıq hisslərini daha da möhkəmləndirəcəkdir.

İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Qoy bu əziz bayram hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!”.

## Dövlət başçısı: “Sübut edirdik ki, bizim gücümüz var”

**”Əlbəttə ki, tanınmış idmançılarımızın nümunəsi, Olimpiya, dünya, Avropa çempionlarının nümunəsi gənclər üçün də bir stimul olmalıdır. Onlar da bizim tanınmış idmançılar kimi olmağa çalışmalıdırlar. Bilirəm ki, bizim tanınmış, görkəmli idmançılarımız da həm öz idman uğurları ilə, həm də ki, davranışları ilə də nümunə göstərirlər”.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev martın 17-də 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən deyib. ”Mən çox şadam ki, Azərbaycan idman ictimaiyyəti və bizim idmançılarımız, onların böyük əksəriyyəti həyatda da nümunədirlər və belə də olmalıdır. Bir sözlə, mən güləş idman növünün perspektivlərini çox müsbət qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə həm Olimpiya Oyunlarında, həm də dünya çempionatlarında bizim uğurlarımız kifayət qədər olacaq. Bir məsələyə də toxunmaq istərdim. Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək. Hər halda, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim əlbəttə ki, güclü Ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir”, - Prezident vurğulayıb.

## *Baş qərargah rəisi müşavirə keçirdi: Vəzifəli şəxslərə tapşırıqlar verildi*



**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev Quru Qoşunlarında olub.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Baş Qərargah rəisi əvvəlcə Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzinə gəlib, hərbi qulluqçuların taktiki-xüsusi hazırlığının inkişaf etdirilməsi və müasir döyüş üsullarının praktiki tətbiqi məqsədilə real döyüş şəraitinə uyğunlaşdırılmış təlim nöqtələrinə baş çəkib.

Komando hazırlığı kursunda iştirak edən kursantların sosial-məişət şəraiti və təlim-tədris prosesi ilə maraqlanan Baş Qərargah rəisinə məruzə olunub ki, dərslər yeni üsullar tətbiq olunmaqla tədris olunur. General-polkovnik K.Vəliyev təlim nöqtələrində kursantların nəzəri və praktiki biliklərinin artırılması üçün keçirilən dərs prosesinin gedişatını izləyib. Tədris prosesini müsbət qiymətləndirən Baş Qərargah rəisi şəxsi heyətin qayğıları ilə maraqlanıb, onları qarşıdan gələn Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib.

Sonra Quru Qoşunlarının idarə heyəti ilə xidməti müşavirə keçirilib.

Görülən işlərin təhlilini aparan Baş Qərargah rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müşavirədə döyüş hazırlığının və hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin daim yüksək səviyyədə saxlanılması, eləcə də bölmələrin və idarəetmə məntəqələrinin praktiki məşq etdirilməsi ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə konkret tapşırıqlar verilib.

# Ceyhun Bayramov Ermənistanın ekoloji terroru ilə bağlı BMT rəsmisini məlumatlandırıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, görüşdə işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Azərbaycanda səfərdə olan BMT-nin Ətraf Mühit Proqramının ekspert qrupunun üzvləri iştirak ediblər.

Görüş zamanı tərəflər Azərbaycanla BMT arasında əməkdaşlıq, həmçinin UNEP ilə Azərbaycan arasında gündəlikdə duran digər praktiki məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Görüşdə, habelə, azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri, minaların təmizlənməsi prosesi, o cümlədən ətraf mühit sahəsində ikitərəfli münasibətlərin dərinləşdirilməsi imkanları və Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı məsələlər müzakirə mövzusu olub.

Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verdiyini söyləyən nazir Ceyhun Bayramov, ölkəmiz tərəfindən BMT-nin Ətraf Mühit Proqramının işğaldan azad olunmuş ərazilərdə biomüxtəliflik və ekosistemlərin bərpasına dəstəyinin yüksək qiymətləndirildiyini bildirib. Görüş zamanı qarşı tərəf regiondakı hazırki vəziyyət, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan dövləti tərəfindən aparılan böyük həcmli bərpa və yenidənqurma işləri barədə məlu-





matlandırılıb. Nazir Ceyhun Bayramov, Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən dövlət proqramları, qarşıda duran vəzifələr və mövcud ekoloji problemlərin həlli yolları barədə qarşı tərəfə məlumat verib.

Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü və 30 ilə yaxın davam etmiş işğal nəticəsində 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü, azad edilmiş ərazilərdə meşə ehtiyatlarının, flora və faunanın, xüsusi mühafizə olunan təbiət ərazilərinin, su ehtiyatlarının, faydalı qazıntı yataqlarının, torpaqların vəziyyətinin işğala qədərki dövrlə müqayisəli qiymətləndirilməsi, kənd təsərrüfatı sahəsində görülmüş işlər, o cümlədən deqradasiya olunmuş torpaqlar, hərbi eroziya, ”Ağıllı kənd” layihəsi, ”Yaşıl enerji zonası konsepsiyası”, peyk təsvirləri əsasında işğaldan azad edilmiş ərazilərin monitorinqi və görüləcək bərpa işləri beynəlxalq ekspertin diqqətinə çatdırılıb. Nazir Ceyhun Bayramov, bu xüsusda Azərbaycanda bu istiqamətdə aparılan fəaliyyətdə UNEP-in iştirakının yüksək qiymətləndirildiyini qeyd edib.

Azərbaycanın ətraf mühit məsələlərinə böyük önəm verdiyini deyən nazir, azad olunmuş ərazilərin yaşıl enerji zonası elan edildiyini vurğulayıb və burada bütün layihələrin ətraf mühit məsələlərinə xüsusi diqqət yetirilməklə icra olunduğunu diqqətə çatdırıb.

Öz növbəsində BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi səmimi qəbula görə təşəkkürünü bildirib.

O, ölkəmizin BMT ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələrin təqdirəlayiq olduğunu qeyd edib və işğaldan azad olunmuş ərazilərə səfər çərçivəsində qiymətləndirmə missiyasına Ermənistan tərəfindən törədilmiş ekoloji zərərin əyani şəkildə göstərildiyini ifadə edib.

Bruno Pozzi, ekspert qrupunun ölkəmizə səfərinin məqsədinin işğaldan azad edilmiş ərazilərin ekoloji bərpası prosesinə dəstək göstərilməsi üçün qiymətləndirmə missiyasının həyata keçirilməsi, Azərbaycan Hökumətinin azad olunmuş ərazilərdə ekosistemlərin bərpası ilə bağlı planlarının öyrənilməsi, UNEP-in dəstək istiqamətlərinin müəyyən edilməsi və ekoloji bərpa ehtiyacları ilə bağlı birbaşa mənbələrdən məlumatların toplanması olduğunu bildirib və bu xüsusda, konstruktiv dialoq və səmərəli əməkdaşlığa görə minnətdarlığını ifadə edib.

**Görüş zamanı digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.**

# Sanksiyaların və hərbi məğlubiyyətin məngənəsindəki Rusiya:"NATO-nu arzulayan Ukraynaya baxsın..."

**Bütün dünya hazırda nəfəsini tutaraq diqqətini Ukrayna-Rusiya müharibəsinə yönəldib. Siyasi şərhçilərimizin bildirdiyi kimi, gözlənilən o idi ki, Rusiya qoşunları Donetsk və Luqansk üzərində hakimiyyət qurduqdan sonra Krım və onun çevrəsindəki əraziləri ələ keçirərək Donbasla quru əlaqəsini bərpa edəcək. Amma ruslar tamam fərqli həmlə etdilər, Ukraynanın böyük şəhərlərini ələ keçirməyə cəhd göstərdilər. Bunun da sonluğu Rusiya üçün gözlənilməz nəticələrə gətirib çıxarmaqdadır.**





Rusiyanın Ukraynadakı hərbi itkiləri- Ukrayna Müdafiə Nazirliyinin Baş Qərargah rəisliyinin sosial şəbəkə hesabında bildirib ki, təkcə fevralın 24-dən12 marta qədər Rusiya ordusunun itkiləri aşağıdakıkimidir: Həmçinin, UMN Rusiya tərəfinin təxminən 12 mindən çox canlı qüvvəitirdiyini bəyan edib.

Aİ Rusiyaya qarşı dördüncü iqtisadi və şəxsi sanksiyalar paketini də təsdiqləyib

### *İnsanlar*

ABŞ da Rusiya Prezidenti Vladimir Putin və Rusiyanın xarici işlər naziri Sergey Lavrova, eləcədə (2014-cü ildən bu günə qədər) 300 nəfərə yaxın rusiyalı oliqarx və yüksək çinli məmura sanksiyalar tətbiq edib. BBS-nin məlumatına görə, rublun sürətli devalvasiyası və Rusiya aktivlərinin dəyərdən düşməsinin qarşısını da çətin ki, almaq mümkün olsun:” Rusiya Forbes nəşrinin hesablamalarına görə, 20 dekabr 2021-ci ildən 25 yanvar 2022-ci ilə qədərki müddətdə 104 rusiyalı milyarderin ümumi sərvəti Rusiyanın Ukraynaya mümkün müdaxiləsi barədə məlumatlar səbəbindən 27,9 milyard dollar azalıb.

***Nəşrin təxminlərinə görə, bir ay ərzində Forbes siyahısındakı 104 rusiyalı milyarderdən 76 nəfəri zərərə düşüb. Həmin siyahıdan olan 10 nəfərinsə itkisi bir milyard dolları üstələyib”.***

### *Şirkətlər*

Sanksiya siyahısına ”Sberbank”, ”Qazprombank” ”Otkrıtıye”, ”Novikombank”, ”Sovkombank” daxil edilib. Eləcə də 200-ə yaxın qlobal brendlər bu ölkənin bazarını tərk etməkdə davam edir.

Xüsusən onların arasında ”Shell”, ”Lufthansa”, ”Airbus” (energetika, aviasiya), ”Mercedes-Benz”, BMW, ”Skoda Auto as”, ”Audi” (avtomobilqayırma), ”Bolt”, ”Google Pay”, ”Mastercard”, ”Visa”, ”Western Union” (maliyyə, hüquq mərkəzi, logistika), ”Adidas”, ”Puma”, ”Nike”, ”Disney” (mal və əyləncə), ”Netflix”, ”Apple”, ”Spotify”, ”Microsoft” (texnologiya sənayesi) və digərləri var.

Mütəxəssislərin fikrincə, xüsusilə də Rusiyanın Mərkəzi Bankına tətbiq edilən sanksiya Moskvanın maliyyə ehtiyatlarının sürətlə tükənməsinə səbəb ola bilər.

### *Qlobal ödəniş sistemi*

***SWIFT - qlobal ödəniş sistemindən Rusiyanın kənarlaşdırılmasının onun iqtisadiyyatı və əhalisi üçün, Moskvanın iddia etdiyi kimi, təsirsiz keçəcəyini təsəvvür etmək çətindir. Rusiyanın keçmiş maliyyə naziri Aleksey Kudrin 2014-cü ildə deyib ki, ölkənin SWIFT-dən xaric edilməsi Rusiya iqtisadiyyatına illik həcminin 5 faizi dərəcəsində zərər vuracaq.***

ÜTT - Rusiyanın Ümumdünya Ticarət Təşkilatındakı (ÜTT ) ”ən əlverişli ölkə” ticarət statusu ləğv ediləcək. Ümumilikdə isə sanksiyalar ölkənin maliyyə və texniki ehtiyac sahələrini iflic edəcək səviyyədədir. Getdikcə çöküşə yaxınlaşan Rusiya hələ də özünü əvvəlki ampulasında hiss edir.

Adalet.az Rusiya mətbuatına istinadən bildirir ki, Rusiyanın Bosniya və Hersoqovinadakı səfiri İqor Kalabuxov NATO -ya üzv olmaq istəyən ölkələrə sərt isması göndərib.

***Onun sözlərinə görə hər bir ölkə istədiyi qərara gələ bilmək hüququna malikdir və Rusiya da həmin qərara reaksiya vermək hüququnu özündə saxlayır: ”Əgər Bosniya və Herseqovina nəyinsə üzvü olmaq qərarına gəlsə, bu onun daxili işidir. Amma bizim reaksiyamız başqa məsələdir. Biz Ukrayna nümunəsindən istifadə edərək, nə istədiyimizi göstərdik. Təhdid olarsa, reaksiya verəcəyik”, - deyə səfir NATO -ya üzv olmaq istəyən ölkələri sətiraltı da olsa hədələyib.***

Qeyd edək ki, Ukrayna həm Rusiya, həm də Aİ ilə həmsərhəd olan keçmiş Sovet respublikasıdır.

O, NATO üzvü deyil, amma ”tərəfdaş ölkədir” - bu, o deməkdir ki, onun gələcəkdə təşkilata qoşulmasına icazə verilə bilər.

***P.S. Rusiya yenə öz ampulasındadır... Bəlkə də yıxılmışın ”yıxılmamışam” duruşudur. Biz tərəflərdə belə bir misal var. Deyir, dəvədən yıxılıb, ”höt-höt”ünü əldən qoymur.... Eynən sanksiyalar və Ukraynadakı hərbi uğursuzluqların məngənəsində çabalayan Rusiya kimi...***

**Əntiqə Rəşid**

# Ermənistan "5 bəndlik təklif"i diplomatik dildə geri çevirirsə...

**Xəbər verildiyi kimi, Azərbaycan tərəfi Ermənistana rəsmi olaraq 5 bənddən ibarət təkliflər verib. həmin təkliflərdə Ermənistanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıması, Qazaxın və Naxçıvanın faktiki işğalda olan kəndlərindən geri çəkilməsi, habelə vaxtıyla Ermənistandan qaçqın düşmüş azərbaycanlıların öz yurdlarına qayıtması təmin olunması və onlara dəymiş maddi ziyan ödənilməsi nəzərdə tutulub.**



5 bənddən ibarət təkliflərə Ermənistan hökümətindən başqa hamı: erməni rəsmiləri, alimləri, deputatları, oliqarxları cavab verib. Məsələn. Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan " 5 bəndlik təklif"ə "6 bəndlik ittiham"la cavab verdi. Az qala hər bənddə Azərbaycanı günahkar çıxardı . Daha sonra Hayk Demoyan... O da Ermənistan Milli Elmlər Akademiyasının akademiki., həm də qondarma "erməni soyqırımı" "muzeyi"nin direktorudu. "O təkliflərində yazır ki, Azərbaycan keçmiş DQMV daxilində Qarabağın öz müqəddəratını təyinetmə hüququnu tanımalıdır. İkinci "bənddə" qeyd edilir ki, Azərbaycan erməni "qaçqın"ların geri qayıtmasına təminat verməli və Ermənistanla sərhəddə 30 km-lik dərinlikdə silahsızlaşdırılmış zona yaratmalıdır." deyən akademikin düşüncələri heç də A. Tatoyandan fərqli deyil.

Siyasi şərhçi Derenik Malxasyan da "Müharibənin bitməsindən 2 il keçməsinə baxmayaraq hələ də Bakı İrəvan üzərində diktə edən tərəf kimi çıxış edir. Kapitulyasiya davam edir? Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri bildirib ki, ölkəsi münasibətlərin normallaşması üçün Ermənistana 5 bəndlik sənəd göndərib və qarşı tərəfdən cavab gözləyirlər. Burada ən azı iki məqamı təxmin etmək çətin deyil. Birincisi, Qarabağın Azərbaycanın bir hissəsi kimi tanımaq. İkincisi isə Zəngəzur dəhlizini təmin etmək"- fikri ilə soydaşları kimi 5 bəndlik təklifə həyasız münasibətini sərgiləyib.

Azərbaycanın verdiyi təkliflərə cavab olaraq Ermənistan nizamlama prosesini beynəlxalq arenaya keçirməyi və vasitəçi qismində ATƏT-in Minsk qrupunu cəlb etməyi planlaşdırır:

O yəqin ki, öz verəcəyi qərarın erməni ictimaiyyəti tərəfindən "topa tutulacağına" əmindir ki, beynəlxalq təşkilatları da bu işə qatmağı düşünür. Paşinyanın:"Ermənistan Azərbaycanın təkliflərini rədd etmir. Yalnız Rusiya, ABŞ və Fransanın vasitəçiliyi ilə ATƏT-in Minsk qrupunun həmsədrləri çərçivəsində bu təkliflər üzrə növbəti danışıqları öz üzərinə götürür. Tərəflərin bəyanatları hələ ki, konkret danışıqlar prosesi ilə nəticələnmədiyindən və hər iki ölkənin birbaşa danışıqlarda zəngin təcrübəsi olmadığından Ermənistan bu prosesin beynəlxalq platformada, vasitəçilərin iştirakı ilə aparılmasını məqsədəuyğun hesab edir" - açıqlaması fikrimizi təsdiq edir. Adalet.az erməni mediasına istinadən xəbər verir ki, erməni politoloq Tiqran Qriqoryan da eynən erməni xislətinə uyğun olaraq öz hökümətinin qərarsızlığını öz bildiyi kimi izah etməyə çalışıb. O bildirib ki, Azərbaycan Rusiya-Ukrayna müharibəsindən istifadə edərək Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı fikirlərini Ermənistana çatdırıb. Ermənistan da Azərbaycanının bu təkliflərini diplomatik dildə geri çevirir.

***P.S. Düzdür, Azərbaycan Ermənistana 5 bəndlik sülh müqaviləsi təklifləri göndərdi. Amma ermənilər və Ermənistan hakimiyyəti bilməlidir ki, sülh müqavilədsini geri çevirmək heç də onu geri çevirənn xeyrinə olmur. Həm də bu Azərbaycanın son variantı deyil... Ermənilər yəqin ki, 44 günlük müharibəsinin şokundan tamamilə qurtulmadıqlarına diqqət etsinlər.***

**Əntiqə Rəşid**

*__Aqil ABBAS__*

# *RUSİYA-UKRAYNA BİR-BİRİNİ QIRSIN, XEYİR ABŞ-a QALSIN*

***Raketlər atılır, bombalar partlayır, uşaqlar ölür - həm ruslar, həm də ukraynalılar bu bombaların altında qırılır. Kimin nə vecinə ki? Qırılan fransız deyil, ingilis deyil, alman da deyil, amerikalı heç deyil.***

***Vaqif Bayatlı Odərin bir şeiri var:***

**Kimin nə vecinə ki,**
**Anamın əziziyəm**
**Anam yalvarır göyə**
**O qarasaç Allahım,**
**O gödəkboy Allahım**
**susub**
**qorumur məni.**

***Və qurban olduğum Allah da susub, nə körpəni qoruyur, nə qocanı, nə də hər iki tərəfin əsgərlərini.***

***Qırhaqırdı, özü də qardaş qırhaqırı. Eyni kökə, eyni dilə malik insanlar acımasızcasına bir-birlərini qırırlar.***

***Putin deyir ki, dediyim dedikdir. Zelenski də deyir ki, yox, mənim dediyim dedikdir. Əslində heç birinin dediyi dedik deyil.***

***Statistikaya baxırıq, həm rusların, həm də ukraynalıların yadıma bir köhnə yəhudi anekdotu düşür.***

***Statistikada ruslar yazırlar ki, ukraynalıların 4 minə yaxın və bəlkə də bir az çox bazasını və hərbi fabrikini dağıtmışıq. Balam, bu Ukraynada nə qədər hərbi baza və texnika varmış?***

***Ukraynalılar da yazır ki, Rusiyanın nə bilim nə qədər təyyarəsini, nə qədər tankını, nə qədər zirehli texnikasını, 13 mindən çox əsgərini və sair və ilaxır məhv etmişik, bu da təxminən Rusiyanın hərbi gücünün 50 faizi deməkdir.***

***Yəni ikisi də gop edir. Yuxarıda dediyim kimi, yadıma köhnə bir yəhudi anekdotu düşdü.***

***1943-cü il. Bir yəhudini Sovet hökuməti müharibəyə çağırır. Yəhudi də qoltuğunda bir qovluq, içində də "Pravda" qəzetləri, gəlir hərbi komissarlığa və deyir:***

***- Bu qəzetlərdəki məlumata görə, biz indiyədək yetmiş beş milyon alman öldürmüşük, Almaniyanın əhalisi də yetmiş milyondu, hələ beş milyon da artıq qırmışıq. Bəs, mən indi gedib kimlə vuruşacam?***

***İndi Rusiyanın və Ukraynanın informasiya agentliklərinin məlumatlarını oxuyanda yadıma həmin yəhudinin anekdotu düşür.***

***Rusiya Ukraynanı işğal etməyənədək dayanmayacaq. Çünki bu artıq demək olar onun son şansıdır.***

***Amma Rusiya qalib gəlsə də və Ukraynanı işğal eləsə də bu da Rusiyanın məhvi deməkdir. Putin hər şeyi hesablayıb,Rusiyanın məhvini də.***

***Amma Rusiya çox böyükdür, onu məhv eləmək o qədər asan deyil. Bunu nəinki Putin, bütün ruslar da bilir. Napoleonun, Hitlerin məhv eləyə bilmədiyi Rusiyanı sanksiyalarla məhv etmək mümkün deyil.***

***Rusiyanı məhv eləyə biləcək bir qüvvə varsa o da tatarlardır, hələ ki tatarlar da bunu istəmir və SOROS da tatarlara pul xərcləyə bilmir. Çünki tatarlar Rusiyanı öz dövlətləri sayırlar.***

***Yadınıza düşürsə Putin Merkelə demişdi:***

***- Biz tarixi araşdırmayaq, araşdırsaq hər rusu qaşısaq, altından tatar çıxar.***

***ABŞ-ın prezidenti Bayden Ukraynaya təxminən 14 milyard dollar pul ayırıb. Və bundan başqa da 800 milyon dollarlıq silah-sursat hədiyyə edib ki, qırın bir-birinizi.***

***Bunlar cəhənnəm, Azərbaycanda da camaat iki yerə bölünüb: yarısı Zelenskiyə, yarısından bir az azı da Rusiyanı, daha dəqiq desək, Putini dəstəkləyir.***

***Bir millət bir-birini qırır. Ay həmvətənlərim, siz niyə bir-birinizi qırırsınız?***

## "45-ci günü arzulamayın" deyən A.Tatoyana tarixdəki "Altı günlük müharibə" ni xatırlatmaq...

**Ermənistanın ən populist və təxribatçı siyasi fiqurlarından biri olan, ötən ay Azərbaycan hökümətindən izn istəmədən Qarabağa gələn, separatçılarla görüşlər keçirən Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan milli xislətinə uygun olaraq Azərbaycana qarşı həyasızlığını geniş şəkildə ortaya qoya bildi. 2016-cı ildə Ermənistanın ombudsmanı seçilən, bu ilin fevralında vəzifə səlahiyyəti başa çatan ombudsman " 5 bəndlik təklif"ə "6 bəndlik ittiham"la cavab verib.**



**1.** "Azərbaycan 8 martdan qaz kəmərini qəsdən zədələyib və təmirinə mane olur".

**2.** "Yüz mindən artıq dinc sakin, xəstəxana, məktəb, uşaq evi, uşaq və qoca qəsdən qazdan, istilikdən, isti sudan məhrum edilib; bütün bunlar humanitar fəlakət və insan haqlarının kütləvi pozuntusudur".

**3.** "Azərbaycan Ordusu bəzi kəndləri atəşə tutur ("Xramort", "Karmir", "Şuka"...) və yanğın baş verir".

**4.** "Kəndlərin yaxınlığına ağır texnika, o cümlədən tanklar gətirilir və bu, nümayişkaranə şəkildə edilir".

**5.** "Azərbaycan Ordusu öz mövqeyindən erməni əhalini erməni dilində təhdid edir. Güc tətbiqi ilə hədələyir və öz torpağından getməyə məcbur edir".

**6.** "Bütün bunlar ayrı-ayrı təşəbbüslər deyil, ümumi plandır".

Yeri gəlmişkən, A. Tatoyan pafosun dibinə girərək sonda bildirib ki, 44 gün oldu bitdi, 45-ci günü (növbəti müharibəni-red Ə.R) arzulamayın.

Qeyd edək ki, hələlik Ermənistan Azərbaycanın göndərdiyi "5 bəndlik təklif"ə rəsmi cavab verməyib.

***P.S. Yazını bitirmişəm, amma elə bilirəm "45-ci günü arzulamayın" deyən Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyana bir mesaj göndərməsəm olmaz, yazı yarımçıq qalar... ən azından elə görünər...***

***Deməli, dünyanın qüdrətli , hegemon dövlətlərinin, Avropanın nüfuzlu beynəlxalq təşkilatlarının 30 ildə baçara bilmədiyi bir performansı Azərbaycan ordusu 44 günlük müharibədə göstərdi. İşğaldakı torpaqlarımızın 70 faizi ermənilərdən tamamilə təmizləndi. Qalan 30 faizini separatçılardan təmizləmək üçün isə bizə cəmi 6 gün də bəs edər... Həmin 6 gündə qüdrətli Azərbaycan Ordusu Qarabağdan separatçıların izini tamamilə təmizləmək gücündədir. Muharibəmizin günü də artar, olar 50 günlük MÜHARİBƏ. Bəli bizə cəmi 6 gün bəs edər!***

***Eynən tarixdəki "Altı günlük müharibə" dəki kimi... Bilirsiniz də "Altı günlük müharibə" 1967-ci ilin 5 iyun tarixində başlandı və 6 gün davam etdi. 6 gün ərzində Səudiyyə Ərəbistanı, Yəmən, Küveyt və digər ərəb ölkələri də İsrailə müharibə elan etdi. Bu, İsraillə Ərəb Birliyi arasında gedən müharibə idi . "Altı günlük müharibə" İsrailin tam qələbəsi ilə başa çatdı.***

***Müharibənin nəticələri bu günədək qüvvədədir. Qüds İsrailin oldu, pan-ərəbizm birdəfəlik çökdü. İsrail bölgədə rəqibsiz güc oldu və torpaqlarını dördqat artırdı. Qəzza, Sinay yarımadası, Qolan təpələri, Qüds torpaqları İsrailin nəzarətinə keçdi. İsrail qalib idi və heç kim onu mühakimə etmədi.***

**Əntiqə**

Elgün Gəncimsoy




# Ölümü alqışlayan igidlər

*Vətən müharibəsində Ağdamın Quzanlı qəsəbəsində yeni salınmış şəhidlər xiyabanında iki yeni məzar qazılmışdı. Birinə Xalid gəlirdi, digərinə isə əslən Laçından olan Şükürü gətirirdilər. Xalidi gətirdilər... Üstü bayraqlı tabut məzara gətirilən zaman yoldan döyüşə gedən hərbi maşın karvanı keçirdi. Maşınlarda döyüşə gedən bütün şəxsi heyyət mənzərəni görən kimi bir nəfəslə qışqırmağa başladı, Şəhidlər ölməz, Vətən bölünməz!..*

*Bu səs ən azı beş dəqiqə susmadı. Get-gedə uzaqlaşan "Şəhidlər ölməz, Vətən bölünməz", -sədaları, şərəfi olan hər kəsin iliyinə işlədi. Hansı ki, o karvanda qışqıran igidlər açıq döyüşə - Şəhid olmağa gedirdilər!... Gözləri ilə şəhid dəfnin görüb coşdular.*

*Bu gün Vətən onun uğrunda getdiyi ölümü alqışlayan igidlərə görə vardır...*

## Fransa Rusiyanın qarşısında şalvarın batırır

**Fransalı hərbi ekspert: "Heç bir Avropa dövləti Rusiyaya qarşı dayanmaq gücündə deyil".**

"Der Spegel" qəzetinə müsahibə verən fransalı hərbi ekspert Pyer Serven bildirir ki, Avropa Rusiyanı məğlub etmək gücündə deyil: "Avropada heç bir dövlət Rusiya ilə hərbi qarşıdurmada qalib gələ bilməz... Avropalılar NATO-ya, əslundə ABŞ -a arxalanaraq, illərdi Rusiya ilə münaqişə aparır".

Hərbi ekspert Fransanı misal gətirərək bildirir ki, Fransa Avropa İttifaqında "ciplərdən tutmuş, atom sualtı qayıqlarına qədər ən çoxsaylı orduya malikdir.

Lakin belə hazırlıqlı orduya malik dövlət də Ukrayna ilə bağlı münaqişələrdə qalib gələ bilməz".

"Fransanın simasında ordu iriçaplı tüfəngi xatırladır. Lakin bu "tüfəngin bir patronu olur". Bizim hər şeyimiz var, amma lazımi miqdarda deyil"- deyə hərbi ekspert qeyd edir.

Bundan başqa o, əmindir ki, Avropa cəmiyyətinin özü də hərbi qarşıdurmalara getməyin tərəfdarı deyi...

Bir sözlə görünən odur ki, Fransa da digər avropa dövlətləri kimi ABŞ-ın fitvasına gedərək illərdi Ukraynanı Rusiyaya qarşı fitilləməkdə səhv addım atdıqlarının fərqindədir.

**Rüstəm Hacıyev**

Emin Piri

# Amerikanın və Rusiyanın qızı

*İki qadın söhbət edir, ailə həyatlarından, övladlarından danışır. Qadınlardan biri qızı haqqında danışır:*

*-Bizim qız ofisdə işləyir. Əvvəl müdir onu özünə katibə götürdü. Gördü ki, yaxşı işləyir, vəzifəsini qaldırıb özünə müavin qoydu. Bir müddət sonra müdir görəndə ki, qızım uzaqdan gəlir, bəzən işi gecə yarı bitir, çox yorulur, ona ayrıca bir ev aldı. İndi qızım heç işə getmir. İşini evdə görür, müdir də arada gecələr evinə gəlib hesabatlara baxır.*

*Beləcə bu formada danışaraq qızını tərifləyir.*

*Öz qızı haqqında danışandan sonra rəfiqəsindən soruşur:*

*-Bəs, sənin qızın nə işlə məşğuldu?*

*Qadın deyir:*

*-Elə bizim qızımız da q..di, amma biz sizin kimi tərifləyə bilmirik...*

*-Ukrayna torpaqlarında rus ordusunun irəliləməsi işğaldırmı?*

*-Bir xalqın iradəsinə zidd olaraq istənilən ordunun bir ölkəyə yerləşdirilməsinə işğaldan başqa ad vermək mümkün deyil.*

*-İraq, Əfqanistan əməliyyatları işğal idimi?*

*-Əlbəttə, işğaldır.*

*Birinin işğalına dünyada "demokratiya"nın, digərinən işğalına isə "antidemokratiya" yarqısı yapışdırdılar.*

*Hə, Rusiya da indi keçib ABŞ ittihamlarına. Ukraynanın nüvə silahı hazırlamaq planı varmış da, kəşfiyyat xəbərləri bunu deyirmiş də...*

*Necə də tanış, oxşar ittihamlar, mənzərələrdir. İmperializmin hər iki üzü iyrəncdir.*

*Hə, lətifəni niyə yazdığımı unutmuşdum. ABŞ-ın da gördüyü iş işğaldır, Rusiyanın da. Sadəcə Rusiya qızını(işğalını) ABŞ kimi tərifləyə bilmir.*

## PARK, YOXSA...

**5-10 il bundan əvvəl Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsində "Ana-bala" heykəlinin yanında bir park tikirdilər. Bunu da camaat eşidib çox sevinmişdi, çünki Yeni Günəşlidə böyük bir park yox idi. Amma illər keçdi, hasarlanmış tikilidə bəzi inşaat işlərindən başqa heç nə gözə dəymədi. Və camaat da düşündü ki, bu necə parkdır ki, 5-10 ildir tikintisi davam edir.**

İndi bir neçə aydır həmin parkın hasarlarını söküblər, əgər buna park demək mümkünsə. Məlum olur ki, orda parkdan söhbət gedə bilməz, sadəcə olaraq, hansısa inşaat işləri görülüb, o da qalıb yarımçıq. Bax, camaatın olan-qalan ümidi də belə puça çıxdı, nə park tikildi, nə də yeni günəşlilər gəlib orda istirahət edə bildi.

## UN BAHALAŞIB?!



**Bu bəd xəbəri dünən axşamdan müxtəlif sosial şəbəkələrdə və saytlarda yayıblar. Guya təzə xəbərdi. Onsuz da bizdə dünyada iqtisadi böhran getməmişdən hər şey bahalaşırdı. İndi də bütün qiymətlər ikiqat artıb. Hələ belə getsə taxıl qıtlığı və un azlığı ilə əlaqədar olaraq çörəyin qiyməti daha da artacaq.**

Amma kənddə mənim qohum-əqrəbam çox ağıllı tərpənib əvvəllər bostan-tərəvəz, yonca əkdikləri yerə taxıl əkiblər. İndi maşallah, həmin taxıl da göyərib. Deyirlər ki, müəllim, heç ürəyini sıxıb-eləmə, un nə qədər baha olur-olsun, sənə nə qədər lazımdır un verəcəyik. Mən də fikirləşirəm ki, yaxşı, mənim qohum-əqrəbam kömək elədi, bəs imkanı olmayan adamlar çörək dəfələrlə bahalaşsa necə çıxış yolu tapacaqlar? Ona görə də bərk narahat oluram.

**Emil Faiqoğlu**

**Qanun güclüdür, ehtiyac isə ondan da güclüdür.**

**(İohann Volfqanq Höte)**

**Ədalət yer üzündə Allahın tərəzisidir...**

**(Əbu Turxan)**

# "Hüquqşünas təcrübəsindən asılı olmayaraq bir gün çətinliklə qarşılaşacaq"

***Bugünkü müsahibimiz Bakı Dövlət Universitetinin müəllimi, hüquqşünas - pedaqoq Yavər Məmmədovadır.***

**- İlk olaraq sizdən,öz bioqrafiyanız və ümumi fəaliyyətiniz haqqında bizə qısa məlumat istərdim ? Və yerigəlmişkən sizi qarşıdan gələn 8 mart qadınlar bayramı münasibətilə təbrik edirəm.**

- Mən də bütün xanımları və bəylərin ailəsindəki xanımları qarşıdan gələn Beynəlxalq Qadınlar bayramı münasibəti ilə təbrik edirəm və xanımlarımıza xoşbəxtlik arzulayıram. Həmçinin bütün xalqımızı qarşılayacağımız Novruz bayramı münasibəti ilə də təbrik edirəm, xoş illər arzulayıram.

Bakı şəhəri, 7 saylı Pilot məktəbi bitirmişəm, Bakı Dövlət Universitetində Hüquq fakültəsində 2014-cü ildə bakalvr təhsilini tamamlayıb, Dövlət və Hüquq nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr pilləsinə daxil olmuşam. Həmçinin 2015-2017-ci illərdə Almaniyanin Julius-Maximilians adına Vürzburq universitetində Avropa hüququ ixtisası üzrə təhsil almış və LLM dərəcəsi əldə etmişəm.

Məktəb vaxtından başlayaraq hər zaman ictimai fəaliyyətlə məşğul olmuşam, məktəbdə Şagird Parlamentinin Sədri, universitet illərində isə Tələbə Gənclər Təşkilatında debat klubun sədri, ELSA-da beynəlxalq seminar və konfransların təşkili üzrə vitse-prezident, ən sonda isə Tələbə Həmkarlar Təşkilatının fakültə Sədri kimi fəaliyyət göstərmişəm. Tələbəlik illərimdə 2 dəfə "İlin tələbəsi" adına layiq görülmüşəm. Bundan əlavə Bakı 2015 Avropa Oyunlarında da Protokol Qrupunda könüllü olaraq iştirak etmişəm.

2015-ci ildə Avstriyanın Vyana şəhərində Beynəlxalq Dünya İnsanı Təşkilatı tərəfindən dünyada "Dünya İnsanı" adına layiq görülən ilk gənc olmuşam.

Təhsilimi bitirdikdən sonra Bakı Dövlət Universitetində Avropa hüququ ixtisasında Alman sektoruna müxtəlif fənnləri tədris etməyə başlamışam, bu gün isə Konstitusiya Hüququ kafedrasının müəllimiyəm. Paralel olaraq 2018-2020-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatında Hüquq şöbəsində baş məsləhətçi, daha sonra isə "Alpina Parking Consulting" şirkətində baş menecer və hüquqşunas olaraq fəaliyyət göstərmişəm.

**- Bir pedaqoq və hüquqşünas olaraq fikrinizcə, uğurlu hüquqşünas olmaq üçün nədən başlamaq lazımdır?**

- İlk növbədə uğurlu hüquqşünas heç bir zaman araşdırma aparmağı və yenilikləri öyrənməyi dayandırmamalıdır. Təbii ki, düşünürəm bu bütün sahələrdə belədir, lakin hüquq sahəsi birbaşa həyatda baş verən proseslərlə əlaqəli olduğundan və bu proseslərin keşikçisi və qoruyucusu rolunu oynadığından hüquqşünas bu prosesləri çox ciddi nəzarətdə saxlamalı, hüququn bu prosesdə yerini müəyyən etməlidir.

**- Hüquqşünaslıq ixtisasına yiyələnmək istəyən tələbələr üçün mühazirələrin daha effektiv olması məqsədilə, bir müəllim kimi tövsiyyələriniz nədir?**

Bir müəllim olaraq mühazirələrimi interaktiv şəkildə təşkil etməyə üstünlük verirəm. Hər zaman çalışıram tələbələrimdə hüquq düşüncəsi, analizetmə qabiliyyəti formalaşdırım. Məhz bu səbəbdən də həyatımızda qarşılaşdığımız nümunələrin üzərində müzakirələr aparamağa, onların düşüncəsini sərbəst ifadə etmələrinə çalışıram. Fikrimcə, bir müəllim tələbəyə yalnızca dərsi öyrətməklə kifayətlənməməlidir, həmçinin tələbənin gələcək həyatı üçün də istiqamətləndirici rol oynamalıdır.




**- Sizə görə bu sahədə, daha peşəkar mütəxəssis olmaq üçün, tələbələr könüllülük fəaliyyəti ilə məşğul olmalıdırmı və ya müəyyən müəssisələrdə təcrübə keçərək daha çox sosial fəaliyyətlərə üstünlük verməlidirlər? Gələcəkdə mötəbər işlərdə işləmək, nüfuzlu hüquqşünas olmaq üçün sadəcə hüquq kitablarını mükəmməl bilmək kifayətdir?**

- Peşəkar mütəxəssis olmaq üçün insan hərtərəfli inkişaf etməlidir. Müəyyən müəssisələrdə hüquqşünas kimi təcrübələri onlara gələcək fəaliyyətində yardımçı olacaq, lakin düşünürəm ki, bu kifayət deyildir. Könüllülük proqramında tələbələr idarəçiliyi, təşkilatlanmanı, komanda işini öyrənirlər. Bu isə onlara gələcək fəaliyyətlərində hər hansı problemdən daha tez çıxış yolu tapmaq xüsusiyyətini formalaşdırır. Hüquq sahəsi həyatın bütün sahələrini əhatə edən çox geniş bir sahədir. Və hansı sahə ilə əlaqədar işləyirsə mütləq sürətdə o sahənin minimum biliklərinə malik olmalıdır. Bank sahəsində çalışan hüquqşünas bank əməliyyatlarını bilməlidir, tibb sahəsində çalışan hüquqşünas təbii ki, müəyyən qədər tibbi anlayışı olmalıdır. Məhz bu hüquq sahəsinin nə qədər çətin və dərin bir sahə olduğunun bariz nümunəsidir.

Nüfuzlu hüquqşünas olmaq üçün təcrübə əsasdır, lakin nəzəriyyə isə bünövrədir. Nəzəri bilikləri zəif olan hüquqşünas təcrübəsindən asılı olmayaraq bir gün çətinliklə qarşılaşacaq.

**- Müasir dövrdə beynəlxalq təcrübədən faydalanmadan inkişaf təbii ki, çətindir. Bun mənada magistr təhsilini Beynəlxalq hüquq ixtisası üzrə almağın nə kimi üstünlüklərini misal göstərə bilərsiniz?**

- Ümumiyyətlə, heç bir zaman tələbələrimin də "hansı hüquq sahəsi üstündür?" sualına cavab vermirəm. Və çox təəssüf edirəm ki, belə bir məsələ diskusiya mövzusudur. Mənim üçün bütün hüquq sahələri əsasdır. Bu sadəcə seçim məsələsidir, insan özü hansı istiqamətdə formalaşmaq istəyir. Hüquqa dar çərçivədə baxan insanlar üçün hüquq yalnız dövlət hüquq sahələrindən ibarətdir. Onlar hüquqa sadəcə dövlətin daxilində baş verən münasibətləri tənzimləyən bir sahə kimi yanaşırlar. Bu fikirdə olan insanların arqumentinə görə beynəlxalq hüququn məcburetmə funksiyası olmadığından heç bir əhəmiyyət kəsb etmir. Mənim fikrimcə isə beynəlxalq hüquq bir hüquqşünasın vizyonunu genişləndirir, hüquqa müxtəlif prizmalardan yanaşma imkanı verir. Cənab Prezident İlham Əliyevin fərmanlarında da hər zaman qanunvericilik və məhkəmə sahələrində beynəlxalq təcrübənin nəzərə alınması tapşırılır. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarı da buna bir daha misal ola bilər.

**- Ümumiyyətlə yeni məzun olmuş hüquqşünaslara karyeralarına uğurla başlamaları üçün nələri məsləhət görürsünüz?**

- Bütün sahələrdə olduğu kimi hüquqşünaslar da karyeralarının başlanğıcında bir çox çətinliklə qarşılaşırlar. Karyeralarının ilk illərində sadəcə öyrənməyə meyil etsinlər, bu zaman heç bir çətinlikdən, iş yükündən çəkinməsinlər. Bir neçə sahədə çalışaraq özlərinə uyğun olan sahəni tapsınlar. Hansı sahədə özlərini rahat hiss edirlərsə o sahədə irəliləsinlər. Sevmədikləri bir sahədə çalışmaq onların həyatını sadəcə bir zindana çevirəcək.

**- Özünüinkişaf həmişə ziyalı üçün prioritetdir. Bəs siz hüquqşünas olaraq, özünüzü necə inkişaf etdirirsiniz?**

- Daha öncə də qeyd etdiyim kimi hüquqşünas təkcə qanunları və ya hüquq ədəbiyyatını oxumaqla kifayətlənməməlidir. Məhz bu səbəbdən də mən müxtəlif sahələrin ədəbiyyat nümunələri ilə tanış oluram və lazım gəldikdə o sahədə müəyyən araşdırmalar aparıram. Akademik fəaliyyətim müxtəlif dövlətlərdə və müxtəlif sahələrdə ixtisaslaşan hüquqşünaslarla müzakirələr aparmaq imkanı yaradır. Dil bilgilərim isə istənilən məsələlərlə bağlı araşdırma aparmaq fürsəti yaradır.

**-Hesab edirəm ki, müsahibəmizin sonunda tələbələrə və gənc hüquqşünaslara deyəcəkləriniz var. Son olaraq, tələbələrə nə demək istərdiniz, onlar universitet həyatını necə daha səmərəli keçirə bilərlər?**

- Hər zaman tələbələrimə verdiyim bir neçə əsas məsləhətim var: Ən birincisi, heç bir zaman vaxtlarını boşa keçirtməsinlər. Tələbəlik illəri özünüinkişaf üçün ən münbit şəraitdir. Çoxlu mütaliə etsinlər. Mütləq sürətdə xarici dil öyrənsinlər. İnsan nə qədər çox dil bilirsə o qədər çox araşdırma və öyrənmə imkanları yaranır. Sağlam həyat tərzləri olsun, mütləq sürətdə idmanla məşğul olsunlar. Bu onların dözümlülüyünü artıracaq, distiplinli və möhkəm xarakterli, iradəli biri olacaqlar.

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

# Könül Nurullayeva: "Ermənistanın Bakının təklif etdiyi konstruktiv təklifləri qəbul etməkdən başqa yolu yoxdur"

**Bu gün beynəlxalq ictimaiyyət Azərbaycanın yaratdığı yeni reallıqları qəbul edir. Ermənistan qısa vaxtda bölgədə davamlı sülhün təmin olunması istiqamətində real addımlar atmalıdır. Azərbaycan tərəfinin bir neçə gün əvvəl Ermənistana təqdim etdiyi baza prinsipləri də bölgədə dayanıqlı sülhün təmin olunmasına hesablanıb.**

Faktiki müharibədən sonra bölgədə əməkdaşlıq üçün tarixi imkan yaranıb. Bakının təklif etdiyi 5 baza prinsipi iki dövlət arasında münasibətlərin normallaşmasını nəzərdə tutur. Bu təkliflər əslində 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanata, Brüssel sülh gündəliyinə, bir sözlə tam şəkildə beynəlxalq hüquqa əsaslanır. Ermənistan isə Bakının təqdim etdiyi prinsiplər ətrafında manipulyasiya etməklə məşğuldur. Belə ki, İrəvan israrla ATƏT-in Minsk Qrupunun həmsədrlərini danışıqlar masasına qaytarmağa çalışır. Halbuki Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bir neçə gün əvvəl də bəyan edib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsini imzalanmaqdan ötrü üçüncü tərəfə ehtiyac yoxdur. Yəni, tərəflərin sülh sazişini birbaşa təmaslar çərçivəsində imzalaması mümkündür. Azərbaycan da əslində qardaş ölkə ilə eyni mövqeni bölüşür.



Lakin Ermənistan "Minsk üçlüyü"nü yenidən reabilitasiya etməklə vaxt udmağa çalışır. Paralel olaraq erməni rəsmiləri normallaşma prosesində guya maraqlı olduğunu göstərməyə çalışır. Ermənistanın xarici siyasət idarəsinin rəhbəri Ararat Mirzoyanın Türkiyə ilə sərhədləri açmağa hazırolduqlarına dair açıqlaması da əslində imitasiya xarakteri daşıyır. Çünki Ankara açıq şəkildə mövqeyini ifadə edib-Ermənistanla normallaşma prosesində mütləq Azərbaycanın maraqları nəzərə alınacaq.

Ermənistan Azərbaycanın yaratdığı yeni reallıqları qəbul etmədəm Türkiyə ilə sərhədlərin açılmasına nail ola bilməyəcək. Bu mənada İrəvanın Bakının təklif etdiyi konstruktiv təklifləri qəbul etməkdən başqa yolu qalmır.

Ən əsası, Ermənistan rəsmiləri yaxşı dərk edir ki, sülh və əməkdaşlıq təklifi sonsuza qədər masada olmayacaq.

# Beş il əvvəl törədilən cinayətin üstü indi açıldı

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin səmərəli birgə fəaliyyəti nəticəsində Ağsuda beş il əvvəl törədilərək bağlı qalmış cinayətin üstü açılıb**

Baş Prokurorluqdan Adalet.az-a verilən məlumata görə, 1999-cu il təvəllüdlü Ağsu şəhər sakini Qəhrəmanova Ayşən Namizəd qızının 27 yanvar 2017-ci il tarixdə itkin düşməsi faktına görə Ağsu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə başlanmış cinayət işi üzrə icraat təqsirləndirilən şəxsin müəyyən edilməməsi əsası ilə 20 dekabr 2019-cu il tarixdə dayandırılmışdır. 07 mart 2022-ci il tarixdə iş üzrə icraat təzələnərək istintaq Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən davam etdirilməklə peşəkar prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmış və kompleks istintaq hərəkətləri və əməliyyat axtarış tədbirləri həyata keçirilmişdir. İstintaqla müəyyən edilmişdir ki, 2017-ci il yanvarın 27-dən 28-ə keçən gecə 1991-ci il təvəllüdlü Asif Manafov yaxın münasibətlərdə olduğu Ayşən Qəhrəmanova ilə aralarında yaranmış mübahisənin gedişində bıçaqla xəsarət yetirməklə onu öldürüb meyiti əvvəlcə Qaraqaşlı kənd qəbristanlığında gizlətmiş, yanvarın 28-də saat 22 radələrində isə meyiti oradan götürüb Kürdəmir rayonu ərazisində Şirvan kanalının yaxınlığında basdırmışdır.

16 mart 2022-ci il tarixdə meyitin basdırıldığı yerdən insan skelet hissələri, geyim əşyalarının fraqmentləri aşkar edilərək götürülmüşdür. 17 mart 2022-ci il tarixdə Asif Manafov şübhəli şəxs qismində tutulmuş, dindirilərkən o, törətdiyi əməli etiraf etmişdir.

**Prokurorluq orqanları tərəfindən ötən illərdən gizli və qeyri-aşkar şəraitdə törədilməklə bağlı qalmış cinayətlərin açılması istiqamətində işlər davam etdirilir.**

*Rza Rzayev*
*Rejissor, aktyor*



# Rusiya düşmənçiliyi

*Bilirəm,çoxu yardan (Rusiyadan) gileyli.*

*Dünyanı tək yemək istəyənlər var, bunlar Avropa dövlətləri və Amerikadır, qarşılarında müxtəlif vaxtlardaRus olub, son dövrlər Çin də var və var olmaq istəyən İran da var, ən əsası son dövrlər əsrlər ilə var olan, keçmiş əsrdə dağıdılan (Osmanlı), son dövrlər Erdoğan ilə yenidən doğulan yeni Türkiyə də var oldu.*

*Ərəb baharı ilə bahara çıxa bilməyən Avropa və Amerika Şərqdə maraqları eyni olan, amma fərqli 3 dövlətə uduzan kimidir - Türkiyəyə, Rusiyaya və İrana.Səbəb, bir daha söyləyirəm, Erdoğanın yeni Türkiyəsi oldu.*

*Türkiyənin güclənməsi, yenidən doğuluşu İranı tez dağılmaqdan xilas etsə də, Rusiyanın daha yaxın hədəf olmasını tezləşdirdi.İranın tezliklə dağılması Türkiyəni daha da gücləndirə bilərdi deyə, dünya gücləriTürkiyəni daha güclü edən gücü ortadan qaldırmaq istəyirlər.*

*Dünya güclərinə qarşı yeni güc yaranırdı, xiristan (Rus) və müsəlman (Türk) birliyi.Dünya gücləri buna heç cür imkan vermək istəmirlər. Öncə Türkiyəni hədəf aldılar, əllərində olan bütün imkanlardan istifadə etdilər,olmadı, Türkiyəni belə məhv edə bilməyəcəklərini görübgeri çəkildilər, bir az uzaqdan gəlməyi düşündülər, Türkiyənin hədəfi olan, Türkiyəni daha da gücləndirə biləcək Kiyevin (gəv evinin) Türkiyənin nəzarətinə keçəcəyində qorxdular və Türkiyə ilə Rusiyanı Kiyevdə məğlub etməyi qarşılarına aldılar.*

*Türkiyə ilə Rusiyanı Kiyevdə üz-üzə qoymaq istəyirlər, Kiyevin Türkiyənin təsirinə düşməsindənsə, Rusiyanın Kiyevi işğal etməsini daha məqsədəuyğun bildilər.*

*İki tarixi güc, iki böyük lider Avropa və Amerikanın dövri planlarını pozurlar. İllərdir Avropa və Amerika onlar üçün plan tutur, onları hər il plana salır, hər il də tutulan planlar pozulur.*

*Rusiya ilə Türkiyə dünya güclərinə qarşı yeri gələndə yerində birlik nümayiş etdirirlər.*

*Türkiyənin müəyyən etdiyi siyasi kurs, tutduğu yol, aparılan ardıcıl siyasət artıq dünya güclərini təbdən çıxarmış kimidir.*

*Türkiyənin artıq keçmiş Sovet ölkələrinə yolu açılmışdır, etnikbirlik və Rusiya ilə müasir maraqların üst-üstə düşməsi, düşmənlərin eyniliyi bu iki dövləti kürəkkürəyə gətirmişdir.*

*Rusiya strateji məqsədləri kənara qoyubmövcud vəziyyətdən çıxmaq, keçmiş ərazisini Avropa və Amerika işğalından xilas etmək üçün Türkiyənin bu ərazilərə girməsinə yaşıl işıq yandırmışdı.*

*Türkiyə Qarabağdan sonra artıq Kiyevdə idi, dünya gücləri Kiyevin Türkiyənin əlinə keçməməsi və Rusiyanın Kiyevi tutması üçün əllərindən gələni etdilər.*

*Hələ də Rusiyanın Kiyevi darmadağın etməsi üçün Rusiyaya yalançı (maliyyə və iqtisadi) təzyiqlər edirlər ki, Rusiya daha da aqressivləşsin.*

*Qonşu olmaq həm də düşmən olmaq deməkdir, çünki bir ərazini bölüşürsən, ərazidə maraqların üst-üstə düşmür, güclənmək, artıq olmaq üçün qonşu olmayan dövlətlər ilə birləşib qonşuya güc gəlmək istəyirsən.*

*Rusiya Ukranaya hücum edib. Başqa yolu var idimi? Yox.*

*Kiyev Rusiyanın əsrlərdir düşməni olan dövlətlərə qoşulub Rusiyanın düz burnunun ucuna onların qoşunlarını yığmaq istəyir.*

*Gəlin bir anlıq düşünək, Fransa raketlərini və ordusunu Ermənistanda yerləşdirir və yaxud Yunanıstan fransız ordusunu Yunanıstanda yerləşdirir və raketlərinin (atom) üzünü Türkiyiyə çevirir. Azərbaycan və Türkiyə belə halda nə edərdi?Bir az da yaxına gələk, son dövrlər, gerçək olmadığı halda İran düşündü ki, Azərbaycan İsrail ordusunu və raketlərini Azərbaycanda, İran sərhədinə yaxın yerləşdirir, İranın çıxardığı oyunları yəqin unutmamısınız. Sərhədlərimizə qoşun yeritdi, təlimlərə başladı.*

*Avropada, Amerikada belə bir deyim var, "Bir şəxsin azadlığı o biri şəxsin azadlığının sərhədində bitir".Bəli. Bir dövlətin azadlığı da o biri dövlətin azadlığının (suverenliyinin) sərhədində bitir.*

*Mən suveren dövlətəm deyibbaşqasını məhv edə biləcək dövlətlərin raketlərini ərazində yerləşdirə bilməzsən, bu başqabir dövlətə təhdiddir. Qonşuluq prinsipləri var, qonşunun düşməninə pas verirsənsə, artıq qonşu deyilsən, düşmənsən, düşmənlə necə davranmağı da Rusiya göstərir.*

*Dövlət maraqları var, əsrlərdir bu maraqlar uğrunda mübarizə gedir - dostlar, düşmənlər zamanla dəyişir, amma əbədi (əzəli) düşmənçilik (maraqlar) yerindədir.*

*Rusiyanı zəif salmaq həm də Türkiyəni meydanda tək qoymaqdır, çünki bu iki dövlətin tarixi və dövlət maraqları onların indiki dövrdə bir yerdə olmasınaimkan verir. Türkiyənin nə İran ilə, nə də Çin ilə birgə olması mümkün deyil, səbəb tarix deyil, tarixdə baş verənlər əhəmiyyətsizdir , sadəcə - müasir maraqlar buna imkan vermir.*

*Rusiya həmişə Avropa və Amerika üçün yolkəsən olub, Rusiya olan yerdə yeni yaranan güclər - İran, Çino qədər də təhlükəli hesab olunmur, çünki İran və Çin yarı güclərini Rusiyadan alırlar.*

*Hədəf həm də Çindir, Çini məğlub etmək üçün Rusiyanı zəiflətmək lazımdır, çünki Rusiya Çini özününkü sayır.*

*Əsas hədəf isə Türkiyədir. Türkiyə dünya üçün etnik və mədəniyyət, Rusiya ideoloji, Çin isə iqtisadi təhlükə hesab olunur. Dünyanın yarısı ilə Türkiyənin etnik (Türk) və mədəniyyət (İslam), Rusiyanın ideoloji (kommunizm), Çinin isə iqtisadi bağlılığı vardır.*

*Türkiyənin etnik və mədəniyyət gücü ilə bərabər Rusiyanın ideoloji gücü bu gün də Çində yerindədir. Amerika Çinə girmək üçün bu iki amili ortadan qaldırmalıdır, yoxsa Çinə girə bilməyəcəyini bilir.*

*Kiyevdə baş verənlər bu iki gücün Çində qarşısını almaqdır.Avropa və Amerika Çinə tək sahib çıxmaq istəyirlər.*

*Tərəf olmaq - bir olmaq demək deyil. Çin, İran, Rusiya hansısa zaman kəsiyində tərəf ola bilirlər və oldular, bir olmaları isə mümkün deyil. Amma Rus-Türk birliyi mümkündür. Bunun üçün əsaslar var - etnik, mədəniyyət və ideoloji. Türkiyə heç bir dövlət ilə bu qədər iç-içə deyil.Türk xalqı Taksim meydanında Atatürklə yanaşı iki rus generalına da heykəl ucaldıb.*

*Türk Birliyi gələcəkdə Rusiyanı, Pakistanı, Banqladeşi, Şimali Kipr Türk Respublikasını özündə birləşdirəcək. Əsas hədəf budur.*

*Rusiyadan S-400 alan Türkiyəyə ABŞ-ın etirazını hamımız xatırlayırıq, bu məsələnin dərin tərəfləri var.Yəni Türkiyə Rusiya ilə üz-üzə gəlməyəcək, səmalarını birgə qoruyacaqlar.*

*Rusiya-Türkiyə birliyi Türkiyənin atom silahı əldə etməsi deməkdir. Dünya güclərini qorxuya salan budur.*

*Üstdən nə geyinirsən geyin, məqsəd - altdakının üstünü örtməkdir!*

*Kiyev bu yolu niyə seçmişdi, yəni üzünü niyə Avropa və Amerikaya tutmuşdu? Asan yem arzusu, Kiyevi iqtisadi cəhətdən dirçəldə bilməyən mövcud hakimiyyət Avropadan, Amerikadan maliyyə alıb onlara Kiyevdə yer eləməkistəyirdi, bu da heç yerinə düşmədi, düşən Ukrayna xalqı oldu.*

*Selin qarşısında durmazlar, istiqamətini dəyişərlər. Böyük siyasətçilər belə anlarda qarşı-qarşıya gələn güclərin məkanı olmaqdan qaçarlar, Türkiyəli keçmiş diplomatlardan birinin dediyi kimi, "Filler tepişir, çimenler ezilir". Yəni, Rusiya-ABŞ döyüşür, əzilən Kiyevdir.*

*Rusiyanı nə ekonomik, nə də savaş yolu ilə yıxmaq mümkün deyil. Putin illərdir bunun üçün xüsusi tədbirlər görüb.*

*Qaldı böyük şirkətlərin Rusiyanı tərk etməsinə, bunun əsas səbəbi yaxın gələcəkdə baş verəcəklərdir. Avropa, Amerika uzun illər Soveti dağıtmaq üçün açıq büdcə yaratmışdı, təki Sovet dağılsın, bilirdilər ki, qoyduqları mayanı artıqlaması ilə çıxaracaqlar və çıxardılar da. Sovet dağılan kimi, Avropa və Amerika şirkətləri daraşdılar Rusiyaya (keçmiş Sovet ölkələrinə) ideoloji fərqlilik həm də iqtisadi, texnoloji və texniki fərqlilik idi, bir anda Rusiyada hər şey dəyişdi - məişət texnikasından tutmuş yüngül sənaye mallarına qədər.*

*Qoyulan maliyyə geri qaytarılsa da, dünya gücləri Rus ruhunu məğlub edə bilmədilər, dünya gücü olmaq ideyası rusların beynindən silinmədi, bu da gələcək üçün xof yaradırdı, dünya gücləri gələcəklərini qorumaq üçün Rusiya bazarını tərk edirlər, anlayırlar ki, Rus ruhu yenidən dirçəlmək üzrədir, gec-tez başqa yollar ilə ölkədən çıxarılacaqlar, az itkisiz və Rusiyanımövcud dövrdə zəif salmaq üçün yeni və düşünülmüş taktikadan istifadə edirlər, Kiyevi bəhanə edərək.*

*Bir şey başqa bir şeyə görə dəyər qazanır və dəyərləndirilir.*

*Avropa və Amerika Rusiyaya görə Kiyevə dəyər verir və dəyərləndirir, Kiyevin Rusiyasız dəyəri yoxdur.*

*Qarabağda uduzan dövlətlər Kiyevdə Rusiyaya və Türkiyəyə qarşıdırlar. İllərdir Ermənistanın işğal siyasətinə dəstək verənlər (Fransa və başqaları) indi Kiyevi Rusa qarşı qoyurlar.*

*Birdən sonra iki gəlir, unutmayın.*

*Müharibənin dayanması üçün və sadə insanlara dəstək üçün əlimizdən gələn köməkliyi etməliyik. Amma Kiyevin mövcud dövlət siyasətinə dəstək olmaqoturduğumuz budağı kəsmək kimidir. Fransa, ABŞ Kiyevdə güclənsə, ən azı sabah Ermənistanı gücləndirib bir daha bizim üstümüzə salacaqlar - Türkiyənin və Azərbaycanın.*

*Müharibənin çox dəhşətli hadisə olduğunu Fəlsəfədə, Sosiologiyada ifadə edən belə bir fikir var: "Adi həyatda bir nəfər öldürürsən, qatil sayılırsan, müharibədə nə qədər çox insan öldürsən, qəhrəman sayılırsan!"*

*Dünyada ən böyük qətliamları edən dövlətlər (Fransa, Almaniya, Amerika) Kiyevi dəstəklədikcə, Rusiyanı haqlı çıxarırlar.*

*Avropanın, Amerikanın mahiyyət və məzmunu - səni başqaları ilə düşmən edər, özünə qarşı ehityac yaradar, sonra səni çıxılmaz vəziyyətə salar, başqa yolun qalmayanda deyərlər, "Səndən incimirik, küsmürük, vəziyyəti anlayırıq, biz artıq bu məsələyə müdaxilə edə bilmərik, siz də istəyirsiniz əks tərəf ilə razılaşın".*

*Gələcək haqda ancaq proqnoz vermək olar, nəyin düz ya səhv çıxacağı isə kimin gələcəkdənnə istəməsindən asılıdır, elə istəkdən doğan proqnozlar kimi.*

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az



# A yordu, yordu, yordu...

***...Hə, bu sözü heç də təsadüfən işlətmirik. Çünki elə xidmət sahələri var ki, camaatı ancaq get-gələ salmaqdan, yormaqdan usanmır, əksinə, tez-tez a yordu, yordu, yordu ifadəsini yada salırlar. Camaat ora ayaq döyməkdən bezir, onlar isə insanları get-gələ salmaqdan yorulmurlar və bəzən də həmin quruma işi düşən adam fikirləşir ki, elə-belə gedib-gəlməkdənsə, onların bizə göndərdiyi pulu ödəyək.***

***Belə qurumlardan biri də "Azəristiliktəchizat"dı. Həmin quruma uzun müddət rəhbərlik etmiş Yaşar Həsənov iş görmək əvəzinə, dövlətin milyonlarla ayırdığı vəsaiti hara xərclədi, bir Allah bilir. Bahalı tenderlərin qalibi oldu və o tenderdən qazandığı pulları isə haralara xərclədi, bax, o da bilinmir. Əhaliyə işlətmədiyi istiliyin pulunu yazdılar. İnsanlar əlacsız qalıb o pulu da ödədilər.***

***Heç uzağa getməyək. Bu sətirlərin müəllifi 2014-cü ildən mütəmadi olaraq işlətdiyi istiliyin pulunu ödəyib. Amma həmişə də ödəməyə baxmayaraq, bir qəbz göndəriblər ki, sənin 40 manat borcun var. A kişinin oğlu, bu nətər borcdu ki, biz onu 2014-cü ildən davamlı olaraq ödəmişik. Əgər ödəmişiksə, bu borc olmalı deyil. Nə başınızı ağrıdaq. Ödənilmiş pulların qəbzini götürüb getdik "Azəristiliktəchizat"ın Suraxanı rayon şöbəsinə. Orda bizi şöbənin əməkdaşı Orxan adlı bir şəxs qəbul elədi və insaf naminə deyək ki, axıra qədər dinlədi. Ödədiyimiz pulların qəbzinə baxdı və dedi ki, düzdü, hər şeyi ödəmisiz, amma 2012-ci ildən 2014-cü ilə qədər ödəyişiniz yoxdur. Ödənişlər 2014-cü ildəndir.***

***Orxan müəllimin bu fikirləri ilə razılaşmadıq. Nəzərinizə çatdırdıq ki, bizim binaya, yəni Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13 nömrəli binaya 2014-cü ildən istilik verilib. Çünki qazanxana da 2014-cü ildən istismara hazır olub. Əgər qazanxana yox idisə və işləmirdisə, bu istilik, ay hörmətli Orxan müəllim, nə vaxt verildi? Axı biz davamlı olaraq 2014-cü ildən borcumuzu həmişə ödəmişik. Bax, indi də 2022-ci ildir. Biz 6 ay ərzində mövcud qanunla 32 manat pul ödəməliyik. Amma 40 manat ödəmişik. Belə olan halda bizim nə üçün borcumuz olmalıdır? Həmin idarədə bir neçə gün bundan əvvəl bir xanım zəng edib bizi dinləmədən borcunuz var deyir və sonra da dəstəyi yerə qoyur. Həmin xanıma deyə bilmirik ki, ay xanım, biz builki borcu artıqlaması ilə ödəmişik, əvvəlki yazılmış borc isə heç bir hüquqi əsasa malik deyil.***

***Ümumiyyətlə, xidmət sahələri əhaliyə həmişə işlətmədiyi enerjinin pulunu yazıblar. Əgər mən filan qədər enerji işlətmişəmsə, əldə bir sübut olmalıdır. Yoxsa kimsə ağlına gələn bir rəqəmi kompüterə yükləyir, sonra da deyir ki, kompüter belə göstərir.***

***Balam, kompüterə də həmin rəqəmi siz yükləyirsiniz də. Ümumiyyətlə, "Azəristiliktəchizat"da abonentlərlə bağlı çox problemlər var. Əvvəlki rəis bir iş görə bilmədi, heç olmasa onu əvəz edən şəxs camaatın işlətmədiyi istiliyin pulundan əl çəkməlidir.***

***Başa düşmürük, əgər bizə bu istilik verilməyibsə, nə üçün onun pulunu ödəməliyik?! Belədirsə, qoy bu mübahisəli məsələlər məhkəmə müstəvisinə verilsin və orda öz həllini tapsın. İnsanlardan işlətmədiyi istiliyin pulunu almaq bilavasitə cinayət tərkiblidi və orada korrupsiya elementləri var. Yaxşı olar ki, bu barədə "Azəristiliktəchizat" ciddi araşdırma aparsın, hər şeyi zor gücü ilə yox, qanun çərçivəsində həll eləsin.***

## Avtobusda soyuqdan donduq



**Martın 18-də saat 9:20 dəqiqədə Yeni Günəşlidən metronun "Neftçilər" stansiyasına doğru hərəkət edən 50 nömrəli marşruta minəndə gördük ki, avtobusun salonu çox soyuqdur. Hətta çöldə hava burdakından bir qədər mülayim idi. Çünki çöldə hərəkət edirsən və soyuğu bir o qədər də hiss etmirsən. Qəribə də olsa, deyəcəyik. Ümumiyyətlə, 50 nömrəli marşrutda işləyən əksər avtobuslarda qış vaxtı istilik sistemi işləmir. Ona görə də burda hər şey adiləşir.**

Həmin marşrutda hərəkət edən 90 HS 675 nömrəli avtobusda doğurdan da vəziyyət çox acınacaqlı idi. Hətta bəzi sərnişinlər salon soyuq olduğuna görə, düşüb başqa bir avtobusa minirdilər.

Ümumiyyətlə, soyuq günlərdə tək 50 nömrəli marşrutda deyil, 596, 133 nömrəli marşrutlarda işləyən avtobuslarda da istilik sistemi fəaliyyətsiz idi. Təbii ki, bu da sərnişinlərin bu yazağzı xəstələnməsinə, soyuqlamasına və hətta sətəlcəm olmasına gətirib çıxara bilər.

Ona görə də Bakı Nəqliyyat Agentliyi adını çəkdiyimiz marşrutlarda qayda-qanun yaratmağa çalışmalı, soyuq havalarda istilik sistemi olmayan avtobusların istismara buraxılmasına icazə verməməlidi. Bir sözlə, həmin marşrutların sahibləri zəhmət çəkib, mövcud nöqsanları aradan qaldırmalıdılar.

**Emil FAİQOĞLU**

## *Zelenski: Sahibkarlara 0%-lə kreditlər veririk*



**Ukrayna hərbi vəziyyət, iri-miqyaslı tənzimləmə zamanı sahibkarlar üçün 0%-lə güzəştli kreditləşdirmə tətbiq edir, vətəndaşların əmanətlərinə 100% zəmanət verir.**

Bu barədə Prezident Vladimir Zelenski deyib.

"İstənilən biznes hərbi vəziyyət müddəti və müharibədən sonra 1 ay müddətinə 0%-lə kredit götürə biləcək. Sonra kredit minimum 5%-lə hesablanacaq. Kreditin ümumi məbləği 60 milyon qrivnaya qədər ola bilər. Məqsəd bizim proqramdan istifadə edə biləcək biznes dairələrinin daha geniş olmasıdır", - Zelenski bildirib.

## *Ukrayna ordusu Su-34-ü "Stinger"lə məhv etdi*

**Kiyev vilayətinin Buça rayonu ərazisində Rusiyaya məxsus Su-34 qırıcı-bombardmançısı vurulub.**

Bu barədə Kiyev vilayət administrasiyasının rəhbəri Aleksandr Pavlyuk deyib. "Kiyev vilayətinin səmasını öz gücümüzlə bağlayırıq. Saat 08:15 radələrində Buça rayonunda Ukrayna Hava Hücumundan Müdafiə Qüvvələrinin bölmələri Rusiyanın Su-34 qırıcı-bombardmançısını vurublar. Təyyarə "Stinger"lə məhv edilib", - Pavlyuk bildirib.

**MEHRİBAN**

# Hamı kef eləyəndə...

## Onlar iş başında olurlar

**Elə qurumlar var ki, bayram günlərində gücləndirilmiş iş rejimində çalışır və onlar demək olar ki, həmişə iş başında olurlar. Belə qurumlara hüquq-mühafizə orqanları, nəqliyyat və rabitə, səhiyyə, mənzil kommunal təsərrüfatları birlikləri daxildir. Təbii ki, həmin qurumlar hava şəraitindən asılı olmayaraq əhaliyə xidmət göstərir, onların problemlərini həll edir və başqa sözlə demiş olsaq, biz kef eləyəndə onlar iş başında olurlar.**

Təbii ki, 24 saat xidmət aparmaq, özü də gücləndirilmiş iş rejimində çalışmaq o qədər də asan deyil. Birincisi, bu müddətdə aidiyyatı qurumların əməkdaşlarının hamısı iş yerində olur



və çağırış gələrsə, hadisə yerinə gedirlər. Aydındır ki, bu cür ekstremal şəraitdə işləmək və fəaliyyət göstərmək o qədər də rahat deyil. Bu, hər bir əməkdaşdan yüksək məsuliyyət və peşəkarlıq tələb eləyir. Əlbəttə, bir çox hadisələr elə bayram günləri baş verir. Yəni, insanlar bir çox halda səhlənkarlıq göstərir, bu zaman ya yol-nəqliyyat hadisəsi olur, ya yanğın baş verir, ya da hansısa xoşagəlməz hadisə yaranır. Bax, belə məqamda adını çəkdiyimiz qurumların əməkdaşları insanların köməyinə çatırlar. Belə qurumlardan biri də Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi idarəsidir. Heç kimə sirr deyil ki, bayram günlərində polis həmişə gücləndirilmiş iş rejimində çalışıb. Artıq martın 20-dən 28-nə qədər ölkəmizdə bayramdır və qeyri-iş günü hesab olunur. Belə bir şəraitdə yol polisi də gücləndirilmiş iş rejimində çalışacaq. Daha doğrusu, artıq çalışmağa başlayıb. Çünki bir neçə gündür ölkəmizdə qeyri-sabit hava şəraiti hökm sürür və məmləkət ərazisinə qar yağır. Əlbəttə, belə şəraitdə yol polisinin üzərinə böyük bir məsuliyyət düşür. Başqa sözlə demiş olsaq, yol polisi 24 saat fəaliyyət göstərməyə məcburdur. Belə bir durumda işləmək, xidmət aparmaq özü də qarlı və şaxtalı havada çalışmaq elə də asan deyil.

Mart ayının 17-dən respublikanın bir çox avtomobil yollarında nəqliyyat vasitələrinin hərəkəti çətinləşib. Xüsusən də Bakı-Şamaxı-Yevlax və Muğanlı-İsmayıllı avtomobil yollarında güclü qar yağması nəticəsində avtomobili idarə edən sürücülər çıxılmaz vəziyyətdə qalıblar. Gündüz və axşam saatlarında Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 3-cü tağımın əməkdaşları yolda hərəkətin təhlükəsizliyini təmin etmək üçün səhər saatlarına qədər yol idarəsinin əməkdaşları ilə birgə xidmət aparıblar.

Belə ki, avtomobil yolu ağır texnika ilə təmizlənib, buz bağlanmış yollara qum qarışıq duz səpilib və sərt döngələrdə yol polisi soyuq havada xidmət edərək sürücülərə diqqətli olmağı tövsiyə edib. Hətta yolda qalmış bir neçə avtomobil sahibinə yol polisi əməkdaşları tərəfindən köməklik göstərilib. Çətin vəziyyətdə olan və çıxılmaz ana düşən bəzi sərnişinlər və sürücülər stasionar posta aparılıb, onlara lazımi köməklik göstərilib.

Üçüncü tağımın komandiri, polis mayoru Ürfət Şükürov bildirir ki, martın 16-dan əməkdaşlarımız mürəkkəb hava şəraitində gücləndirilmiş iş rejimində çalışırlar. Xüsusən də martın 17-də və 18-də qarın yağması nəticəsində Bakı-Şamaxı-Yevlax avtomobil yolunda nəqliyyat vasitələrinin hərəkəti daha da çətinləşib. Təbii ki, belə bir durumda bizim



üzərimizə yüksək məsuliyyət düşür. Hər bir əməkdaşa tapşırmışıq ki, qarlı və şaxtalı havada daha diqqətli olsun, avtomobilləri idarə edən sürücülərə kömək göstərsinlər. Bax, qarlı havada hərəkət edə bilməyən neçə-neçə sürücüyə əməkdaşlarımız kömək göstərib və çətin vəziyyətdən çıxarıblar. Üstəlik də, bəzi sürücülərə xəbərdarlıq edilib ki, yolun müəyyən hissəsində buzlar yaranıb və həmin istiqamətdə nəqliyyat vasitələrini sürət həddinə uyğun idarə etsinlər. Eyni zamanda bir çox sürücülər hava şəraiti ilə əlaqədar olaraq stasionar postda saxlanılıb və onlar da əməkdaşlarımız tərəfindən maarifləndirilib. Biz belə havalarda maksimum dərəcədə çalışırıq ki, ağır yol-nəqliyyat hadisələri baş verməsin. Bu da bizdən çox sürücülərdən asılıdır.

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli bildirdi ki, mürəkkəb hava şəraiti ilə əlaqədar bütün sürücülərə müraciətimiz olub. Martın 20-dən 28-nə qədər qeyri-iş günü olduğu üçün əksər insanlar bayram günlərində rayona gedirlər. Bu da o deməkdir ki, avtomobil yollarında sıxlıq olacaq. Üstəlik də hava şəraitinin qeyri-sabit keçməsi, qarın yağması və şaxtanın olması yollarda vəziyyəti bir qədər də ağırlaşdırır. Belə mürəkkəb hava şəraitində hər bir sürücü metroloji vəziyyəti nəzərə almalı, ona uyğun sürət seçməli, ötmə əməliyyatını yerinə yetirərkən diqqətli olmalı, avtomobillərin texniki sazlığına önəm verməli, qarlı və şaxtalı havada ara məsafəsi saxlamalı və bir sözlə, sürət həddinə əməl etməlidilər. Əgər hər bir sürücü bizim tövsiyələrimizə və xəbərdarlıqlarımıza diqqət yetirsə, yol-nəqliyyat hadisələri də baş verməz.

Polis baş leytenantı Toğrul Nəsirli bir fikri də xüsusilə vurğuladı ki, həmişə bayram günlərində bəzi hərəkət iştirakçılarının diqqətsizliyi üzündən qəzalar da baş verir. Ona görə də həm sürücülər, həm də piyadalar birmənalı olaraq yol hərəkəti qaydalarına riayət etməlidilər. Çünki mürəkəb hava şəraitində yol-nəqliyyat hadisələrinin baş vermə ehtimalı da bir qədər artır.

**Göründüyü kimi, bayram günlərində gücləndirilmiş iş rejimində işləyəcək yol polisinin üzərinə yüksək məsuliyyət düşür. Amma bu o demək deyil ki, hərəkət iştirakçıları bu məsuliyyətdən yaxalarına kənara çəkməli və yol-nəqliyyat hadisələrinə münbit şərait yaratmalıdılar. Deməli, hərəkətin təhlükəsizliyi həm yol polisindən, həm sürücüdən, həm də**



**piyadadan asılıdır. Sadəcə olaraq bu üç tərəfin hər biri bu missiyanı yerinə yetirəndə bədbəxt hadisələr də baş vermir, insanlar mənzil başına təhlükəsiz və rahat çatırlar.**

**Faiq QİSMƏTOĞLU**



*Xatirə Rəhimbəyli:*
*AYB-nın üzvü,*
*Prezident təqaüdçüsü*

# Novruz gəlib, xoş gəlib...

**Zaman keçir, vaxt ötür, dövran dəyişir, nəsillər bir-birini əvəz edir, gündəlik olaylar, insanlar unudulur...Amma zamanın yaddaşına həkk olunub nəsillərdən-nəsillərə ötürülən mənəvi dəyərlər unudulmur və unudulmamalıdır. Çünki onlar millətin özünütəsdiq dəlilləri, mənəvi pasportudur. Novruz bayramı kimi...Bu bayramın hər bir atributu, hər bir nüansı özündə bir tarix, bir fəlsəfə, bir mədəniyyət çaları gizlədir. Kitabsız-məktəbsiz alimlərin - eradan əvvəlki insanlarımızın mifik təfəkküründən tutmuş çağdaş ağıllı texnikaları idarə edən müasirlərimizin mürəkkəb elmi kəşflərinə qədər keçdiyi yolun yol yoldaşıdır Novruz bayramı. Azıx mağarasında, Qobustan qayalarının əhatəsində qalanmış tonqallar ətrafında yaranmış mifik təfəkkür məhsulları olan bu ibtidai fəlsəfə bu gün də öz aktuallığını qoruyub saxlayır.**

Dünyada maddi və mənəvi nə varsa, hamısının bir özülü, bünövrəsi,kökü var. Özülsüz nə varsa, zaman küləyinin əlində sovrulur səhra qumları kimi.Sovrulr,itir,batır...

### *Mənəviyyatın da bir özülü,*

bünövrəsi var və bu özül, kök qan-dır, gendir... Qanımızda, genimizdə kodlaşan mənəvi dəyərlərin biridir Novruz bayramı. Azərbaycan xalqının minilliklərlə ölçülən zəngin və şərəfli tarixi bu və ya başqa şəkildə Novruz bayramında öz silinməz izlərini qoymuşdur. Odur ki, xalq da bu bayramı müqəddəs bilir, balası kimi qoruyur,tütyə kimi saxlayır. Ən əziz bildiklərini bu bayrama saxlayır, bu bayramı sevgisinin,sevincinin ölçüsünə,meyarına çevirir.Bütün sevincləri bu bayrama saxladığı kimi,bütün acıların da bu bayramda son bulacağına inanır "ağırlığım-uğurluğum odda yansın" inamını köksünə sıxaraq.Fikrimizi ulu öndər Heydər Əliyevin bu nitqi ilə əsaslandırmaq istərdik:"Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm. Ən ağır günümüzdə belə unutmadıq Novruzumuzu ən sevincli günümüzdə olduğu kimi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu doğma torpaqlarımızı işğaldan azad etdi və biz artıq həmin ərazilərdə Novruz bayramını qeyd edirik. Məhz Novruz bayramını, bayramların şahını,milli-mənsubiyyətimizin təsdiqini.



### *Bəşəriyyət yaşlandıqca*

***xeyri ilə bərabər şəri də zənginləşdi, şərin də siyasəti,şər yolların kəşfləri çoxaldı. Məsələn,insan oğlu(əslində şərin oğlu) o qədər cılızlaşdı ki, gözgörəsi başqasına mənsub olan milli-mənəvi dəyərləri özününküləşdirməyə çalışdi, çox təssüf ki, çox vaxt da buna nail oldu.Və biz də millət olaraq bu oğru xislətə tuş gəldik. "Mənfur qonşu" epitetinə yaraşıq verən ermənilər bizim musiqimizdən, milli mətbəximizdən, ədəbiyya- tımızdan oğurluq etməyə qalxdı.***

Bu insani naqisliyə son vermək üşün Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində Novruz bayramı UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edildi. 28 sentyabr - 2 oktyabr 2009-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Novruz çoxmillətli (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) nominasiya kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına salındı.

### *Novruz bayramının dünya səviyyəsində təqdimatı,*

***Novruz ənənələrinin təbliği bu bayrama marağı artırdı və aydın oldu ki, Novruz təkcə onu keçirən türk xalqlarının deyil, ümumilikdə bəşəriyyətin mənəvi dəyəri hesab edilməlidir. İslamdan əvvəlki tarixi dövrə təsadüf edən Novruz bayramı Azərbaycanla yanaşı bütün Şərqdə qeyd olunur. 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan olundu. 28 noyabr - 2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyasında İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstan da Novruz bayramı nominasiyasına qoşuldu və bu da onu göstərir ki, Azərbaycanın beynəlxalq təşəbbüslərini dəstəkləyən ölkələrin sayı daim artır.***

Novruz bayramı təmizlik,təravət bayramıdır, həm maddı, həm də mənəvi dünyanın təmizliyi, arınması, təravəti... Maddi aləmdə qışdan qalma dağınıqlıq, tör-töküntünün təmizliyi, səliqə-səhmanı, mənəvi aləmdə ruhun,hissin duyğunun arınması.

### *Bu bayramda*

küsülülər barışır, qohumlar bir-birini ziyarət edib, bayram süfrələri açırlar. İnsanlar baharın gəlişi ilə torpağın əkib-becərilməsinə başlayır, bağban meyvə ağaclarını budayır. 21 mart 2000-ci il tarixində Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən Ulu Öndər Heydər Əliyev öz çıxışında demişdir: "Novruz bayramının bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Demək, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır". Bu yüksək mənəviyyat bayramı elə yüksək dairələrdə də öz sehrli ədasıyla bir həlimlik, istilik, ülfət formalaşdırır. Novruz bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri arasında qarşılıqlı bayramlaşma ölkədə yeni, mütərəqqi siyasi mədəniyyətin təşəkkülünü göstərir. Bu da öz növbəsində qarşılıqlı hörmət və etibarlı münasibətləri tərənnüm edən yeni siyasi mədəniyyət deməkdir. Otuz ilə yaxın bir müddətdə Novruz bayramını ürəyimizcə qeyd edə bilmirdik. Bir gözümüz gülür, biri ağlayırdı itirilmiş vətən torpaqları üçün, şəhidlərimiz, didərginlərimiz, qaçqınlarımız üçün. Artıq ikinci ildir ki, Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə xalqımızın müzəffər ordusu bizə bu bayramı həm də qələbə sevinci kimi yaşamağı nəsib etdi. ALLAH Novruz süfrələrində adlarını sevgi və sayğiyla andığımız bütün şəhidlərimizə rəhmət eləsin.

**"Xoş gəldin xoş gündə olar"- deyib babalarımız. Biz də qələbə sevinci ilə gələn növbəti Novruzumuza da "Novruz gəlib,xoş gəlib" deyirik.**

<u>*Emin Piri*</u>



# Novruzun "papağı"

**Əvvəllər "Novruz" deyərkən ilk ağla nə gəlirdi, bunu deyə bilmərəm, amma indiki yeniyetmə və gənclərin yadına daha çox papaq atmaq kimi düşür. Bəli, məhz papaq atmaq. Doğrudanmı, bəşəriyyətin mil illərdir qeyd etdiyi, bir Novruzdan digərinə kimi həvəslə gözlənilən bu bayram papaq atmağın simvoluna çevrilməli və yaxud yada düşməlidir?!**

**Bəli, papağı ayaq altına atmağı bayram qeyd edirik, bunun həsrətilə yaşayır və sonda bununla fəxr edirik. Bu günkü TV və digər təbliğat vasitələrində, verilişlərdə az qala bundan ağızdolusu danışılması, simvollaşdırılması heç də ürəkaçan deyil və türklərin minilliklər fəlsəfəsini özündə daşıyan bir bayramın mahiyyətini dəyişir.**

**Tarixə ekskursiya edərək sizi yormaq istəməzdim. Qısa xatırlatma kifayət edər. Sovet dönəmindən öncə bayram günlərində papaq yerinə evin bacasından çuval sallayardılar.**

**Bacanısa göyə-Tanrıya açılan bir "yol" kimi yozsaq, bu çuval sallamanın Tanrı xatirinə istənilən hədiyyə və təbrikləşmə olduğunu qeyd edə bilərik. Ev sahibi isə şükranlıq əlaməti olaraq bayram hədiyyələrini bacaya-Tanrıya açılan yolla geri qaytarardı. Bəlkə də bizim aradığımız bu metafizik qatlar sadə kütlənin düşünülməmiş şəkildə instinkt vərdişi idi. Amma bu, Tanrıya şükranlıq fəlsəfəsi türklərin, şərq xalqlarının İslamdan da çox uzaqlara gedən, öz genetikasında qoruyaraq saxladığı bir ayin idi.**

**Kommunizmin "allahsızlıq" dövründə isə tanrıya açılan "yol"-baca qapıyla əvəzləndi. Yəni göydən yerə enmək-bacadan qapıya keçmək. İdealizmdən materializmə keçmək.**

**Düşünürəm ki, bütün bunlarda da metafizik qat var. Ola bilsin, adi gözlə görmədiyimiz, ağlımıza gəlməyən, şüuraltı qatlarda yatan nəsnələr və simvollardır.**

**Şərq amili kimi qəbul etməyə çalışdığımız papaq atmaq, kimisi tərifləyərək və ya təbrik edərək papaq uzatmaq isə daha çox Qərbdə həyat şəraitinin çətin olduğu dönəmlərdə dilənmək məqsədilə yayılmışdı. Və bu daha mədəni dilənçilik sayılırdı.**

**Bəli, mentalitet söhbətlərini sevməsəm də, yenə el deyimi ilə qeyrət rəmzi olan, başımızda göz bəbəyi kimi gəzdirdiyimiz papağı hansı vicdana, əqidəyə, namusa sahib olduğu bilinməyən birinin ayağı altına atırıq. İki qoza görə dəyərmi?!**

**Düzü, XXI əsrdə, Bakıda bacaya, Novruz adətlərinə qayıtmağa çarə tapmaqda acizəm. Amma türk ayinlərinin ən azından mahiyyətinə varmağa və qayıtmağa dəyər.**

**Papağımızı atmayaq, geyinək!**

## *Bayram günlərində bu yollar təmir ediləcək*

**Qarşıdan gələn tətil günlərində paytaxtda nəqliyyat intensivliyinin azalmasından istifadə edərək, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 22-27 mart tarixlərində birneçə küçə və prospektdə təmir işlərinin aparılması nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, təmir işləri aşağıda qeyd olunan küçə və prospektlərin müəyyən hissələrində aparılacaq:

***1. Mikayıl Müşfiq küçəsi ("Qurd qapısı"ndan Mətbuat prospektinə qədər);***
***2. Rəşid Behbudov küçəsi (Dilarə Əliyeva küçəsindən Süleyman Rəhimov küçəsinə qədər);***
***3. A. Salamzadə küçəsi ("Qələbə dairəsi"ndən tunelin giriş hissəsinə qədər - 3 yerdə);***
***4. Nazim Hikmət küçəsi (Musabəyov dairəsi);***
***5. Tbilisi prospektinin yan yolu (Seyidcəfər Pişəvəri küçəsindən "20 Yanvar dairəsi"nə qədər);***
***6. Ziya Bünyadov prospekti ("Azadlıq" körpüsünün üstü - 3 yerdə);***
***7. Ziya Bünyadov prospekti (Asif Məhərrəmov küçəsindən "20 Yanvar dairəsi"nə qədər);***
***8. Azadlıq prospekti (Naxçıvani küçəsindən tunelin giriş hissəsinə qədər);***
***9. Ziya Bünyadov prospekti (İbrahimpaşa Dadaşov küçəsindən "Santral" mağazaya qədər olan hissə - 6 yerdə);***
***10. Ziya Bünyadov prospekti ("Santral" mağazanın qarşısında yan yollar);***
***11. Şəhər şossesi (Zabrat yolu);***
***12. "Koroğlu" körpüsünün üstü (Heydər Əliyev prospektindən Mikayıl Əliyev küçəsi istiqamətində);***
***13. Bakı Dairəvi I yolu ("Binə" ticarət mərkəzindən Biləcəri istiqamətində);***
***14. Heydər Əliyev prospekti - Mərdəkan - Bilgəh avtomobil yolunun rənglənməsi;***
***15. Suraxanı rayonu ərazisində Səttar Bəhlulzadə küçəsi;***
***16. Salyan şossesi (Arif İsmayılov küçəsindən "20 sahə dairəsi"nə qədər).***

Sürücülərdən sözügedən küçə və prospektdə aparılacaq təmir işlərinə anlayışla yanaşmaları, qeyd olunan tarixlərdə təmir işlərinin aparıldığı ərazilərdə hərəkətdə olarkən diqqətli olmaları və yol hərəkəti qaydalarına riayət etmələri xahiş olunur.

## "Qolos Muslima"




**Azərbaycanın tanınmış şairlərindən biri, həm də Böyük Vətən müharibəmizin iştirakçısı, Qarabağ savaşının döyüşçüsü və həm də tabor komandiri olmuş Maşallah Məftunun imzası oxuculara yaxşı məlumdu. Bütün yaradıcılığını vətənə, torpağa və bir də ali insani hisslərə həsr etmiş Maşallah Məftun özünün yeni kitabı ilə təkcə ədəbiyyatımıza yox, həm də bütövlükdə mədəniyyətimizə növbəti xidmətini göstərib.**

Maşallah Məftunun yeni kitabı dünya şöhrətli karifey musiqiçimiz səsi ilə hər kəsi heyran edən Müslim Maqomayev barəsindədir. "Müslimin səsi" adlı poema rus dilinə Q.Paçxataşvili tərəfindən çevrilibdi. Onun Maşallah Məftun yaradıcılığına olan sevgisi və peşəkarlığı poemanın mükəmməl təqdimatına imkan veribdi. Yeri gəlmişkən onu da qeyd edim ki, bu kitaba ön sözü yazmaqla, xeyir-duanı AYB-nin təmsilçisi, tanınmış yazıçı Elçin Hüseynbəyli veribdi.

Ötən ilin sonlarında işıq üzü görmüş kitabda həm də bir-birindən maraqlı foto şəkillər yer alıb. Bu fotoların bir çoxunun müəllifi də, onu lentə köçürən də elə Maşallah Məftun özü olub. Necə deyərlər, o öz gənclik illərinin foto xatirələrini təqdim etməklə poemanı bir az da diqqət mərkəzinə çəkə bilib.

Düşünürəm ki, rus dilli oxucular üçün artıq təqdim edilmiş bu poemanı yaxın zamanlarda Azərbaycan variantı da araya-ərsəyə gələcək. Bu fikri ona görə vurğulayıram ki, dostum, həmkarım Maşallah Məftunla söhbətimiz zamanı o, bunu xüsusi vurğuladı. Mən onun oxucusu kimi həmin kitabı da səbirsizliklə gözləyirəm.

**Əbülfət MƏDƏTOĞLU**



# Məktub yetişdi

**Zaman da yetişdi, bu düşüncələri ağ vərəqlərlə bölüşüb, Sizə ünvanlamağın vaxtı-vədəsi də...**

**Sizə çox məktub yazırlar - müstəqil dövlətin Prezidenti kimi - minnətdarlıq duyğusu ilə...**

**Bu məktubsa, düşünürəm ki, daha çox ruhun ehtiyacıdır...**

**İnsan öz duyğularını, düşüncələrini həmişə məktubların dili ilə ifadə edib. Məktubla və sözlə...**

**...Və bu qəlb çırpıntılarımı - nisgildən vüsala, məğlubiyyətdən Zəfərə, qaçqın şəhərciklərindən doğma obalarımıza qədər uzanan kövrək duyğularımı məmləkətimizə yeni növraq gətirən Novruzun ərəfəsində yekunlaşdırmağa qərar vermişdim...**

**Fikirləşdim ki, elə bu məktubu da, azad etdiyiniz, təmizlədiyiniz, yolumuzu açdığınız Zəngəzurun qəlbimdəki rəmzi poçtu ilə Sizə göndərim!..**

*...Hər dəfə ilk bahar yetişəndə, yaz gülləri açılanda qərəmət məni basırdı, bu misraların hərarəti qərib yurdlarımıza niyə gedib çatmır, o yurdlarımız bu gözəllikdən niyə məhrumdur?..*

*Elə bilirdim o torpaqlarda zaman şaxtalı, sazaqlı bir qış günündə ilişib qalıb...*

Boynubükük bənövşələrini də, səmada qanadlanıb bahar müjdəsini dünyaya yetirmək istəyən qaranquşlarını da, çiçəkdən-çiçəyə qonub bal toplamaq həsrətində olan arılarını da sankı don vurub...

**O anlardaca, sümüklərim üşüyürdü, şaxtanın qılınc kimi kəsdiyi sazaqlı bir qış günündə, doğmaları üçün məktub yazdıran, amma məktubu yetişməyən *Qurbanı - unudulmaz ədibimiz Abdulla Şaiqin "Məktub yetişmədi"* hekayəsinin bu zavallı qəhrəmanının faciəli taleyini yada salırdım...**

Ədəbi yaddaşımızda uzun onilliklərdir məktubun yetişməməsinin bax belə bir sızıltısı var idi...

*Bu sızıltıdan daha göynərtilisi isə qəlbimizin qaysaq bağlamaz yurd yarasıdır. Onun da əzablı ağrıları içində düşünürdüm ki, görəsən bu həsrət, bu qubar, nə zaman bitəcək, nə zaman...*

**Düşünürdüm ki, aman Allah, o yerlərin səmasının qara çarşabı, dağlarının və düzlərinin ağ kəfəni bəs nə vaxt qalxacaq? Məktublarımız bəs nə zaman yetişəcək?**

❖❖❖

**...Bu məktub da uzun illərin həsrətiylə yol gəlirdi...**

*...2020-ci ilin hər dəqiqəsi tarix olan payız günlərindən, ağacların qızılı libasına büründüyü, təbiətin daha bir fəsil dəyişikliyinə yır-yığış elədiyi vədələrdən və o günlərdə televizorun ekranı qarşısında, radio önündə ayaq üstə dayanıb həyəcandan titrəyən, amma eşitdiyi hər kəlmənin sehrini, enerjisini, ruhunu qaçırmamaq üçün nəfəs almadan...*

*Sizin qələbə müjdələrinizi dinləyən insanlarımızın sevinc anlarından bəri iç dünyam ünvanınıza yetiriləsi kəlmələrlə dolu idi...*

❖❖❖

**Ötən ilin oktyabrında tarixi fərmanınızla yaratdığınız Şərqi Zəngəzura – onun laləzar guşəsi olan Zəngilana, ata yurduma səfər etdiniz.**

**Silahdaşınız, çiyindaşınız, Vətən dərdinə birgə əlac olduğunuz Mehriban xanımla səmimi görüşlər keçirdiniz.**

*Taleyimə minnətdaram ki, bu tarixi görüşdə iştirak etmək, həmin unudulmaz anları yaşamaq, hər dəqiqəsi bir ömrə dəyən təəssüratları yaddaşıma köçürmək mənim də qismətim oldu.*

**Sonra yenə Şərqi Zəngəzura – onun dilbər guşəsi olan Qubadlıya, ana yurduma gəldiniz...**

**Hər iki yurdum böyük coşqu, əbədi şükranlıqla qarşıladı hər ikinizi...**

**Sizin xoş qədəmlərinizlə hər iki doğma yurdumdaca həyat qaynadı, quruculuq, abadlıq işləri başladı.**

**Və hamı, bütün el-oba böylanıb səbirsizliklə baharı gözlədi...**

**Və gəldi o bahar...**

*Yeni, təp-təzə və uzun illərin həsrətindən sonra tarixi bir bahar...*

Nədənsə, həmişə mənə elə gəlib ki, ağaclar, güllər kimi insan düşüncələrinin və onları ifadə edən kəlmələrin də tumurcuqladığı çağlar var, ona görə də bu məktubu qələmə almaq üçün həmin çağlara, baharın çərşənbələrinə qədər səbir etməyi üstün tutdum.

**Şah İsmayıl Xətainin bir əlində qılıncı, bir əlində qələmi - baharın gəlişi münasibətilə yazdığı misralar... Əsrlərin o üzündən yaz mehi kimi ürəyimi oxşayır:**

**"Qış bitdi və bahar gəldi,**
**Gül bitdi və laləzar gəldi..."**

*Bahar nəfəsli od çərşənbəsi axşamı ocaq çatıb bayram əhvali-ruhiyyəsini bölüşən insanlar evlərinə yığışandan, bayırda əl-ayaq çəkiləndən sonra məktubumun ilk cümlələrini yazmağa başladım...*

***Bax ürəyində nakam arzularla yaşayan bəndənizin məktubu da belə yetişdi...***

**Xeyirli olsun!..**

❖❖❖

**Biz illərdən bəri daş kimi ürəyimizdən asılı qalan, qəddimizi əyən, gələcəyə göz dolu baxmağımıza mane olan, xoşbəxtlik hissimizi korşaldan ağırlıqdan məhz Sizin sayənizdə xilas olduq.**

*Zindan kimi bu ağır daş "Dəmir yumruğu"nuzun zərbəsi ilə param-parça oldu, işğal acılarımızı geridə buraxdıq...*

*Zülmətə qərq olmuş yurdlarımızın çırağını yandırdınız, kotana, toxuma, insan əlinin tumarına, yamyaşıl taxıl zəmilərinin gözəlliyinə həsrət torpaqlarımıza bərəkət gətirdiniz...*

*Kor qoyulmuş ayna bulaqlarımıza su, kol-kos basmış yollarımıza abadlıq, tar-mar edilmiş şəhərlərimizə, kəndlərimizə, qəsəbələrimizə dirçəliş bəxş etdiniz...*

**Qurucu əllərinizlə bu torpaqlarda yeni bir həyat başlatdınız...**

*Ağırlığımızı-uğurluğumuzu yellər apardı, ayağımızı yer götürdü, ürəkləndik, qüvvətləndik!..*

*Elimizin ruzisini də Allah yetirəcək həmişə, sağlıq olsun. Çünki Yaradanın böyük bir lütfü kimi bu xalqın el qədri bilən, vətəndaşlarının halından anlayan Sizin kimi rəhbəri var. Həyata keçirdiyiniz inkişaf siyasəti var, ölkəmizə böyük uğurlar qazandıran sosial-iqtisadi layihələriniz var.*

Azərbaycanın daha da qüdrətlənməsi üçün reallaşdırdığınız fürsətlər, əli işgüc tutan bütün insanlarımıza işləyib özünün, ailəsinin dolanışığını təmin etməkdən ötrü yaratdığınız imkanlar var.

**Ölkəmizdə sakitlik, normal həyat ahəngi, qanunlara, dövlətçilik dəyərlərinə getdikcə yüksələn hörmət ruhu, rəvan inkişaf yolu var və bütün bunların müəllifi və təminatçısı məhz Sizsiniz!**

❖❖❖

*Nəhəng dünya nehrə kimi çalxalanır, dövlətlər, xalqlar, dünənə qədər bir-biri ilə qardaş sayılan toplumlar, soyu-kökü, dini, dili bir insanlar üz-üzə qoyulur, qanlı-bıçaq olur.*

*Adamların başına od ələnir, ölüm saçan silahlar nakam ömürlərə son qoyur, əsrlərlə tikilib-qurulmuş qədim şəhərlər xarabazara çevrilir.*

**Niyyət bəlli, mahiyyət aydındır:** kimlərsə, yenə suyu bulandırıb balıq tutmaq istəyir, kimlərinsə maraqları üstüstə düşmür, geopolitik iştahalar üzündən xalqlar, sadə insanlar diş altında qalır, faciələrə sürüklənir, həyatlar qaralır, bomba gurultusundan zəhri yarılan körpələrin fəryadı ürək parçalayır.

*Bir o qədər də beynəlxalq güclərin riyakarlığı, məsələlərə ikili və soyuq yanaşmaları adamda hiddət doğurur. Azərbaycanın haqq-ədalət uğrunda apardığı savaşda Sizi bu müqəddəs yoldan çəkindirmək, qələbəmizə mane olmaq üçün min bir fənd düşünənlər, illərdir ki, işğala məruz qalana deyil, işğalçıya qahmar çıxanlar, meydan verənlər indi tamam başqa cür mövqelər sərgiləyirlər, ədalətsizlikləri ilə yeni problemlərin təməlini qoymağa çalışırlar, ikrah doğururlar.*

**Ordumuzun gücü ilə tarixi qələbəmizi necə böyük çətinliklər, fədakarlıqlar bahasına qazandığınız, diplomatik arenada nə qədər maneələri aşdığınız, üzərinizə yönələn təhdidləri necə gərginliklər hesabına dəf etdiyiniz indi əyan olur.**

*Vətən müharibəsinin hərbi əməliyyatlarını özünüz kimi mübariz, şir biləkli, aslan ürəkli əsgər və zabitlərimizlə aparırdınız.*

*Əsl sərkərdə məharəti ilə döyüşləri idarə edir, düzgün taktikanız, dəqiq əmrlərinizlə ordumuzu ardıcıl qələbələrə yetirirdiniz. Xalqa yetirdiyiniz zəfər müjdələrindən, hərbi əməliyyatlar haqqında açıqlanan məlumatlardan proseslərin necə də uğurla getdiyi gözlərimiz önündəydi.*

*Diplomatik səngərlərdə isə nələrin baş verdiyindən, necə oddan-alovdan keçdiyinizdən biz xəbərsiz idik, əyləşib ekran qarşısında elə hey Sizi axtarırdıq...*

**Yeni Qələbə müjdələrinizin intizarını çəkirdik...**

*Bu meydanda təkbaşına döyüşürdünüz, Azərbaycana yönələn təzyiqlərə təkbaşına sinə gərirdiniz, dünyanın dörd bir yanından ara verməyən hücumların, fitnə-fəsadların qarşısını alırdınız.*

**Bu haqq işində öz Liderinə dəstək verən, milli vəhdəti ilə dünyaya görk olan xalqımıza güvənərək...**

**Azərbaycan uğrunda ölümün gözünə dik baxan insanlarımızın sağlam ruhuna, Vətənə sədaqətinə əminliklə...**

*Müdrikliyinizə, fəhminizə, dövlətimizi xoşbəxt gələcəyə aparmaq üçün seçdiyiniz yolun ən düzgün yol olduğuna etibar edib hər qətiyyətli addımınızda mənəvi dəstək verən, Siz olan yerdə Azərbaycanın taleyindən xatircəm qalan, zərrə qədər də tərəddüd hissi keçirməyən xalqımızın bu inamından, güvənindən güc alaraq...*

**Özünüzün də qeyd etdiyiniz kimi, nəyi, nə zaman və necə etməyi bilməyin, hər şeyi zərgər dəqiqliyi ilə ölçüb-biçmək, yaranmış ən ani fürsəti belə Azərbaycanın daimi faydasına çevirməyi bacarmaq səriştəsinin verdiyi üstünlüklə...**

❖❖❖

**Bu səriştənin, fenomenal bacarıqların, proseslərə çevik və peşəkar reaksiyaların, informasiyalarla işləmək qabiliyyətinin böyük dövlət adamı, bütün zamanların ustad siyasətçilərindən olan Heydər Əliyev məktəbindən gəldiyi dərhal bilinir... Bu məktəbdə əxz etdiklərinizin üzərinə toplanan illərin təcrübəsi isə indi Sizin özünüzü də qlobal siyasət məkanının böyük ustadına çevirib...**

*Davranışlarınız, tərziniz, verdiyiniz qərarlar, məsələlərə strateji yanaşmalarınız, əldə etdiyiniz parlaq nəticələr çoxları üçün əsl ustad dərsləridir!..*

*Beynəlxalq məkanda baş verən hadisə və proseslərə münasibətiniz, bu günə və gələcəyə baxışlarınız, beynəlxalq səviyyədə irəli sürdüyünüz təşəbbüslər hamıya maraqlıdır, hər kəs üçün mühümdür. Tarix proqnozlarınızın, mühakimələrinizin düzgünlüyünü, təşəbbüslərinizin nə qədər əsaslı olduğunu, təkcə Azərbaycana deyil, ümumən dünyamıza faydalarını zaman-zaman sübuta yetirirdi...*

**Və bundan sonra da yetirəcək!..**

**Ona görə ki, başqaları öz xırda maraqlarını güdərkən, Siz insan taleyini fikirləşirsiniz...**

**Başqaları dağıtmaq yolunu seçərkən, Siz adınızı tarixdə qurucu əməllərinizlə əbədiləşdirirsiniz!**

**Başqaları danışıb vədlər verərkən, Siz real tarixi işlər görürsünüz.**

*Hələ orasını demirəm ki, həyata keçirdiyiniz məqsədyönlü siyasətlə, mövcud imkanları reallığa çevirmək qabiliyyətinizlə bu ərazicə kiçik ölkəmizi Yer üzünün ən əhəmiyyətli mərkəzlərindən birinə çevirməyi bacarmısınız.*

**Bu gün dünyanın enerji sisteminin, qlobal logistikanın, beynəlxalq iqtisadiyyatın bir nəbzi də Azərbaycanda sürətlə döyünür.**

*Müxtəlif coğrafiyalarda, ayrı-ayrı məkanlarda, fərqli məsələlərdə toqquşan, konfliktə girən, münaqişələrə səbəb olan bütün maraqlar Azərbaycanda üst-üstə düşür, uzlaşır, rahatlıqla yola gedir.*

Yaxın-uzaq ölkələrdə günahsız insanların başına raketlərin yağdırıldığı zamanda, onilliklər boyu min bir zəhmət bahasına ərsəyə gəlmiş iqtisadi sistemlərin çökdüyü, infrastrukturun darmadağın olduğu, yeni münaqişə ocaqlarının körükləndiyi, son dərəcə çətin əyyamlarda Azərbaycanda böyük perspektivlər vəd edən strateji əməkdaşlıqlar, qarşılıqlı faydalar başlanır, hamının gələcəyi aydınlıqla görə bildiyi, əmin olduğu tərəfdaşlıq mühitinin qapıları açılır.

**Bax bu mühiti - Siz yaratmısınız!..**

**Qarabağ, Şərqi Zəngəzur Sizin əsərinizdir!..**

**Tarixi əsərləriniz!..**

**Yollar da arzularımız kimidir, açılıb, uzanıb gedir: Bakıdan Qarabağa, Zəngəzura...**

**Ordan da haralara - yaxşısını Siz bilirsiniz...**

❖❖❖

*Beynəlxalq arenada Sizə olan münasibətdən maraqlı bir məqam da həmişə diqqətimi çəkib.*

**Azərbaycan vətəndaşları kimi beynəlxalq siyasətin əsas iştirakçıları da Sizə inanırlar, rəğbət bəsləyirlər, etibarlarında, əməkdaşlıq meyillərində əsla tərəddüd etmirlər.**

Hiss olunur ki, əslində, böyük siyasətdə də mərdanəlik, bütövlük, verilən sözlərə sadiqlik, şərəf və ləyaqət hissi üstün dəyərlər sayılır. İntəhası, böyük siyasətdəki hər kəs də bu dəyərlərin daşıyıcısı ola bilmir. Məqsədlərə çatmaqdan ötrü hər cür vasitəni məqbul sayanlar bu dəyərləri məhv edirlər.

*Sizə isə ona görə dünyanın böyük ehtiramı, güvəni var ki, həmişə dəyərlərinizi qorumağı bacarırsınız, onları qırmızı xəttin bir tərəfində saxlamağa nail olursunuz, çünki Azərbaycan dövləti, Azərbaycan xalqı, keçmişimiz, bu günümüz və gələcəyimiz elə o müqəddəs dəyərlərdən ibarətdir.*

**Sizin bu gün qlobal siyasətdəki məğrur, qürurlu, mərd obrazınız, təmsil etdiyiniz ali keyfiyyətlər bizim kimlik hekayəmizdir...**

***Onlarsız, nə milli varlığımızdan əsər-əlamət qalar, nə də Vətənimizdən...***

**Bu dəyərlərlə güclüsünüz,** *inam yaradansınız, özünüzün də bəyan etdiyiniz kimi, sözünüzə imzanız qədər dəyər verənsiniz. Diplomatik ortamlarda, dövlətlərarası münasibətlərdə etibar edib ürək qızdıranların güvəninə axıra qədər sadiqsiniz.*

Dost saydıqlarınıza və Azərbaycanı da səmimi-qəlbdən dost sayanlara dəstəyinizi, bacardığınız köməyi hətta ən çətin, mürəkkəb şərtlər altında da əsirgəməyənsiniz. Müdrik davranışlarınızla, yerindəcə, məqamındaca verdiyiniz qərarlarla xalqımıza düşmən deyil, dostlar qazandıransınız.

*Bütün bunların nə qədər önəmli olduğunu Vətən müharibəsində bir daha anladıq, haqq savaşımıza dəstək verənlərin, ən azı o günlərdə Azərbaycana qarşı təzyiq kampaniyasına qoşulmayanların, imkan düşdükcə, yanımızda olduqlarını büruzə verənlərin xeyli genişlənmiş sayında izlədik, tarixi Zəfərimizin dünyanın siyasi çevrələrində qəbul edilməsində görüb anladıq.*

❖❖❖

**Səbriniz, təmkininiz, ani emosiyalardan uzaqlığınız, hər sözü illərin peşəkar diplomat vərdişi ilə ölçüb-biçib dilə gətirməyiniz, amma, eyni zamanda bu ölçülü-biçili kəlmələrlə də həqiqətləri əsla pərdələməməyiniz, əksinə, ən doğru, ən obyektiv olanları ifadə etməyiniz, başlıcası isə səmimiyyətiniz, haqqın tərəfində durmanıza qəti əminliyiniz - İlahi bir vergidir!..**

**Bu - ilahi bir dəyərdir...**

Bu fitri istedadı qarşınızdakının niyyətini ilk kəlmələrindən anlamaq qabiliyyətiniz tamamlayır.

*Müsahibələrinizi dinləyərkən, ilk növbədə, cəsarətiniz heyranlıq doğurur, istənilən media qurumunun təmsilçisinin qarşısına çıxmaqdan, onların istənilən suallarına cavab verməkdən əsla çəkinmirsiniz. Hər belə müsahibəni Azərbaycanın haqq sözünü dünyaya yetirmək üçün yeni bir imkan bilirsiniz, onların istənilən suallarına isə - hətta təxribat məqsədli sual olsa belə, veriləsi tutarlı, əsaslandırılmış cavablarınız var. Müsahibələr gedişində yaranmış çox ani məqamdan çevik şəkildə istifadə edərək, iki-üç kəlməlik replikanızla bütün söhbətin möhürünü vurmağınız, opponenti məğlub duruma salmağınız da tamam başqa bir ustalıqdır.*

*Söhbətə hansı niyyətlə başlamasından asılı olmayaraq, heç bir jurnalist, həmsöhbət Sizdən gərgin emosiyalarla, məyus hisslərlə ayrılmır, əksinə, özü ilə xoş bir ünsiyyətin unudulmaz, pozitiv təəssüratlarını aparır. Sadəliyinizlə, səmimiyyətinizlə, işıqlı təbəssümünüzlə, emosional intellektinizlə olduğunuz ortamdakı insanlarda o qədər gözəl aura yaradırsınız ki, burada hər hansı gərginliklərə, sıxıntılara yer qalmır.*

**Buna Sizinlə bircə dəfə ünsiyyətdə olmuş hər kəs şahiddir...**

❖❖❖

**Şərqi-Zəngəzurda, dədə-baba yurdumda o tarixi görüşümüzü xatırlayıram...**

*Nə gizlədim, görüş ərəfəsində xeyli gərgin idim, illərin həsrətindən sonra doğma yurda qovuşmağın ürək döyüntüləri öz yerində, axı dövlət rəhbəri ilə görüşməyin, kəlmə kəsməyin özü də böyük bir məsuliyyətdir, həyəcandır...*

Amma Sizinlə görüşün elə ilk dəqiqələrindəcə bütün həyəcanlı anlar, gərginliklər ötüb keçdi, o qədər səmimi, rahat, adamın canına yatan ab-hava yaratdınız ki, hətta çıxış edəndə, əvvəlcədən düşündüyüm qeydlərimi belə unutdum, bir də hiss elədim ki, həmin an ürəyimdən nə gəlirsə, düşüncələrimdən nə keçirsə, onları dilə gətirirəm, bilərəkdən yaratdığınız şərait, verdiyiniz cəsarət dilimi açıb, ürəkləndirib, davranışlarıma sərbəstlik gətirib.

*Orasını da fikirləşdim ki, Sizin özünəməxsus, məqsədli şəkildə yaratdığınız o ünsiyyət mühitində başqa cür mümkün deyildi axı, orada adam hər cür sünilikdən, ütülü davranışlardan uzaq tərzdə, necə varsa, yalnız elə ola bilərdi...*

Bax bu imkanı və şansı siz yaratdınız...

**Böyüklük budur!..**

**Əzəmət budur!..**

**Həm də sadəlik budur!..**

*El-obalarımıza, azad yurdlarımıza səfərlərinizdə, sükan arxasında yol gedə-gedə Mehriban xanımın telefonun kamerası ilə çəkib paylaşdığı təəssüratlarınızda, doğma ellərimizin dağı, daşı, çayı, ağacı, yolu-rizi ilə sevgi dolu ünsiyyətinizdə, qayğınızda, ümidlərinizdə, torpaqlarımızda xarabalıq mənzərələri yaratmış vandalların bu bədnam əməllərinə qarşı hiddətinizdə də Siz məhz özünüzsünüz.*

*Çox təşəkkürlər!..*

*Bu obrazınızı çox məhdud texniki imkanlarla, yəni heç bir çəkiliş heyəti, rejissor mizanı, operator işi, ssenarist qeydləri olmadan, adicə bir telefon kamerası ilə, amma misilsiz yaradıcı duyumla, peşəkarlıqla çəkib tarixdə əbədiləşdirən, bununla çağdaş kommunikasiya mütəxəssisləri, televiziyaçılar üçün əsl örnəklər yaradan Mehriban xanıma da könül dolusu təşəkkürlər!*

**Azərbaycan həyatının elə bir sahəsi yoxdur ki, Sizin və Mehriban xanımın - qoşa qanad kimi - diqqətindən kənarda qalsın, bu tarixin əhatə dairəsindən iraq düşsün...**

*Siz xalqımızın, Vətənimizin keçmişinə, milli-mənəvi dəyərlərinə, coğrafiyasına, yer-yurd adlarına hamıdan çox bələdsiniz. Qarabağın, Şərqi Zəngəzurun toponimlərini, işğaldan azad edilmiş torpaqlarımızın tarixini, ərazi xüsusiyyətlərini, relyefini o qədər dərindən bilirsiniz ki, bu bilgiyə, marağa heyran qalmamaq olmur.*

**Bütün bunlar Azərbaycana sevginizdən gəlir!**

**Vətən sevgisi xilqətinizdədir!..**

***Nə xoş ki, bu sevgini bütün ruhunuzla hiss edir və həm də yaşadırsınız...***

*Sizin sükan arxasında "Ey Vətən!" nəğməsini dinlədiyiniz anlar, o nəğməni dinləyə-dinləyə azad yurdlarımıza baxıb gələcəyə doğru yol çəkən gözlərinizdəki sevgi, qürur, qayğı qədər aydın görüntülər...*

**Necə də gözəl anlar, səmimi dəqiqələr idi...**

*Həmin nəğməni yalnız Azərbaycanı bu qədər sevən, adını uca tutan onun bu gününə və gələcəyinə görə məsuliyyəti geniş çiyinlərində, köksündə daşıyan Lider bax bu cür sevgi və məhəbbətlə dinləyə bilər...*

**Və nəhayət ki, o yaz gəldi...**

**Yaz gəldi azad yurdlarımıza...**

**Bu yaz - həm də bir başqa yazdır axı...**

**Otuz ilin həsrətilə, acı intizarı ilə gözlədiyimiz yaz...**

**Bu yazın müjdəsi, hərarəti, ətri azad yurdlarımızdan şirələnib, boy götürüb gəlir...**

**Əcdadlarımızın ocaq yerlərində qalanan bayram tonqallarının şöləsi ilə, işğaldan qurtulmuş torpağın sinəsindən boylanan tər bənövşənin, çırtdağ novruzgülünün, kövrək xarıbülbülün xəfif gözəlliyi ilə, insanlarımızın dirçəliş, abadlıq, qurub-yaratmaq əhvalı ilə...**

**Yeni müjdə və yeni ümidlərlə!..**

**Bu ruh - Sizə inamdandır, Sizin ardınızca irəlilədiyimiz inkişaf yolunun düzgünlüyünə əminliyimizdən, güvənimizin əbədi gücündəndir...**

**Sevdiklərinizlə birgə, bax beləcə, neçə gözəl baharlara, neçə gözəl bayramlara, əziz Xilaskarımız!**

**Novruz bayramımız mübarək olsun!..**

**...Və elə bu inamla, bu sevgiylə də tamamlayıram bu məktubumu...**

**Sağ olun, cənab Prezident!..**

**İmamverdi İSMAYILOV**

*Zəngəzur-Qarabağ-Bakı*
*14 mart 2022-ci il*



Əbülfət MƏDƏTOĞLU

# Vağzallar - ayrılıqların ünvanı...

*Vaqif Bayatlı Odərin bir şeirlərinin işığında*

**Mənə elə gəlir ki, İnsan adlı bəşər övladı Yer üzündə özünü təsdiq edən andan ta bugünə qədər hərəkətdədi. Həm cismani, həm də ruhui baxımdan... Bir yerdə ki, hərəkət oldu, deməli, burada həyat da var, dəyişmələr də, yeniləşmə, hətta dağıntılar da... Bu mənada insanın hərəkətlərinin başlanğıc nöqtəsi də, təbii ki, olur. Bu başlanğıc ana bətnindən başlayaraq sonda ruhun bədəni tərk etməsinə qədər davam edir. Deməli, insan öz hərəkətini gah düşünülmüş, gah da xaotik olaraq nizamlayır. Bax, ən önəmlisi elə bu yazım üçün həmin o düşünülmüş hərəkətdi. Biz bütün hərəkətlərimizin düşünülmüş cədvəlini quranda adətən orada bir nöqtəni də ya qaralayırıq, ya qızardırıq. Burda rəngin iki mənada önəmi var. Qırmızı rəng, necə deyərlər, qanı ifadə etdiyindən deməli, qan qovuşmaq deməkdir. Bax, o qovuşma da kiminsə dönüşüdü, gəlişidi, qarşılanmasıdı. Bu da sirr deyil ki, görüşlər daha çox özündə sevinc əks etdirir, sevinc daşıyıcısı olur. Hətta gözlərdən axan da sevinc yaşı kimi dəyərləndirilir...**

**Qara rəng böyüklük olsa da, böyüklük yozumuna daha çox uyğun gəlsə də, amma o göz yaşını - özü də acısını, ayrılığı, həsrəti, qiyaməti, fəlakəti, zülməti, itirməyi özündə təsdiqləyir...**



**Deməli, hər iki rəng bir ünvanda - vağzallarda daha çox qarşımıza çıxır. Biz axı vağzallara həmişə tələsirik - yola salmağa da...qarşılamağa da!..**

**Bəli, mən elə bugünlərdə vağzalların önəmini bir daha köynəyimdən, ruhumdan keçirtdim. Çünki səfərə getdim, dost ziyarətinə, doğma olan, ürəyimdə yaşayan ünvanları görüb sevinməyə, təzələnməyə tələsdim. Şükürlər ki, bu görüşlər bütün çalarları ilə həm varlığıma hopdu, həm də qələmimə, sözümə. Və elə Söz demişkən, bu gün səhər-səhər ağlıma bu misralar gəldi:**

***Sən indi səmada - Allaha yaxın,***
***Mən isə diz üstə dua edirəm...***
***Ruhum aşıb artıq, ayrılıq dağın -***
***Mən sənə qoşulub, uçub gedirəm...***

**Bəli, elə bu ovqatın içində bir də gördüm ki, qarşımdakı kitabı vərəqləyirəm. Vaqif Bayatlı Odəri oxuyuram. Ruhuma, könlümə az qala su kimi çilənən misraların işığında vağzala gəlib çıxıram. Bu vağzal yola saldığım, qarşıladığım vağzalların eyni olmaqla yanaşı, həm də indi mənim olmaq üçün can atdığım, lakin ola bilmədiyim vağzaldı. Vaqif Bayatlı Odər yazır ki:**

***Böyük şəhərlərin yanında***
***Başqa bir şəhər kimidi təyyarə vağzalları.***
***Bezəndə, darıxanda şəhərdən***
***Çıxıb gedərəm ən yaxın göyə -***
***təyyarə vağzalında gecələməyə.***

**Doğrudan da bəzən adam elə bir durumda olur, elə bir nöqtəyə gəlib çıxır ki, hətta özündən də bezir, yorulur, yaşamaq, var olmaq onun üçün əhəmiyyətini itirir, mənasızlaşır. Onda nə isə etmək, nəyi isə vurub dağıtmaq və yaxud da hardasa özünə əl qaldırmaq da istəyirsən. Lakin... Köməyinə vağzallar çatır. Yaxşı yadımdadı, tələbə vaxtlarımda semestr imtahanları arasında yorulanda, darıxanda yataqxanadan çıxıb piyada dəmiryolu vağzalına tərəf gedərdim və gəzərdim peronda. Sanki kimisə qarşılayacam, sanki kimisə yola salacam. Təbii ki, onda nə qarşılayacağım vardı, nə də yola salacağım. Heç məni də qarşılayıb yola salan yox idi onda. Amma... gedirdim vağzala, ayaqlarım çəkib aparırdı məni ora. Bu yerdə yenə Vaqif Bayatlı Odər deyir ki:**

***Gərək bağışlasın Bakı şəhəri,***
***Vağzal göyündən uzağa getməyə***
***imkanım yox,***
***Gərək bağışlasın Bakı polisi,***
***yan qoyub təyyarəçi papağını***
***ayaqyalın dolaşmaq keçir könlümdən***
***göyləri.***

**Əslində bu, mənim də könlümdən keçir. Çünki çıxış yolu nə isə etməkdədi. O, "nə isə" deyilən isə bəlkə də bir şair dəliliyi etməkdi. Ayaqyalın, başaçıq, yaxası da sökülüb-tökülmüş, saçları pırpız... dərviş sifətində gəzib dolaşmaq, ətrafdakıların min yozumlu baxışları altında özünü, yəni, içini rahat etmək... Bu rahatlığı da ancaq göy üzünü ayaqyalın gəzməklə tapmaq olar. Mən vağzallarla bağlı düşüncələrimi şeirə çevirəndə bir xatirə də tutdu yaxamdan Hələ öncəki illərdə yazmışdım ki:**

***Vağzalda...***
***lap dəqiqi***
***perronda dayanmışam...***
***Qayğılı,***
***tüstülənən siqaretimlə tək...***
***Bunu yazmıram ki,***
***oxusunlar, acısınlar...***
***ya da sən oxu***
***fikir çək...***
***Sadəcə***
***istəyirəm ki,***
***özümü***
***möhkəm tutum***
***və qəhəri unudum!***
***Çünki,***
***yola salan yoxdursa,***
***qarşılayan da olmayacaq***
***demək!***

**Misraları oxuyanda sizin nə düşünəcəyinizi təxmin etmək mənə heç də asan gəlmir. Amma içimdə bir əminlik var ki, aranızda mənlə həmfikir olanlar tapılacaq. Odur ki, yerdəki vağzallarla göy üzündəki vağzalların arasındakı məsafəni ölçməyə çalışıram. Bu, ruhun səfər edəcəyi vağzalların arasındakı məsafədi. İnsan gec-tez o məsafəni qət etməyə məhkumdu. Lakin indiki anda mən tamam fərqli vağzalların sevdasındayam. O vağzalları ki, orda gözləyirəm...qarşılayıram. Elə bu ovqatla içimdə öz-özümə deyirəm. Bizim ayrılıqların ünvanı olan vağzallarla görüşlərimizin ünvanı olan vağzalların arasındakı yaşantını yaddaş kartımızda yaşatdıqca bir təsəlli, ümid ağacı da göyərtmiş oluruq. O ağacın adı da Görüşdü!**

# ƏDALƏTLİ OLMAQ - QƏHRƏMANLIQDIR!
# YENİ TARİXİ REALLIQ QARŞISINDA

***Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə ilə müsahibə.***

***İki il öncə gənc və istedadlı tədqiqatçı Yunus Mirzə mənə müraciət edib, müsahibə almaq istəmişdi. Fəqət, bütün dünyanı lərzəyə gətirmiş pandemiya səbəbindən bu mümkün olmadı. Həm də görünür hər şeyin İlahi tərəfindən müəyyən olunan bir zamanı var. O zaman indi gəlib çatıb: koronovirus zərurəti ilə bərabər baş verən qeyri-adi tarixi hadisə - 30 illik işğala son qoymuş 44 günlük müharibə - Prezident, xalq və ordu birliyinin sayəsində, şəhidlərimizin müqəddəs qanı bahasına qazandığımız, bəşəriyyəti heyrətdə qoyan, təkcə Azərbaycan - türk tarixini deyil, dünya tarixində yeni reallıq yaradan Vətən savaşında qazandığımız Zəfər insanları tamamilə yeni meyarlarla düşünməyə sövq etdi.***

***Mən Yunus Mirzə ilə bu iki ildə baş vermiş olaylardan sonra görüşə bildim. Yunus bəy, buyur, sənə müntəzirəm.***

***Məni qəbul etdiyinizə görə təşəkkür edirəm.***

**- Əslində 60 illiyiniz münasibəti ilə yazdığınız "Mən kiməm" (2015) adlı "müxtəsər həyatnamə"nizi oxumuşam, açıq deyim ki, Sizdən müsahibə almaq istəyim də (hərçənd ki, başqa əsərlərimizlə də az-çox tanışam!) bundan sonra yarandı. Bu kitabda Siz həddindən artıq səmimi təsir bağışlayırsınız, bu hardan qaynaqlanır?**

- Xatırlatdığınız kitabda mənim barəmdə çox şey var, lakin, hər şey yoxdur. Bir də ki, o kitab yazılandan sonra - 2014-cü ildən xeyli vaxt keçib. Bu vaxt mənim ömrümün hər günü bir ilə bərabər təlatümlü illər idi.

60-cı illərdə gənc yazıçı İsa Hüseynovdan soruşurlar ki, niyə həmişə atanızdan yazırsınız? O belə cavab verir: Atamı hamıdan yaxşı tanıyıram! Əsl alim, böyük ziyalı yaxşı tanıdığı, bildiyi şeylərdən yazmalıdır. Bunu hamı bilir, fəqət hamı buna əməl edə bilmir, buna əməl etmək üçün bir neçə əsas şey lazımdır: istedad, şəxsiyyət, cəmiyyət, cəsarət və zəhmət.

Ona görə təkrar da olsa gəl elə məndən başlayaq: 1954-cü ilin son günü Quba bölgəsinin qədim türk obası İspikdə (əslində bu söz təhrif olunub, İskit olmalıdır) heç bir rəyim soruşulmadan, ağlaya-ağlaya bu fani dünyaya təşrif gətirmişəm. Atam Şəmsəddin Ağagül oğlu Babayev ikinci Cahan savaşının əlili, anam Hənifə Beykəs qızı Hüseynova evdar qadın idi. Atam anamdan on yaş böyük olduğu üçün onu atama vermirlərmiş onda atam kədərli şeirləryazıb, bir beyti yadımdadır:

***Kisə tikdim olmadı,***
***Suya saldım dalmadı.***

Anamgil beş bacı bir qardaş (Hacı Səfər!) olub, anaları Sərvinaz nənəm cavan ölüb, Beykəs babam evlənməyib, yetimləri saxlayıb, heç vaxt gülməyib, toyda oynamayıb, soyuq su içməyib. Milliyyətcə türk olan rus yazıçısı İ.S.Turgenevin (Durkenov) "Mumu" hekayəsini oxuyunda gördüm ki, Gerasim eynən babam kimidir.

Atamın atası Ağagül pəhləvan olub. Ortabab kəndli kimi həbs olunub. Atamgil 8 qardaş bir bacı olublar, qardaşların üçü - Abgül, Alıgül, Nəcməddin II cahan mharibəsindən qayıtmayıb, təkcə atam yaralanaraq qayıdıb. Atamdan sonrakı qardaşı Zümrəddin 50-ci illərdə əsgərlikdə olarkən Maykonda həmkəndliləri tərəfindən qatarın altına atılaraq qətlə yetirilib... Atam evlənmək istəyəndə evlərində kiçik qardaşalları - Nüsrəddin, Zəbulla, Zəbisultan və bacıları Narıngül var idi. Babam Beykəs deyir ki, mən uşağımı oda ata bilmərəm, lakin atamın sevgisi qalib gəlir... Anam danışırdı ki, mən gəlinlik paltarımı kəsib Şəmsinin qardaşlarına köynək tikmişəm. Bibim Narıngülü Molla Mövluda ərə verirlər, əri onu çərlədib öldürür, Cabir və Sabir adlı iki oğlu yadigar qalır. Bibim oğlanları 2014-cü ilə qədər sağ idi.

Atam uca boylu, qırmızı peysər, qıvrımsaçlı, göy gözlü, gülərüzlü, olduqca cəsarətli,qorxu nədir bilməyən sarışın bir kişi idi. Anam ortaboylu, qara şəvə kimi saçlı, ağbəniz, yaşıl gözlü dolu bir xanım idi, 11 uşaq dünyaya gətirmiş, üçü tələf olmuş 8-i bu gün də yaşayıt. Biz 4 bacı, 4 qardaşıq. Mən ailənin böyük oğluyam... Deyəsən təfərrüata çox vardım.

**- Kimliyiniz daha aydın olmaq üçün bir qədər nəslinizin tarixindən, nəsil şəcərəsindən məlumat verə bilərsinizmi?**

- Bizim nəsil övliya kökəmlidir, ulu babam Pirəqələmin İspik kəndinin ortasında Hacı Mahmud ziyarətgahında məzarı var (ora ziyarət yeridir). Onun möcüzələri haqqında rəvayətlər mövcuddur. Babam II Cahan müharibəsi dövründə vəfat edib. Ənuşirəvan (VII əsr) dalaşqan bir tayfanı Quba-ya-Dumanlar adlı sahəyə sürgün edirb. Həmin tayfa bizim nəsildir. Bu gün İspik kəndindən 2 km yuxarı Dumanqar adlı sahə var. Abasqulu ağa Bakıxanovun fikirləri-ni"Mən kiməm" kitabında yazmışam.

**- 68 yaşınızın düz 50 ilini - yarım əsr Bakı şəhərində yaşamış, çətin və şərəfli ömür sürmüsünüz. Bir qədər bu illərə qayıdaq. İndi, ömrün bu anından - Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, bir sıra digər mükfatların sahibi, filologiya elmləri doktoru, nüfuzlu professor Nizaməddin Şəmsizadə bu 50 ili hansı xatirələrlə yada salır?**

- Mənim ən qiymətli sərvətim, 67 ildə qazandıqlarım Xatirələrimdir. Bu yaxınlarda çap olunmuş "Turan yolu" (2021) şeirlər kitabımda "Xatirələr" şeirində belə zikr edirəm:

***Hamı sərvət yığdı***
***Mənsə xatirə***
***Biri saray tikdirdi***
***Biri hasar çəkdirdi.***
***Məncə sükutdan bir ev***
***Doldurdum bu evə***
***xatirələri -***
***Yetim uşaqlar kimi***
***Yaxşı ki, xatirələrim var***
***İçində mən də varam.***

Bakıda zəngin tələbə həyatı, sevgi ilə dolu mənalı bir həyat yaşamışam. 1972-ci ildə indiki BDU-ya yeganə universitet olan Azərbaycan Dövlət Universitüetinin filologiya fakültəsinə daxil olmuş, 5 il əla oxudum, fəqət mübahisə etdiyimə görə müəllimin qəzəbinə gəlib dövlət imtahanında "Elmi kommunizm" fənnindən kəsildim. Elə həmin gün prinsipial, cəngəvar xislətli diplom rəhbərim professor Abbas Zamanovun mənim haqqımda "Ədəbiyyat və incəsənət" qəzetində "Biz inanırıq ki..." adlı məqaləsi dərc olunmuşdu. Abbas müəllim dövlət imtahanına gəlib vəziyyəti öyrəndi,



məni ərklə danladı, zorla mənə dövlət imtahanından kafi yazdırdı. Beləliklə, beş il əla oxumağıma baxmayaraq, fərqlənmə diplomu ala bilmədim.

Bu mənə qarşı həyatda ilk haqsızlıq, ilk zərbə və ədalətsizliklə ilk görüşüm oldu. Fəqət həyatımda sonralar ömrümə işıq salan, məni əbədi xoşbəxt edən bir "ilk"də baş verdi: birinci kursda ikən 8-ci sinifdə oxuyan bir qızı sevdim. İndi o qız dörd övladımın anası, səkkiz nəvənin nənəsi, 11 illik kirayənişin ömrümün, ağır xəstə olduğum, təlatümlü illərimin fədakar sirdaşıdır. Yeri gəlmişkən deyim ki, Qızqayıt xanımla şərəfli nigahdan üç qızımız bir oğlumuz dünyaya gəlib: böyük qızım Fidan tanınmış alim və yazıçı, Nicat və Cəmilə adlı iki övlad anası, ortancıl qızım Günel ingilis dili üzrə təhsil alıb, bank işində çalışır, Elgün və Yunus adlı iki oğlu var, kiçik qızım Ayfər İncəsənət Universitetini bitirib, kulturoloqdur. İctimai TV-də çalışır, Rəhman və Rəhim adlı iki oğlu var, sonbeşik Fərid iqtisadçıdır, Kənd təsərrüfatı nazirliyində işləyir, Fəray və Münəvvər adlı iki qız nəvəmin atasıdır.

**- Müəllimlərinizi necə xatırlayırsınız, unutmamısınız ki, onları? Siz də 40 il ali məktəblərdə dərs demisiniz, ADMİ da uzun müddət kafedra müdiri, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin müdiri, işləmiş, BDU da professor kimi mühazirələr oxumusunuz. Ümumiyyətlə, Sizin üçün müəllim anlayışı nəyi ehtiva edir?**

- Bir gün Əmir Teymur başının dəstəsi ilə səyahətə çıxır, əmr verir ki, müəllimini də dəvət etsinlər. Təsadüfən bir ulamdan keçəndə müəllimin atı əmirdən qabağa qaçır və atın nalından çıxan palçıq əmirin əbasına yapışır. Əmir Teymur əmr verir ki, hamısı necə var eləcə də dayansın. Bir saat, beş saat gözləyib əmrə müntəzir olurlar. Hamı düşünür ki, o müəllimi cəzalandıracaq. Əbanın üstündəki palçıq quruyandan sonra Əmir Teymur göstəriş verir ki, əbanı səliqə ilə çıxarıb saxlasınlar, o deyir, bu mənim müəllimimin yadigarıdır, onu qoruyun. Deyirlər bu gün də həmin əba İstanbulda muzeydədir. Bax, belədir mənimdə müəllimimə münasibətim. Böyük yunan filosofu Aristotel yazıb: "Valideynim məni göydən yerə endirdi, müəllimim yerdən göyə qaldırdı".

Birinci sinifdə mənə dərs demiş Şahmurad müəllimi, III-IV siniflərdə sinif rəhbərim olmuş Əzzə müəlliməni, Kimya müəllimim Kənanı, riyaziyyat müəllimlərim Qiyaməddin və Şıxvərdini, rus dili müəllimləri Valentina Qarayevnanı, Məryəm Xasanovnanı, Söhrab Talıbovu, Sərvinaz müəlliməni və ən əsası ədəbiyyat müəllimim Nəcməddin Əlixanlını necə unuda bilərəm?

Altıncı sinifdə oxuyanda mənə rus dili dərsi demiş 19 yaşlı Valentina Karayevnaya vurulmuşdum...

1972-ci ildə ADU-nun birinci kursuna qəbul olunanda rektorun adından atama bir də ədəbiyyat müəllimimə xüsusi blankda təşəkkürnamə göndərmişdilər. Təşəkkürnaməni alıb Nəcməddin müəllim diz çöküb Allaha dua etdi. Bu an əbədi olaraq yaddaşıma köçüb.

Tələbə ikən mənə görkəmli alimlər dərs deyib: ədəbiyyatdan Mir Cəlal, Abbas Zamanov, Cəlal Abdullayev,Təhsin müəllim, Əkbər Ağayev, Pənah Xəlilov, Qulu Xəlilov, Bəkir Nəbiyev, Şamil Qurbanov, Bəkil Hacıyev, Əmirxan Xəlilov, Əlyar Səfərli, İnayət Bəktani, dilçilikdən Muxtar Hüseynzadə,Əlövsət Abdullayev, Ağamusa Axundov, Səlim Cəfərov, Yusif Seyidov, Tofiq Hacıyev, Fərhad Zeynalov, Nadir Məmmədov. Bunlardan əlavə teatr tənqidindən Mehdi Məmmədov və klassik poetikadan Əli Fəhmi müəlimim olub.

Mənəali məktəb auditoriyasında dərs deməsələrdə akademiklər Məmməd Cəfəri, Kamal Talıbzadəni, müxbir üzvü Əziz Mirəhmədovu,professorlar Mirəli Seyidovu, Qafar Kəndlini, Kamran Dadaşoğlunu ehtiramla yad edirəm. AMEA-nın müxbir üzvü Yaşar Qarayevi ustadım hesab edir, onun məktəbini davam etdirirəm.

**- Nizaməddin müəllim mübarizələrlə dolu, yaddaşınız zəngindir. Barənizdə yazılan kitablardan oxumuşam ki, ailənizi və şəxsiyyətinizi qorumaq üçün çox şeydən imtina etmisiniz. Yazdıqlarınız böyük şəxsiyyətinizin, ləyaqətlivətəndaşlığınızın, nəcib ziyalılığınızın əyani təsdiqidir. Heç vaxt əyilməmişsiz, yaltaqlığa nifrət etmisiniz, xeyirxahlıq, mərhəmət və ədalət şüarınız olub. Elə buna görə də bu gün hamı Sizin adınızı ehtiramla çəkir. Bəs bu gün necə, bayaq dediyiniz yeni tarixi reallıq, pandemiya epoxasında vəziyyət necədir?**

- Məni bir qədər çox vəsf etdiniz. Otuz illik işğal dövrünü hər bir namuslu ziyalı kimi mən də kədər içində, ləyaqəti tapdalanmış, təhqir olunmuş vətəndaş niskili ilə yaşamışam. İkinci Qarabağ savaşında - Vətən müharibəsində, bayaq qeyd etdiyim kimi, Ali Baş komandanın hərbi və diplomatik bacarığı, ordu və xalq birliyi sayəsində, şəhidlərimizin qanı - qazilərimizin canıhesabına tarixdə misli görünməmiş, bəşəriyyəti heyrətdə qoyan zəfər çaldıq. Tarixdə hələ heç bir dövlət başçısı İlham Əliyev qədər xalqına yaxın, doğma olmayıb.Mən bu barədə "Müharibə: qürur və kədər" (525-ci qəzet), "Erməni faşizmi" ("Ədəbiyyat qəzeti"), "İşğal mənşəyi və genologiyası" ("Ədalət" 4 mart, 2021) geniş məqalələrimdə yazmışam. İlham Əliyev hələ xeyli əvvəl BMT-nin Təhlükəsizlik Şurasındakıçıxışında müharibə ideologiyasını yaratdı. İşğalçı Ermənistanla müharibənin tarixi zərurət olduğunu bütün dünyaya bəyan etdi.

Döyüşlərin getdiyi vaxt dost və düşmən ölkələrin telekanallarına 20 dən artıq konseptual müsahibə verib, yüksək diplomatiya nümayiş etdirdi. Burada onun taktika və strategiyası, məntiqi təfəkkürü, natiqliyi, səbri bir lider kimi şəxsiyyət ucalığı xalqda və orduda qələbəyə inamı gücləndirdi. Faktiki olaraq o dünyanı heyrətdə qoyan yeni müharibə diplomatiyası və strategiyası yaratdı.

Hər günü bir ilə bərabər olan 44 günlük müharibə Azərbaycanda, türk dünyasında və bəşər tarixində yeni tarixi reallıq - bu vaxta qədər görünməmiş epoxa yaratdı. Türkəsilli Azərbaycan xalqının qəhrəmanlıq ruhu tarixi əzəməti və qüdrəti meydana çıxdı və əbədi Zəfəri təmin etdi. O ki, qaldı bütün dünyanı koronavirus - kovid 19-un yaratdığı pandemiya faciəsinə, belə şeylər tarixdə olub, çoxlu canlar alıb, fəqət bu da keçib gedəcək. Təkcə onu deyim ki, bu bəşəri bəladan ən az itki ilə çıxan ölkə Azərbaycan olacaq, bizim Prezidentin uzaqgörənliyi sayəsində vaxtında qabaqlayıcı tədbirlər görüldü.

Koronovirusun şəcərəsi məlum deyil, müəmmalıdır, mən təbib deyiləm, lakin ehtimal edirəm ki, bu təbii bəla deyil, əhali artımının qarşısını almaq, təbii resursların çatışmazlığı, ərzaq, su, enerji mənbələrinin qıtlığından çıxış yolu kimi xəstələri və qocaları məhv etmək üçün yaranmış bir bəhanədir.

**(ardı növbəti sayımızda)**

# Niyə müğənni siyasətə qoşulmasın ki?

**Bizimkilərin beynində kök salan bir fikir var: "Filankəs getsin mahnısını oxusun, nə işi var siyasətdə?!". Ki, bunu deyənlərin çoxusu əslində heç öz ixtisasları üzrə işləmirlər. Mühəndisi alver eləyir, alverçisi oxumağa başlayır, müəllimi taksi sürücüsüdü. Yəni əslində heç kim yerində deyil. Amma fakt cənabları bunu deyir ki, heç də belə deyil. Əsl sənətinin başını buraxıb siyasətə qarışanlar da uğur əldə edə bilir. Məsələn, elə bu dəqiqə sadalayacağım adamlar məşhur idmançılardır. Onlar sonradan siyasətə qoşulublar.**

Məşhur boksçu, ağır çəkidə WBO, WBC və WBA versiyaları üzrə üçqat, kikboksinq üzrə altıqat dünya çempionu olan Vitali Kliçko özünü yalnız idman aləmində təsdiq etməyib. 2006-cı ildən siyasətə qatılan Kliçko 2008-ci ilədək Ukrayna Prezidentinin müşaviri vəzifəsində çalışıb.

2012-ci ilin oktyabr ayında Vitali Kliçkonun "UDAR" Partiyası parlament seçkilərində 42 deputat mandatı qazanıb, boksçunun özü isə fraksiyanın başçısı vəzifəsində çalışıb. Ancaq məşhur boksçu bunlarla kifayətlənmək fikrində deyildi. Hətta 2013-cü ildə Dünya Boks Şurasının prezidenti Xose Süleyman ilə görüşü zamanı Kliçko ona gələcək planlarından danışıb və prezident seçkilərində namizədliyini irəli sürmək fikrində olduğunu demişdi.

Qeyd edək ki, hazırda Vitali Kliçko Kiyev Şəhər Şurasının deputatı və "UDAR" Partiyasının sədridir. O, kiçik qardaşı Vladimir Kliçko ilə birlikdə xeyriyyə fondu yaradıb. Həmin fond vasitəsilə gənclərin idmana cəlb olunması və sağlam həyat tərzinin təşviqi həyata keçirilir.







*Məşhur filippinli boksçu*



Menni Pakyao idman karyerasına 1995-ci ildə başlayıb. Səkkiz müxtəlif kateqoriyada dünya çempionu kimi boks tarixinə düşən Pakyao karyerası ərzində 56 qələbə qazanıb, cəmi 5 dəfə məğlub olub. Qələbələrinin 38-ni nokautla qazanıb. Amerika İdman Akademiyası versiyası üzrə 2009-cu ilin ən yaxşı idmançısı seçilən Menni Pakyao siyasət aləmində də kifayət qədər tanınır. Menni ilk dəfə siyasətdə özünü 2007-ci ildə sınayıb və o vaxt Filippin Liberal Partiyasının nümayəndəsi seçilib.

***İdmançı 2010-cu ildə keçirilən parlament seçkilərində qalib gəlib. Menni Pakyao müsahibələrinin birində deyib: "Mənim siyasətçi kimi xalqıma xidmət etməyə hər zaman vaxtım var. Lakin əgər irəlidə ciddi bir döyüş planlaşdırılsa, o zaman mən digər işlərimi ikinci plana keçirirəm".***

Kaxa Kaladze futbol karyerasına 11 yaşında olarkən doğma şəhəri Samtredianın yeniyetmələrdən ibarət komandasında başlayıb. Hücumçu qismində meydana çıxan Kaxa daha sonra SSRİ milli komandasının keçmiş futbolçusu David Kipiani tərəfindən Tiflisin "Dinamo" klubuna dəvət alıb. 1998, 1999, 2000-ci illərdə Gürcüstan çempionu olan Kaxa 2001-ci ildə "Milan"-a transfer olunub.

O, 2004-cü ildə İtaliya çempionu, həmin ildə İtaliya Superkubokunun, 2003 və 2007-ci illərdə UEFA Superkubokunun sahibi olub. Bununla da Kaxa Kaladze Gürcüstanın ən bahalı futbolçusu adını alıb.

Lakin o, futbolla kifayətlənməyib. 2012-ci ilin oktyabrında keçirilən parlament seçkilərində qalib gələrək Bidzina İvanaşvilinin sahibi olduğu "Qruzinskaə meçta" koalisiyasının ən fəal üzvlərindən birinə çevrilib və Gürcüstanın Enerji və Təbii Sərvətlər naziri seçilib. O, 2017-ci ildən Tbilisi şəhərinin meri vəzifəsində çalışır.

***Futbolçu karyerasına Braziliyanın klubunda başlayan Romario da idmanı siyasətə dəyişənlər sırasındandır. 1994-cü ildə Braziliya komandasının heyətində dünya çempionluğunu qazanan futbolçunun şərəfinə Duki-di-Kişiasda yerləşən 10 000 tamaşaçı tutumu olan stadion var. Futbol dünyasında istedadı və bacarığı ilə tarixə adını yazdırmağı bacaran əfsanəvi futbolçunun şərəfinə, həmçinin də Rio-de-Janeyrodakı "San-Januario" stadionunda heykəl ucaldılıb. Futbolçunun vurduğu 1000-ci qolun ərazisində ucaldılan heykəl "Vasko da Qama" klubuna 10 min dollara başa gəlib.***

Siyasətdə böyük uğurlar əldə etmək istəyən Romario 2010-cu ildə Braziliya Sosial Partiyasından Milli Konqresin aşağı palatasına üzv seçilib. Futbolçunun fikrincə, ölkənin siyasi həyatında olmaq insanlara yardım etmək üçün gözəl vasitədir.

Məşhur futbolçu siyasətdə əsas məqsədinin aztəminatlı ailələrin övladlarına yardım etmək olduğunu deyib. Qeyd edək ki, bir çoxlarının fikrincə, ulduz futbolçunun bu addımı atmasının səbəbi 2005-ci ildə dünyaya gələn və Daun xəstəliyindən əziyyət çəkən İvi adlı qızı olub.

2009-cu ildə 43 yaşında futbolla vidalaşan Romario 4,5 milyon səs toplayaraq senator seçilib.

### *Nikolay Valuyev*

nəhəng və hündür bədən quruluşuna (boyu 2,23 sm, çəkisi 147 kq-dır) malik idmançı olması ilə daha çox xatırlanır. Onun haqqında "Rus nəhəngi", "Dəmir baş", " Piter Nikolayı" kimi ifadələr işlədilir. Rusiya Dövlət Dumasının deputatı Nikolay Valuyev Panasiya Boksçular Assosiasiyasının versiyası (2000), WBA versiyası (2005-2007-ci illər və 2007-2009-cü illər) üzrə dünya çempionu və yenə də WBA versiyası (2008-2009) üzrə müvəqqəti dünya çempionudur.

Məşhur boksçu 2009-cu ildən etibarən özünün təsis etdiyi boks məktəbi ilə "Valuyev kuboku" turnirlərinin təşkili ilə məşğuldur. 2011-ci ildə Nikolay Valuyev altıncı çağırış Rusiya Dövlət Dumasına deputat seçilib. O, həmçinin dövlət dumasının üzvü kimi bədən tərbiyəsi, idman və gənclər məsələləri ilə məşğul olur.

**Xarici təcrübə onu göstərir ki, istəsən, siyasətə qoşulan başqa sənət sahiblərindən də faydalanmaq olar.**

**Eminquey**

# Daha bir qrup qaziyə yüksək texnologiyalı protezlər verilib

**2020-ci ilin dekabr ayından artıq 270 nəfər müharibə əlili yüksək texnologiyalı 285 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində daha bir qrup müharibə əlili yüksək texnologiyalı müasir 4-cü nəsil protezlərlə təmin edilib.

Tədbirdə qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı müasir protezlərlə təminatına başlanıb.

Ötən dövrdə 270 nəfər müharibə əlili yüksək texnologiyalı 285 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib. Onlardan 82 nəfəri I Qarabağ müharibəsi və Vətən müharibəsinə qədərki dövrdə hərbi səbəblərlə əlaqədar əliliyi olan şəxslərdir ki, 87 ədəd müasir potezlərlə təmin olunublar.

188 nəfəri isə 44 günlük Vətən müharibəsinin qazisidir və həmin şəxslərə 198 ədəd yüksək texnologiyalı müasir 4-cü nəsil protez verilib. Ümumilikdə, Vətən müharibəsi qazilərinin protezlə təminat prosesi yekunlaşmaq üzrədir.

**Təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Həmin protezlər istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.**



Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 11 (2285) 19 mart 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Yeni və şərəfli tarixin başlanğıcı

**44 günlük Böyük Vətən Müharibəsi zəfərlə başa çatdıqdan sonra dünya ictimaiyyətinə daha bir mesaj verildi. Bu mesaj əslində həqiqətin, gerçəyin rəsmiləşdirilməsi idi. Yəni Azərbaycan dövləti, başda Ali Baş Komandan olmaqla hər kəsə bəyan etdi ki, biz BMT-yə müstəqil dövlət kimi qəbul olunarkən məlum dövlət sərhədlərimizi bərpa etdik. Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə Dağlıq Qarabağ problemini də təkbaşına çözdü.**

Bəli, bu bəlli həqiqəti dünyaya rəsmi şəkildə bildirəndən sonra inanmaq istəyirdik ki, ermənipərəst güclər, onların havadarları, xüsusilə Ermənistanın özü artıq tarix dərsindən nəticə çıxaracaq və yenidən qonşuluq şəraitində yaşamaq, Azərbaycanla iqtisadi, siyasi əlaqələr qurmaq yollarını axtaracaq. Təəssüf ki, bu, belə olmadı. Ermənistanla ona havadarlıq edənlər, xüsusilə Fransa, Kanada və digər dövlətlər sanki problemin çözümündən narahat olduqlarını göstərmək üçün yenidən ATƏT-in Minski qrupunun, danışıqlar prosesinin, Ermənistanın dırnaqarası hüquqlarını dilə gətirməyə başladılar. Bu dövlətlərin həm rəhbərliyi, həm də onların açıq bəyanatları birmənalı şəkildə Ermənistanı müdafiə etməyə, onların işğalına haqq qazandırmağa, hətta onların təbirincə desək, "Guya Ermənistanın işğala məruz qaldığı və bu işğala Azərbaycanın son qoyması" tələb etməyə başladılar. Bütün bu proseslər də onu göstərdi ki, regionda marağı olan güclər Ermənistandan bir alət kimi istifadə etməklə problemin ömrünü uzatmaq, onu müəyyən mənada dondurmaq və nəticədə Azərbaycan tərəfinə müxtəlif vasitələrlə təzyiq edib bölgədə ikinci bir erməni dövlətini yaratmaq məqsədinə nail olmaq istəklərini büruzə verdilər. Bu görünən və həm də siyasətin alt qatında gizlənən məqamlar da özü-özlüyündə Azərbaycan prezidentinə, onun komandasına, bütünlüklə məlum olduğundan cənab İlham Əliyev çox qəti bir şəkildə bəyan etdi ki, "Artıq Dağlıq Qarabağ problemi yoxdur, bu məsələ bitib və biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Ona görə də heç kimin bizə təzyiq göstərmək ixtiyarı və hüququ yoxdur. Biz BMT-nin, xüsusilə Minsk qrupunun həll etməli olduğu problemi özümüz tam şəkildə həll etmişik".



Bu gün təkcə Cənubi Qafqazda deyil, bütövlükdə dünyada söz sahibi olan Azərbaycan dövləti özünün 44 günlük müharibəsi ilə sübut etdi ki, həm böyük iradəyə, həm böyük gücə, həm də mükəmməl daxili və xarici siyasətə malikdir. Bu ölkə ulu öndərimiz Heydər Əliyevin işləyib hazırladığı böyük və müdrik siyasətin gerçəkləşməsi üçün öz ali baş komandanının, prezidentin ətrafında yumruq kimi birləşib və həmin dəmir yumruq da bütün problemləri çözmək qüdrətinə malikdir. Heç də təsadüfi deyil ki, Azərbaycan prezidenti bugünlərdə Ağdamda təməlqoyma mərasimlərində iştirak edərkən bütün dünyaya səsləndi. Həmin çıxışın ölkə və dünya mediyasında tirajlanması həm göstərdi və sübut etdi ki, bu gün erməni təxribatlarının bu və ya digər formada davam etməsinə baxmayaraq Azərbaycan artıq birmənalı şəkildə işğaldan azad etdiyi torpaqlarda quruculuq işlərinə başlayır. Yəni bizim məqsədimiz düşmənin xaraba qoyduğu, yerləyeksan etdiyi Ağdamda, Füzulidə, Cəbrayılda, eləcə də digər ərazilərimizdə yeni infrastruktur yaratmaq, insanlarımızı öz dədə-baba torpaqlarına qaytarmaq və bununla da paralel olaraq bizimlə işləmək istəyən bütün dövlətlərə, şirkətlərə, yəni bizə əl uzadanlara "yaşıl işıq" yandırmaq iqtidarındayıq.

Elə bu məqsədlə də Türkiyənin, İtaliyanın, Belarusiyanın, eləcə də artıq müraciətlərə daxil olan digər dövlətlərin işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına, yeni ağıllı kənd və şəhərlərin salınmasına cəlb olunması istiqamətində nümunələr özünü göstərir. İstər Füzuli şəhərində hava limanının tikilməsi, Şuşaya Zəfər yolunun çəkilişi, Zəngilanda, Qubadlıda, Ağdamda, Türkiyənin kənd təsərrüfatı, nəqliyyat, mədəniyyət, turzim nazirlikləri ilə əlbir işləmək, İtaliya şirkətlərinin Şuşada və digər ərazilərimzdə işə başlaması Azərbaycanın sülhpərvər niyyətinin bariz göstəricisidir.

Bax, belə bir şəraitdə ermənilərin təxribatlara əl atması gizli yollarla sərhədimizi keçib Kəlbəcərdə, Laçında və digər ərazilərdə yenidən minalar basdırması, terror aktlarına cəhd göstərməsi düşmənin rəzilliyi ilə yanaşı, həm də onun işğalçı, faşist niyyətinin iç üzünü açıb göstərir. Bu, eyni zamanda üçtərəfli bəyanatın təmsilçilərindən olan Rusiyaya da sayqısızlığın ifadə olunmasıdır.

Yəni, Azərbaycan, Ermənistan və Rusiya rəhbərliyinin imzaladığı 10 noyabr bəyanatına qarşı atılan bu addımlar göstərir ki, Ermənistan bir dövlət kimi idarə olunmadığı kimi, həm də özü özünü yeni fəlakətlərə çəkib aparır. Azərbaycan isə quruculuqla, abadlıqla məşğul olmaqla yanaşı, həm də bölgədə yeni infrastrukturun yaranmasına səy göstərir. Təbii ki, bu da Ermənistan üçün müəyyən şanslar verir. Ölkə prezidenti cənab İlham Əliyevin dediyi kimi, "Azərbaycanda həyata keçirilən böyük layihələr, eləcə də Zəngəzur dəhlizinin açılması Ermənistan üçün də müəyyən şanslar yaradır. Əgər qonşu dövlət öz siyasətində köklü dəyişiklik edərsə, silahlanmaya yenidən işğala özünü sərf etməzsə, onda müəyyən zamandan sonra o da regionda gerçəkləşən böyük layihələrin iştirakçıları çevrilə bilər, bu gün kənarda qaldığı layihələrə qatıla bilər. Təəssüf ki, biz hələlik Ermənistan tərəfindən belə bir niyyətin əlamətlərini görmürük. Bütün bunlara baxmayaraq biz öz yolumuzla gedir və gedəcəyik".

Dünyada baş verən proseslərin fonunda görünən odur ki, müəyyən qüvvələr Cənubi Qafqazda qaynar nöqtələrin qalması üçün aşkar və gizli fəaliyyət göstərməkdədirlər. Hətta bu məqsədlə kifayət qədər vəsait də xərcləyib müharibə tərəfdarlarına silah-sürsat hədiyyə edirlər. Amma bu güclərin ermənilərin əli ilə nələr etmələrindən asılı olmayaraq məlum olan bir gerçəklik var. O da Azərbaycan prezidentinin iradəsi, Azərbaycan ordusunun gücü, xalqa hakimiyyətin birliyi və bir də müdrik xarici siyasətdir. Bax, bu qeyd etdiklərimizin ümumi məntiqi nəticəsi göstərir ki, bu gün pandemiyanın artıq idarə olunduğu Azərbaycanda yeganə məqsəd böyük qayıdışın tələblərini yerinə yetirmək, işğaldan azad edilmiş ərazilərimizin baş planını reallaşdırmaqdır. Həmin iqtisadi məsələlərlə yanaşı, hərbi qüdrətimizi də artırmaq, təkmilləşdirmək, ordumuzu döyüş və qələbə ruhunda saxlamaq üçün vacib olan qərarları, qəbul edir, addımları atmaq, onların təlimlərini döyüş şəraitindəki bir səviyyədə gerçəkləşdirmək və nəhayət, dəmir yumruğu sıxılı saxlamaq!

Bax, budur bugünümüzün, sabahımızın qarşımıza qoyduğu məqsəd. Bizi də bu məqsəddən heç kim çəkindirə bilməz. Əgər xatırlayırsınızsa, Şuşada keçirilən Xarı Bülbül festivalının açılışında Azərbaycan prezidenti düşmənə və onun havadarlarına bildirdi ki, "heç kim bizimlə güc dilində danışa bilməz, heç kim bizə təzyiq edə bilməz, biz öz torpaqlarımızı işğaldan azad etmişik, kimsə başqa bir niyyətə düşərsə, o yerində və vaxtında öz cavabını alacaqdır. Dəmir yumruq onların başına enəcəkdir".

**Zaman ən böyük hakimdlir. Biz 44 günlük müharibədə göstərdik ki, şəhidlərimizin qanı yerdə qalmadı, torpaqlarımız işğaldan azad edildi və ölkəmizdə böyük qayıdışa başlanıldı. Bu Azərbaycanın bir dövlət olaraq yeni tarixinin başlanğıcıdır. Həmin tarixin müəllifi də Azərbaycan prezidentidir. Biz də bu şərəfli tarixi gələcəyə şərəflə daşıyacayıq.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Qarabağ müharibəsi şahidlərin gözüylə

## Bəxtiyar Əliyevin "Ağdərə döyüşləri" kitabı barədə düşündüklərim



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

**Dahi savaş - Qarabağ müharibəsi Azərbaycan xalqı üçün ağır bir sınaq, imtahan idi. Ermənistanın başladığı təcavüzkar, işğalçı müharibədə həm də səbrimiz, dözüm və iradəmiz sınanırdı. Bu çətin sınaqdan çıxmaqda igid oğullarımız, hətta onlarla çiyin-çiyinə döyüşən cəsur qızlarımız da mühüm rol oynadılar. Hələ Birinci Qarabağ müharibəsində əlinə silah alıb, əri, qardaşı, oğlu ilə çiyin-çiyinə döyüşən Vətən qızlarımız yurdun hərb tarixinə yeni səhifələr yazdılar. Müharibə dəhşətləri ilə üz-üzə qalan soydaşlarımız ön cəbhəyə yardıma tələsir, hər kəs öz töhfəsini vermək istəyirdi. Kənarda qalmayan qələm əhli isə əsərlər yazaraq, əsgər və zabitlərimizi mübarizəyə səsləyir, qələbəyə ruhlandırırdı.**

Amma bir həqiqət də var. Müharibə mövzusunun inikası olan savaş ədəbiyyatı gerçəyi yalnız o zaman dolğun əks etdirir ki, bu yöndə əsər yazan şəxs barıt qoxusunu duymuş, hərb qovğasının dəhşətlərini öz taleyində yaşamış olsun.

Qələm dostumuz, ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist Bəxtiyar Əliyev kimi.

O, Qarabağ cəbhələrində döyüşüb, qanqadayla üzləşib, əjdaha nəfəsli, ölümsaçan müharibənin hər üzünü görüb, insanı dəhşətə gətirən ölüm səhnələrinin şahidi olub, dost itkisindən sarsılıb.

Bəxtiyar Birinci Qarabağ savaşının uğurlu-uğursuz döyüşlərinin iştirakçısı kimi, hərb tariximizin bu mərhələsi barədə dəyərli bir kitab ərsəyə gətirib. "Ağdərə döyüşləri" adlı kitabını. Kitaba hərbi jurnalist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Vahid Məhərrəmov ön söz yazıb.

Bəxtiyar Əliyev BDU-nun Jurnalistika fakültəsini bitirib. Cəbhə xatirələri, vətənpərvərlik mövzusunda yazıları, portret oçerkləri, hekayələri dövri mətbuatda işıq üzü görüb.

Müəllif bu publisistik əsərində "Babək-44" taborunun tərkibində düşmənə qarşı vuruşan qeyrətli oğulların qəhrəmanlığından söz açıb, iştirakçısı olduğu döyüşlərin xronikasını oxucuların diqqətinə olduğu kimi çatdırıb. Bununla da Birinci Qarabağ savaşı dönəmindəki ictimai-siyasi və hərbi vəziyyətə aydınlıq gətirmək istəyib.

Kitabı oxuduqca qan qoxuyan savaş səhnələri ilə qarşılaşırıq: "1993-cü il fevral ayının beşi idi.

"Babək-44" taboru əvvəlki mövqelərdə müdafiə olunurdu. Qışın soyuğu, şaxtası adamın iliyinə işləyirdi. Döyüşə hazır olmaq barədə əmr verilmişdi... Şiddətli atışma xeyli müddət davam etdi. Bu döyüşdə əsgərlərimizin şücaəti nəticəsində düşmən xeyli itkilər verdi.

Yaralı erməni quldurların bağırtısı meşəyə səs salırdı... Bütün səylərimizə baxmayaraq, taborun bir neçə döyüşçüsü Çıldıranın müdafiəsində itkin düşmüşdü."

### *Bu sətirlər*

***bizə bir çox mətləbləri diktə edir, bir daha müharibənin necə böyük fəlakətlərə səbəb olması barədə düşünürük. Doğrudan da, insanlara müsibətlər gətirən müharibələr zamanından asılı olmayaraq, həmişə qan-qada, ölüm-itimdir. O günlərin dəhşətlərini yenidən yaşamaq çətindən çətindir.***




***Lap ölümdən betərdi... Bəs bütün bunları yazmaq necə? Əlbəttə, çətindir! Şəhid olmuş silahdaşlarının ürəklərində qalan arzu-diləklərindən, yağı gülləsinə hədəf olan xoş xəyallarından yazmaq nə qədər çətindir. Yazana qədər isə müəllif özü də cəbhədən-cəbhəyə adlamış, qaynar nöqtələrdən keçmiş, azğın düşmənlə döyüşmüşdü.***

***Neçə yaralı əsgərin od-alovun içərisindən çıxarılmasında, dava meydanında, dağda-daşda düşüb qalmış şəhidlərin cəsədlərinin tapılıb evlərinə göndərilməsində yardımçı olmuşdu.***



Bəxtiyar Əliyev həm də peşə missiyasına sadiq qalıb, şahidi olduğu hadisələri, döyüş əməliyyatlarının xronikasını yaddaşına və cib dəftərçəsinə köçürmüşdü. Düşünmüşdü ki, silaha sarılanların, Vətən yolunda çarpışanların fədakarlığını tarixin yaddaşına yazmaq həm də nə qədər şərəflidir. Görkəmli ədibimiz M.S. Ordubadinin belə bir kəlamı var:

"Həyat böyük tarixi döyüş günlərində öz qələmlərini süngülərlə yanaşı qoya bilən sənətkarları yaşadır." Deməli, hərb salnaməmizə töhfələr verən qələm dostlarımız özləri də tarixdə layiqli yerlərini tutacaqlar - bu da həqiqətdir!

Bəxtiyarın cəbhə xatirələri toplanmış bu səngər kitabını düçar olduğumuz Birinci Qarabağ müharibəsinin talelərə yazılan salnaməsi də adlandırmaq olar. Bu kitabda yaralı qartal kimi çırpınan Qarabağ, işğala məruz qalan yurd yerlərimizdə günahsız soydaşlarımızın fəryadı, Vətən şəhidlərinin ruhuna tükənməz sayğı var və ən ümdəsi, erməni-rus rəzalətinə dözməyən qələm dostumuzun Azərbaycanımızı üzləşdiyi fəlakətdən qurtarmaq harayı var:

***"Qarlı, dumanlı yanvar ayında Qarabağın yüksəkliklərində döyüşmək olduqca ağır idi.***

***Düşmən də yetərincə itkilər verirdi. Məhv edilən snayper və pulemyotçuların cəsədlərindən də bəlli olurdu ki, burada döyüşənlərin heç də hamısı ermənilər deyil, muzdlu əcnəbilərdir.***

***Bu, onu göstərirdi ki, ermənilər bizimlə təkbaşına döyüşmürlər, onlara arxa-dayaq olan böyük və gözə görünməyən qüvvələr olub." Müəllif yeri gəldikcə ön xətdə şahidi olduğu hadisələri təhlil edir, səbatsızları, daxili sabitliyi pozanları, uğursuzluğun, böyük itkilər verilməsinin səbəbkarlarını qınağa çəkir:***

***"Bunlar ancaq təsadüf nəticəsində yüksək kürsüyə gələnlərin, şöhrətpərəstlərin əməllərindən başqa bir şey deyildi."***

Publisistin daha bir uğuru təhkiyəsinin rəvan və axıcılığındadır.

O, Çıldıran, Vəng uğrunda döyüşlərdən yazanda da, odlara qalanmış, elatı dərbədər düşmüş sərhəd kəndlərimizin ürək parçalayan mənzərəsini təsvir edəndə də, üzvü olduğu taborun mənəvi atası, sonra briqada komandirinin müavini təyin edilmiş kapitan Elxan Qəniyevin, onun davamçısı "Babək-44" taborunun komandiri, mükəmməl hərbi biliyə malik Abakar Mirzəyevin, pəhləvan cüssəli döyüşçü Namiq Məmmədovun şücaətindən, şəhid Şahin Əliyevin "Təki Vətən yaşasın" deyən anası Şəfiqə xanımın yurd nisgilindən söz açanda da təbii və səmimidir.

### *"Ağdərə döyüşləri"*

**kitabına müəllifin üç hekayəsi də daxil edilmişdir. Onun "Məktub", "Dozor postu" və "Gecikmiş toy" adlı sənədli hekayələri çiyin-çiyinə odlu yollar qət etdiyi əsgər dostlarının həyatına, döyüş yoluna həsr olunub.**

Bəxtiyar bu hekayələrində Birinci Qarabağ savaşından üzü bəri yaşananları, soydaşlarımızın üzləşdiyi məşəqqətləri, müharibə dəhşətlərinin başımız üstündən Domokl qılıncı kimi asıldığını, hər bir evin-ailənin bu əzablara düçar olduğunu əvvəldən-axıra maraqlı təhkiyə ilə çatdırır.

Həyəcanla oxunan "Məktub" hekayəsi gözlənilməz sonluqla bitir: könüllü olaraq döyüşlərə qatılmış oğlunu hərbi hissələrin birində axtaran ata onunla görüşəcəyinə, gəlininin yazdığı, iki körpə nəvəsinin əl izləri olan məktubunu ona çatdıracağına ümid bəsləsə də, övladının şəhid olması xəbərini alır.

**Nə yaxşı ki, Zəfərlə bitən 44 günlük Vətən müharibəmiz xalqımıza böyük fərəh hissi yaşatdı. Bu möhtəşəm Qələbəyə müdrik Sərkərdəmizin qətiyyəti, əsgər və zabitlərimizin rəşadəti, ordu və xalq vəhdəti ilə imza atıldı. Düşmən məhv edildi, torpaqlarımızdan qovuldu, şəhidlərimizin qanı yerdə qalmadı. Şükürlər olsun ki, 30 il intizarını çəkdiyimiz, işğal əsarətindən qurtulmuş torpaqlarımız indi əsl sahiblərinin nəfəsi və gəlişindən sevinir və dirçəlir.**



*Nəzakət*
*Məmmədli*

### *Qarabağa bahar gəlir, İlahi*

**Sevincə bax bulaqların gözündə**
**Qəlbi gülür dərənin də düzün də**
**Şəhid qanı çiçəkləyir üzündə**
**Qarabağa bahar gəlir , İlahi**

**Ötən çağlar indi üzü bəridi**
**Gələn günlər ömrün təzə-təridi**
**Otuz illik yurd həsrəti əridi**
**Qarabağa bahar gəlir , İlahi**

**Dalğalanır arzuların bayrağı**
**Hər təbəssüm bir ümidin yarpağı**
**Zəfər ətri bürüyübdür torpağı**
**Qarabağa bahar gəlir , İlahi**

**Qulac-qulac açılıbdır qucaqlar**
**Əl eleyir sevinc dolu o çağlar**
**Alov-alov gülümsəyir ocaqlar**
**Qarabağa bahar gəlir ,İlahi**

**Zəmilərdə daraqlanır sünbülün**
**Ocağında ruhu gülür Bülbülün**
**Cıdır düzü indi xarıbülbülün**
**Qarabağa bahar gəlir , İlahi**

**Ürəklərdə ümid naxış toxuyur**
**Əllər zəfər nəğməsini oxuyur**
**İndi vətən Şuşa ətri qoxuyur**
**Qarabağa bahar gəlir , İlahi**

**Gəlsin bahar, gülsün bahar elimde**
**Xudayarın nəğməsi var çölümdə**
**Nəzakətəm, min alqış var dilimdə**
**Qarabağa bahar gəlir , İlahi**

### *ANA HAQQI*

**Allah, dərgahına açılıb əlim,**
**Hər duam məktubdur sənin adına**
**Yaratmaq haqqını ərməğan etdin,**
**Məhəbbət qoxulu hər bir qadına.**

**Xəyala sığmayan ilahi eşqin,**
**Külli-kainata aynadır, Allah.**
**Analar bir az da sənə bənzəyir,**
**Bəlkə də bir adın anadır, Allah.**

**Sevgi bağçasıdır ana ürəyi,**
**Hər övlad nəfəsi çiçək ətridir.**
**Mələklər yanında mötəbər məqam,**
**Ana hörmətidir, ana xətridir.**

**Tanrı təbəssümü çiçəkləyibdir,**
**Hər gözəl ananın nurlu üzündə.**
**Ayağı altına cənnət döşənib,**
**Allahın ətri var "ana" sözündə.**

**Çiçəl ətirlidir, gül qoxuludur**
**Hökmünlə dünyaya gələn balalar.**
**Bəzən könlümüzə kədər ələyir,**
**Sevgi bağçasında gülən balalar.**

**Allahım, nur dolu "ana" adını,**
**Könül dəftərinə nəqş eləmisən.**
**Analıq haqqını, sevgi payı tək,**
**Nə yaxşı, ömrümə bəxş eləmisən.**

### *XƏZƏRİN PAYIZI*

**Qəlbimdə çağlayan duyğular kimi,**
**Bu payız günündə çırpınır Xəzər.**
**Ruhumdan ələnən söz qoxusunu,**
**Allah, bu dənizin sularına sər.**

**Sahilə can atan coşğun dalğalar,**
**Vüsala tələsən könlüm kimidir.**
**Tufanlar içində boğulan qayıq,**
**Uzaqdan əl edən ölüm kimidir.**

**Sənli xatirələr üşüyür burda,**
**Yenə ürəyimi həsrət dağlayır,**
**Fənizin üzünə qəriblik hopub.**
**Dalğalar hönkürür, sular ağlayır.**

**Payız saçlarını sərib dənizə.**
**Ayrılıq havası qoxuyur sular.**
**Yuvatək boşalan sahillər üçün,**
**Tənhalıq nəğməsi oxuyur sular.**

### *VƏTƏNDİ BU*

**Torpaq deyil, Vətəndi bu,**
**Çınqıllı, daşı doğmadı.**
**Atamdan, babamdan qalıb,**
**Alın qırışı doğmadı.**

**Səssiz haraylar görünür,**
**Uca saraylar görünür.**
**Çox illər, aylar görünür,**
**Gözünün yaşı doğmadı.**

**Bir bax bu kasıb damına,**
**Həsrətdir bəxtin tamına.**
**Ögey baxma adamına,**
**Bu nadan, naşı doğmadı.**

**Könlünə Qarabağ düşüb,**
**Baxmaqdan gözə ağ düşüb.**
**Ümiddən yüz yarpaq düşüb,**
**Payızı, qışı da doğmadı.**

**Yaddaşına bir ox dəyib,**
**Qeyrətinə bir "yox" dəyib.**
**əlhəd daşına çox dəyib,**
**qan axan başı doğmadı.**

# ŞAİR QOCALMIR...



VAQİF YUSİFLİ

**Azərbaycanın ünlü bir şairi-bu mart ayında 85 yaşı tamam olan, fiziki mənada qocalsa da, şair kimi qocalmayan Əşrəf Veysəllidən söz açmaq istəyirəm.. Dünyaya göz açıb Füzuli rayonunun Yuxarı Veysəlli kəndində... İyirmi yaşına qədər Veysəllinin ab-havasını udub, ordu sıralarında xidmətini başa vurandan sonra ADU-nun şərqşünaslıq fakültəsinin fars filologiyası şöbəsini bitirib. Sonra isə Sumqayıta köçüb və əlli altı ildir ki, o şəhərdə yaşayır, mədəniyyət sahəsi ilə bağlı müxtəlif vəzifələrdə çalıfşıb. Amma heç vaxt Veysəllini unutmayıb. Bir şeirində yazıb ki:**

*De necə tablaşım, necə dözüm mən,*
*Anamdan əmdiyim gəldi gözümdən.*
*Tanışdan-bilişdən, hətta özümdən*
*Küsüb yaşayıram, sənsiz a kəndim.*
*Qəlbim yox, qəbrim yox, qibləgahım yox,*
*Kasıb yaşayıram sənsiz, a kəndim.*

Amma 92-ci ilə qədər Əşrəf müəllim Veysəlliyə gedirdi, kəndlə bağlı sənsizliyini ovudub qayıdırdı Sumqayıta. Məlum səbəblərə görə iyirmi səkkiz illik ayrılıq gəldi. Ülrəyi, ruhu Veysəllidə, Qarabağda dolaşan, doğia yurd yerlərini yalnız xəyallarda xatırladan Əşrəf Veysəlli bu həsrəti şeirlərində də yaşatdı:

***Həsrət dəniz, xəyal yelkən***
***Üzür Qarabağa tərəf.***
***Yurd-yuvasız tərlan könlüm,***
***Süzür Qarabağa tərəf.***

***Dözdükcə səbrim daralır,***
***Üstümü boran-qar alır.***
***Gözümün kökü saralır,***
***Gözü Qarabağa tərəf.***

***Qara yellər qalxan kimi,***
***Qara günlər sıxan kimi,***
***Əydi günəbaxan kimi***
***Bizi Qarabağa tərəf .***

44 günlük zəfər müharibəsindən sonra Əşrəf Veysəllinin də həsrəti sona çatdı, amma o, bu illər ərzində yazdığı şeirlərində təkcə Qarabağ həsrətini deyil, həm də qələbəyə inam dolu şeirlər də qələmə aldı. ("Əsgər atası"silsiləsi"). Bu yaxınlarda Kulis.az saytında Əşrəf Veysəlli ilə bir müsahibəni oxudum. Onun bəzi sorğulara cavabı beləydi:

"Ömrüm boyu Vətən torpaqlarına vurğun adamam. 30 ildir öz kəndimizi görmürəm. Ümumiyyətlə, Qarabağı görmürük. Təsəvvür edin, birdən-birə bu xəbəri eşidəndə bir Allah bilir nə hisslər keçirmişəm...Heç oralar yadımdan çıxır ki?! Gözü yumulu aparıb tullayalar hər yeri gəzərəm.Uşaqlığım, gəncliyim orda keçib. Sual verirsiniz ki, Füzuliyə qayıdış planınız varmı? Köçmək fikriniz var? Nə danışırsınız, köçmək nədi, uçmaq istəyirəm...İndi evimiz yoxdu oralarda. Amma əlbəttə ki, gedəcəm. Lap bir kolun dibində yaşayaram. İlk gedən günü qəbristanlığa üz tutacam..Torpağından öpəcəm vətənimin. Öpüb gözümə səpəcəm torpağını"

***Əşrəf Veysəlli ilə bağlı bu qısa bilgidən sonra istəyirəm onun yenicə çapdan çıxan "Səni kimə tapşırım" şeirlər kitabı haqqında söz açım.Amma bunu bir rəy ya resenziya kimi qəbul etməyin. Məqsədim budur ki, Əşrəf Veysəllinin bir şair kimi müasir poeziyamızda özünəməxsus yerini, məkanını nişan verim.Əslində, buna ehtiyac varmı? Çünki Əşrəf Veysəllinin yaradıcılığı haqqında xeyli məqalə, resenziya yazılıb və o yazılarda onun necə şair olduğunu təsdtiq edən fikirlər də var.. Amma bu fikirlərin əksəriyyəti təhlil yox, tərif səmtinə yönəlib.***

Əşrəf Veysəlli ilk növbədə, məxsusi ifadə tərzinə, poetik ləfzə malik olan şairdir. O, bütün duyğularını heca şeiriə kökləyib. Hecanın bütün şəkillərində-qoşmadan, gəraylıdan bir addım da kənara atmayıb.

Amma bunun məsələyə dəxli yoxdur- Nazim Hikmət demişkən, istər sərbəstdə, ister hecada, istərsə də əruzda yat, təki ortada ŞEİR olsun. Əşrəf Veysəli öz istedadı və poetik imkanları ilə bir çevrədə də özünəməxsusluğunu isbata yetirir.

***Səni kimə tapşırım,***
***Harda bəsləyim səni?!***
***Sarı simə tapşırım,***
***Tarda bəsləyim səni.***

***Gəzdirim pərdə-pərdə,***
***Dinləsin göy də, yer də,***
***Çahargahda, şüştərdə,***
***Şurda bəsləyim səni.***

***Bu saf, təmiz eşqimiz***
***Ay kimi, günəş kimi.***
***Qon gözümə yaş kimi,***
***Nurda bəsləyim səni.***

***Ürəyim dar qəfəsdə,***
***Can üstə, son nəfəsdə...***
***Bir salamat yer göstər,***
***Orda bəsləyim səni.***

Bu şeiri 83 yaşlı bir şairin sevdiyi bir insana sonsuz sədaqəti kimi anlayaq.

Klassik poeziyadan gəlir bu ənənə, aşiqlərin fədakarlığını, sevən insanın öz sevgilisinə belə müraciətini təsdiq edən onlarla misallar gətirə bilərik. Ümumiyyətlə, Ə.Veysəllini bir şair kimi poetik ənənələrə bağlayan təkcə heca şeirinə sədaqət, məlum mövzulara yeni rəng qatmaq, sözə, ifadəyə maksimum dərəcədə dirilik bəxş etmək olubmu? Əlbəttə, bu fikri təsdiq etmək olar, amma Ə.Veysəlli bu günün şairidir və onun şeirlərində də XXI əsrin bir azərbaycanlı şairinin fikir və duyğularını izləyirik. Və bu şairin istəyi nədir?

V.Q. Belinski 1845-ci ildə "Meteor" şeirlər kitabı haqqında yazdığı resenziyada deyirdi ki: "Hansı poeziyanın ki, kökləri müasir həyatda deyil, hansı poeziya ki, həyata işıq saçmır, onu izah etmir,-bekarçılıq əlamətidir". Əşrəf Veysəllinin poeziyasının kökləri və mahiyyəti yaşadığı həyatdan, cəmiyyətdə və dünyada baş verən hadisələrdən gəlir.

O, Azərbaycanda baş verən ictimai-siyasi hadisələrə, xüsusilə doğulduğu Qarabağın işğalına və artıq bu işğala müzəffər ordumuzun qələbə zəfəri ilə son qoyulmasına necə biganə qala bilərdi? Onun "Ürəyim Allah evidir" (2008), "Qarşıma siz çıxın" (2015) şeirlər kitablarında ən çox işlənən bir söz var-QARABAĞ.

***Gözəl Qarabağın acı həsrəti,***
***Ömrümü talayır, könlümü didir.***
***Orda uşaqlığım əsirlikdədir,***
***Burda qocalığım xəcalət çəkir.***

Amma indi xəcalət dövrü bitdi. Başlanır möhtəşəm qələbəmizi poeziyada da qələbəyə çevirmək.

***Vətən, təbrik edirəm, təbrik edirəm səni,***
***Qəlbindəki duyğunun, hissin qələbəsidir.***
***Susmuş bulaqlarında hərarətin, hənirin,***
***Sönmüş ocaqlarında közün qələbəsidir.***

***Biz vətənə can demir, ganı qurban deyirik,***
***Yüzillik düşmənini 44 günə əyirik!***
***Bu şanlı qələbəmiz şər üstündə xeyirin,***
***Sərt qışın üzərində yazın qələbəsidir.***

Əşrəf Veysəlli həyat şairidir və bu həyata bağlılığını daha doğrusu, həyatsevərliyini fərdi düşüncəsində, ürək meridianlarında da ifadə edir. Təbii ki, hər yaşın öz yaşantıları var, bir də görürsən, şair həyatda baş verən şər əməllərdən gileylənir, onun kökünün kəsilmədiyinə heyfislənir, bir də görürsən "bu həyat bir nağıldır və... Dərd də istər-istəməz onun şeirlərində boy atır, tez də çıxıb getmir:

***Təbdən-təbə düşə-düşə,***
***Ağlamaqdır indi peşəm.***
***Dərddən sərgi düzəltmişəm-***
***Muzeydi mənim ürəyim.***

Amma dərdi də sevən çağları olur: "Korona"dan ölməyəsən, öləndə dərddən öləsən" deyir.

83 yaşlı şairimiz ömrünün sevgi çağlarını xatırlayır, Əslində, əsl sevənlərin bütün ömrü boyu bir sevgisi olur. Bəlkə cavan yaşında, bəlkə ahıl yaşında. Əşrəf Veysəllinin 2020-ci ildə yazdığı bu sevgi şeirinə üz tutaq, görəcəyik ki, insan qocalır, yaşa dolur, apmma nə ürək qocalıro, nə də sevgi:

***Eşqim bir qaranlıq quyuda sənsiz,***
***Bir ip sallayarsan vaxtın olanda.***
***Bəlkə bu tükənmiş, bitmiş ömrümə***
***Ömür calayasan vaxtın olanda.***

***Gözüm gözlərindən aman gözləyər,***
***Ötsə də gözümü duman, gözləyər.***
***Səni hər dəqiqə, hər an gözləyər,***
***Mesaj yollayarsan vaxtın olanda.***

***Yol olsam dalarsan yollun seyrinə,***
***Kol olsam almazsan gül əllərinə.***
***Gol olsam, enərsən sahillərimə,***
***Bir daş tullayarsan vaxtın olanda.***

Mən bu yazıda Əşrəf Veysəllinin şeirlərindəki bədii sənətkarlıq incəliklərindən, uğurlu təşbih və metaforalarından, onun şeirlərində fikirlə hissin vəhdətindən söz açmadım. "Görünən kəndə nə bələdçilik"-deyirəm. Onu ürəkdən təbrik edirəm ki, dapha Veysəlli dərdi, Qarabağ dərdi yoxdu.

Əşrəf Veysəllinin yüzlərlə oxucusu, özü də onu sevən, duyan oxucusu var. Kim tanımır onu?2018-ci ildə yazdığı bir şeiri ilə sözümü bitirirəm:

***Desələr sabahdan döyüş başlayır,***
***Vətəndən vətənə yürüş başlayır.***
***Yelin yalmanına yatıbö gedər o,***
***Hər şeyi yarımçıq atıb gedər o.***

***Başında buludlar, gözündə şimşək,***
***Məşhur bir əsərin qəhrəmanıtək,***
***Köksündən çıxardıb öz ürəyini***
***Əlində məşəltək tutub gedər o,***
***Əşrəf Veysəllini kim tanımır ki?***

## Azərbaycan bayrağını qaliblər cərgəsində ucaldanlar: Kempo-karateçi Rüstəm Müslümov

**Hamı onu 2018-ci ildə daha yaxından tanıdı və fəxr elədi. Çünki başqa ölkələrdə Azərbaycan bayrağını qaliblər cərgəsində ucaldan imzalar içində onun da adı olub və var.**

Söhbət Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşı Rüstəm İlham oğlu Müslümovdan gedir. O, əvvəl -2018-ci ilin mart ayının 13-də keçirilən Şərq Döyüş Növləri Federasiyaları Şurasının, Gənclər və İdman Nazirliyinin razılığı və təşkilatcılıqı ilə "Kempo" döyüş növü üzrə 8 - ci ənənəvi Azərbaycan çempionatında 80 kiloqram çəki dərəcəsində yarışa qatılmış və bütün görüşləri qələbə ilə başa vuraraq iki qat Azərbaycan çempionu olmuşdu.



Könül verdiyi işə nizam -intizamı, özünə qarşı tələbkarlığı , birdə idmana başlayan gündən qazandığı qələbələrə olan məsuliyyəti onu qələbədən- qələbəyə, uğurdan uğura apardı.

Rüstəm Müslümov elə həmin ilin aprel ayının 15-də respublikamızda baş tutan beynəlxalq grappling team turnirinin də qalibi oldu və Macarıstanın Budapeşt şəhərində "Kempo" əlbəyaxa döyüş növləri üzrə 15-ci Dünya cempionatına vəsiqə qazandı. Aprel ayının 28-də dünyanın 67- dən artıq ölkəsinin idmançılarının qatıldığı bu yarışda ölkəmizi layiqincə təmsil edən Rüstəm Müslümov Dünya ikincisi olmaqla gümüş medal qazandı. Bununla da Rüstəm Müslümov üç qat dünya mükafatçısı oldu . Yaxından tanıyaq: Rüstəm Müslümov 1990-cı il avqustun 16 -da Bakı şəhərində anadan olub. 1995-2007-ci illərdə Milli Qəhraman Nazim Rəfiyevin adını daşıyan 104 nömrəli orta məktəbdə təhsil alıb. Təfəkkür Universitetini bitirib. Uşaqlıqdan idmana maraq göstərən Rüstəm Müslümov 1996 -cı ildən karate döyüş növü ilə məşğul olub sonra isə 1997 - ci ildən cüdo - sambo idmanı ilə məşğul olmağa başlayıb. 2013 -ci ildən isə kempo-karate döyüş növü ilə məşğul olur. kempo-karate döyüş növü üzrə dəfələrlə respublika çempionatının və beynəlxalq turnirlərin qalibi olub. Azərbaycanın tanınmış kempo-karate döyüş növü üzrə üçqat dünya mükafatçısı Rüstəm Müslümov 2018-ci ilin sentyabrında "İdman Ustası" adına layiq görüldü. "İdman Ustası" adı ilə qürur duyan idmançımız: "Bu ad mənim məsuliyyətimi daha da artırdı. Bundan sonra da əzmlə məşqlərimi davam edirib, uğurlarımın ardını gətirərək, hər zaman Azərbaycan bayrağını yüksəklərə qaldırıb, himnini səsləndirməyə çalışacağam"- deyə vurğuladı vəhər zaman qalib olmaq üçün məşqlərə daha ciddi -cəhdlə başladı. Axı peşəkar idmançımız dəfələrlə vurğulamışdı ki, məşqçilər bütün idman növlərində həm diqqəti, həm hissiyatı, həm də texnikanı, dözümlülüyü öyrətmək lazımdır. Bu zaman istedad da yaranmağa başlayır. Belə olduğu halda, nailliyyətlər bir-birinin ardınca gəlir". Rüstəm müəllim haqlıydı. O dediyi sözə sadiq qaldı və yenidən qazandı. Tailand döyüş növlərinin toplusu olan Muaytayın (tayboksinq) Azərbaycanda inkişaf etdirilməsi, bu idman növü üzrə ölkəmizin Beynəlxalq həvəskar və peşəkar qurumlarda təmsil edilməsi məqsədi ilə 2019-cu ildə idman yarışları keçirildi. Abşeron Olimpiya MərkəzindəMuay-Tay Tayboks idmannövü üzrəRespublika turnirində 300-ə yaxın, Muay-Tay Tayboksçu iştirak etdi, müxtəlif çəki kateqoriyasında keçirilən bu yarışmanın qaliblərinə diplom və medallar təqdim olunub. Həmin cempionatda əzmkar, cəsur döyüşçü Rüstəm Müslümov 81kq çəkikateqoriyasındabirinci yeri tutaraq, qizil medala layiq görülüb.

2018-ci ildə Avropa çempioanatına yollandım. Rumuniyada Portuqaliya və Rumuniya idmançıları üzərində inamlı qələbələrim oldu. Finalda isə yerli idmançıya məğlub olub 2-ci pilləni tutdum".

**Söhbətimiz əsnasında R. Müslümov qürurla bildirdi ki, iştirak etdiyim yarışlarda beynəlxalq, olimpiya və digər yarışmalarda Azərbaycan bayrağının zirvəyə qalxması mənə xoşbəxtlik hissi verir:" O hissləri sözlə ifadə etmək mümkün deyil. İnsan özünü dünyaya yenidən gəlmiş kimi hiss edir. Bu baxımdan bayrağımızı zirvəyə qaldırmaq mənim üçün qürurvericidi". Qarşıda yeni yarışmalar, yeni mübarizə meydanları var . Arzu edirik ki, bayrağımız bu yarışlarda cəsur və peşəkar həmyerlimiz Rüstəm Müslümovun və digər idmançılarımızın sayəsində hər zaman yüksəklərdə dalğalansın!**

**Əntiqə Rəşid**

# "Oğul" - Natiq Qasımov



Ramiz Göylər

**Bu günlərdə xalqımız və bütün tərəqqipərvər bəşəriyyət "Xocalı Soyqırımi"nın 30 illiyini böyük kədər hissi ilə qeyd etdi. Fevralın 28-də faciənin ildönümü ilə əlaqədar, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Böyük Britaniyanın "Broken Bot Media"studiyasının və Nizami Kino Mərkəzinin birgə təşkilatçılığı ilə "Broken Bot Media" Ltd studiyasının istehsal etdiyi "Oğul" filminin təqdimat mərasimi keçirildi. Tədbirə uzun illər yaxın ünsiyyətdə olduğum və özümə doğma bildiyim, filmin qəhrəmanı Natiq Qasımovun qardaşı Nöfəlin vasitəsilə mən də dəvət almışdım. Ssenari müəllifi və rejissoru Karan Singh olan filmin əsas süjet xətti 1992-ci ildə Qarabağ müharibəsi zamanı məcburi olaraq ermənilərə əsir düşmüş bir OĞULUN- Natiq Qasımovun qəhrəmanlığından, onun ailəsinin ağrı və əzablarından, böyük kədərindən, həqiqət axtarışlarından bəhs edir.**

### Təqdimatdan öncə

jurnalistlərin və tamaşaçıların suallarını cavablandıran filmin rejissoru və ssenari müəllifi Karan Sinqh bildirdi ki, film İtaliyalı hərbi fotoreportyor Enriko Sarsininin 1992-ci ildə Qarabağda çəkilmiş fotoları əsasında ekranlaşdırılıb: "Mən Enriko ilə ilk dəfə görüşəndə onun Vyetnamla bağlı şəkilləri haqqında danışmaq istəyirdim. Amma daha sonra o, mənə Qarabağda baş verənlər haqqında danışdı. Ondan sonra başa düşdüm ki, bu hekayə bütün dünyaya tanıdılmalıdır. Bu bəşəri bir hekayədir."

***Karan Singh qeyd etdi ki, Azərbaycan, Ermənistan, İtaliya, Böyük Britaniya və Rusiyada çəkilişləri aparılan və üç ilə ərsəyə gələn film ABŞ-da iki festivalda iştirak edib. Görüntü rejissoru Simon Stanford olan 46 dəqiqəlik filmdə, filmin canlı və təsirli alınması üçün azərbaycanlı aktyorlardan, filmdə bəhs edilən hadisələrin iştirakçılarından alınan müsahibələrdən istifadə edilmişdir ki, bu da filmin daha təsirli və canlı , maraqlı alnmasına səbəb olmuşdur.***

Qısa arayış: Qasımov Natiq Səlim oğlu 1971-ci il yanvarın 2-də Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. 1975-ci ildən ailəsi ilə birlikdə Mingəçevirə köçüblər. Natiq burada səkkizillik məktəbi bitirdikdən sonra Mingəçevirdəki texniki peşə məktəbində qaynaqçı peşəsinə yiyələnmişdir. 1991-ci ildə Rusiyanın Krasnoyarsk vilayətində, Sovet Ordusu sıralarında xidmətini başa vuraraq Vətəni Azərbaycana qayıtmış və həmin ildə könüllü olaraq Qarabağ müharibəsinə yollanmışdır. Ağdamda "Qarabağ şahinləri" könüllü dəstəsində ermənilərə qarşı döyüşmüş, 1992-ci ilin əvvəllərində evlərinə qayıtmışdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş müdhiş Xocalı faciəsi Natiqin sonrakı qəhrəmanlıq və acı taleyinin başlanğıcı olur. Döyüş bölgəsindən yenicə qayıtmış Natiq Xocalı soyqırımından sonra özünə yer tapa bilmir və yenidən döyüşə yollanır. Natiqin qəhrəmanlığının təfərrüatı belədir:

1992-ci ilin mart ayının əvvəllərində "Qarabağ şahinləri" batalyonunun Natiqin də daxil olduğu 31 nəfərlik dəstəsi Ağdamın Xramort kəndi yaxınlığında stratej bir yüksəkliyi ələ keçirmək əmrini alır. Tapşırıq yerinə yetirilir, döyüşdə komandir və bir neçə nəfər həlak olur. Sağ qalan döyüşçülərin bir hissəsi batalyonun yerləşdiyi qərargaha qayıdır. Kilsədə Natiq və onunla bərabər 6 nəfər qalır. Ermənilər aramsız hücumlarla yüksəkliyi geri qaytarmağa cəhd edirlər. Onların yüksəkliyi ələ keçirmək üçün bütün cəhdləri uğursuzluqla nəticələnir. Hər dəfə itki verən düşmən geri çəkilmək məcburiyyətində qalır. Bütün yoldaşları həlak olan Natiq son dərəcə əlverişli strateji mövqedə yerləşən alban məbədində təkbaşına mübarizəni davam etdirir. Kilsədə böyük bir döyüşçü bölüyünün olduğunu zənn edən ermənilər əsir və girov götürdükləri Xocalı sakinlərindən istifadə etmək qərarına gəlirlər. Əsir düşmüş xocalılardan birini çağırıb ona bildirirlər ki, kilsədəkilər təslim olmasalar, bütün əsirləri güllələyəcəklər. (II Dünya müharbəsinə həsr olunmuş "Uzaq Sahillərdə" filminin finalında əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin son ölüm səhnəsini yada salın.) 22 nəfər Xocalı sakinini xilas etmək xatirinə Natiq əsir düşməyə razılaşır və silahını atır və Azərbaycan bayrağı ilə döyüşdüyü kilsədən çıxıraq ermənilərə təslim olur...

Filmdə cərəyan edən hadisələrdən danışmazdan əvvəl oxuculara Natiq Qasımovun qəhrəmanlığı barədə bir məlumat da vermək istədim. Keçmiş SSRİ-nin ən məşhur mətbu orqanlarından olan "Oqonyok" jurmalının 1992-ci il tarixli 14-15-ci nömrəsində jurnalist Konstantin Smirnovun "Qorxu"("Strax") adlı məqaləsi və italiyalı fotomüxbir Enriko Sarzininin bir fotosu dərc olunmuşdu. fotoşəkildə Azərbaycanın üçrəngli bayrağını əlində tutmuş Natiq Qasımovun saqqalı ermənilərin arasında hərəkətdə olduğu bir məqam öz əksini tapmışdı. Dərc olunan şəkildə Natiqin simasında olan qorxu qarışıq məğrur görkəmini hiss etmək elə də çətin deyil.

***K.Smirnovun bu yazısı jurnalda dərc olunanda Natiqin qəhrəmanlığından hadisənin şahidlərindən başqa heç kəsin məlumatı yox idi. 1992-ci ildən bəri keçən müddət ərzində Natiq Qasımovun qəhrəmanlığı haqqında cox, məqalələr, şeirlər, poemalar yazıldı. Düşünürəm ki, Natiq Qasımovun bu misilsiz şücaəti haqqında ən dəyərli əsərlər innən belə yaranacaqdır. Hələliksə onun qəhrəmanlığını əks etdirən ən bitkin əsər, Natiqin qəhrəmanlığının ekran təcəssümünü tapmış "Oğul" filmidir.***

Filmə tamaşa etdikdən sonra öz düşüncələrimi oxucularla bölüşmək istədim. Əvvəla onu deyim ki, filmin Xocalı faciəsinin 30 illiyi ərəfəində işıq üzü görməsi mühüm bir hadisədir və bu faciənin dünyada tanıdılmasında mühüm rol oynayacaqdır. Filmin orjinaldan ingilis dilində çəkilməsi və Azərbaycan dilinə tərcüməsi onun əhəmiyyət və önəmini daha da artırmış olur.

Ekran əsəri elə başlanğıcdan tamaşaçını özünə cəlb edir. Film Azərbaycanın ən gözəl və müasir şəhəri olan Mingəçevirin görüntüləri ilə başlayır. İnsanlar, yenicə müstəqilliyini bərpa etmiş ölkənin vətəndaşları öz adi həyatlarını yaşaylrlar. Və budur Qarabağda məkrli düşmən öz havadarlarının dəstəyi ilə bəşər tarixində misli görünməmiş Xocalı faciəsini törədirlər.

***Xocalı faciəsi erməni xislətinin kuliminasiya nöqtəsi, erməni faşizminin əyani sübutu idi və ekran əsərinin müəlifləri bu vəhşiliyi tamaşaçıya təqdim etməyi uğurla bacarıblar. Mənim qənaətimcə filmdə məqsəd ermənilərin bir xalq kimi iç üzünün açılmasından, Xocalı soyqrımının dəhşətlərinin tamaşaçıya çatdırılmasından, filmin qəhrəmanı Natiq Qasımovun misilsiz şücaətinin, mərdliyinin, qorxmazlığının və humanizminin canlı şahidlər, sənədli materiallar və müsahibələr vasitəsilə təqdim edilməsindən ibarət olmuş və müəlliflər məqsədlərinə nail olmuşlar. Filmdə həmçinin qaniçən cinayətkar, Qarabağdakı azərbaycanlıların kütləvi qırğınına səbəb olmuş və indi də azərbaycanlıların və türklərin qanına susayan general Vitali Balasanyanın iblis sifətinin bütün mahiyyəti ekranda öz həllini tapmışdır. Dünya, xüsusilə erməni təbliğatı ilə zəhərlənmiş ölkələrin vətəndaşları, xristian təəssübkeşliyi, emənipərəst kütləvi informasya vasitələrinin təsiri altına düşmüş yüzminlərlə insana hələ də nə Qarabağ müharibəsi nə də Xocalı soyqrımı barədə həqiqətləri qəbul etmir. Erməni xislətinin və onların törətdikləri faciənin dünyaya təqdim edilməsi baxımından filmin mühüm əhəmiyyəti var desəm, güman edirəm səhv etmərəm.***

### Filmin əsas süjet xəttinin

isə Natiq Qasımovun misilsiz qəhrəmanlığının həm sənədli materialllar, həm aktyor ifası, həm də şahid ifadələri ilə yüksək peşəkarlıqla tamaşaçıya təqdim edilməsi təşkil edir.Təsəvvür edin 5 gün ərzində ac- susuz, az bir sursatla təkbaşına böyük bir dəstə ilə vuruşaraq ermənilərə xeyli itki verən, onların komandirini cəhənnəmə vasil edən Natiq sonrakı aqibətininn necə sonuclanacağını dərk edərək, əsirlikdə olan 22 Xocalı sakinini xilas etmək xatirinə özünü qurban verir. Natiq hətta bu son dərəcə ağır və psixoloj cəhətdən gərgin bir durumda qarı düşmənin qarşısına Azəraycan bayrağı ilə çıxır. O məqamda Natiqin hansı hiss və həyacan keçirdiyin bilmək üçün bir anlıq özünü bu qeyri-adi cəsarət və hünər sahibinin yerinədə hiss etmək kifayət etmiş olardı.

***Və nəhayət Natiq Qasımovun dindirilməsi səhnəsi və onun sonrakı taleyi. Filmin kuliminasiyası məhz bu kadrlarla tamamlanır. Filmdə Natiq Qasımovun qəhrəmanlığından vəcdə gəlmiş, onun dindirilmə prosesinin iştirakçısı olan italyan fotoreportyoru Enriko Sarsini nəql edir ki, "mən prosesləri müşahidə etdiyim üçün mənim yanımda onunla kobud rəftar etmirdilər".Və E. Sarsinyo Natiqin dindirilmə səhnəsini də fotoaparatın yaddaşına köçürüb və əslində həmin kadr da bu filmin yaranmasına səbəb olmuşdur.***

Natiq Qasımovun dindirilməsində iştirak edən ermənilərin axtarışına çıxan film müəllifləri ilk öncə Qarabağ müharibəsinin ilk günlərindən bu münaqişənin ideoloqlarından və ən fəal üzvlərindən, Xocalı soyqırımının təşkilatçılarından və icraçılarından biri olan, əli yüzlərlə azərbaycanlının qanına batmış Vitali Balasanyandan müsahibə götürməli olurlar. Oxuculara məlumat verim ki, Vitali Balasanyan 1959-cu ildə Əsgəranda anadan olmuşdur. Demək olar ki, əksəriyyət ermənilər kimi Azərbaycanın çörəyi ilə böyüyən bu nankor da Azərbaycan dilində çox mükəmməl bilir və hətta onu Azərbaycan dilində danışanda erməni olduğunu bilmək mümkün olmadığı deyilir. Vitali Balasanyan 1988-ci ildə Əsgəranda erməni özünümüdafiə dəstələrindən birinə rəhbərlik etmişdir. 1990-cı ildə Əsgəran rayonunun özünümüdafiə qüvvələrinin komandiri seçilmişdir. 1996-1998-ci illərdə diviziya komandiri, 1998-1999-cu illərdə tanınmayan DQR Müdafiə Ordusu komandirinin müavini, 1999-cu ilin sentyabrından 2005-ci ilə qədər isə qondarma DQR-nin müdafiə nazirinin müavini olmuşdur. 2000-2005-ci illərdə "Arsax Müharibəsi Veteranları Birliyi" ictimai təşkilatına rəhbərlik etmişdir. 2000-ci ildə general-mayor rütbəsi almışdır. Əsgəran rayonundan kənarda da bir sıra hərbi əməliyyatlarda -Ağdam döyüşü, Horadiz əməliyyatı, 2016-cı ildəki dördgünlük aprel döyüşlərində iştirak etmişdir. 2002-ci ildə "Arsax Qəhrəmanı" adı verilmişdir. Hazırda qeyri-qanuni qurum olan "Arsax Respublikası" təhlükəsilik şurasının katibi kimi qeyri-qanuni qurmun vəzifəsini daşıyır.

Vitali Balasanyanla Xankəndində görüşən filmin müəllifi əvvəlcə ondan Xocalı faciəsi barədə soruşur. Cəllad Balasanyan cavabında faciə barədə onun məlumatı olduğunu, lakin bu qırğının ermənilər tərəfindən törədilməydiyi cavabını verir.

***Sonra müəllif Natiq Qasımovun dindirilməsi peosesində çəkilmiş fotoşəkildə Balasanyanın da iştirak etdiyini bildiyi üçün, əvvəlcə Natiq Qasımov olayı barədə, sonra isə dindirmə prosesində şəkli olan şəxslərin kimliyi, onları tanıyıb-tanımaması barədə iki dəfə soruşur və hər iki cavabında da bu qaniçən öz şəkli əks olunan şəxsi tanımadığı barədə cavab verir. Lakin K.Singh bununla kifayətlənmir və Vitali Balasanyanın şeytan sifətini açmaq və bu simasızı tamaşaçıya təqdim etmək üçün prosesdə iştirak etmiş digər iki erməninin izi ilə İrəvana və Rusiyanın Saratov şəhərinə yola düşür. Proses şahidlərinin hər ikisi həmin şəxsin-yəni dindirmədə aparıcı olan çəxsin Vitali Balasanyan olduğunu bildirirlər. Beləliklə, filmin müəllifləri Vitali Balasanyanın əsl simasını aça və onu tamaşaçıya təqdim edə biliblər.***

### Filmdə ən ağrılı məqamlardan biri

Natiq Qasımovun son taleyi ilə bağlıdır. Təbii ki, ermənilər bir həftə ərzində Xromort kilsəsində onlara dağ çəkmiş, elə təslim olduğu məqamda da Azərbaycan bayrağı ilə onların qarşısına çıxaraq bu bayrağı onların gözünə soxmuş Natiqin taleyi barədə müsbət nəsə düşünmək sadəlövhlük olardı.

Qeyd etməyi zəruri hesab edirəm ki, Natiq Qasımovun sonrakı taleyi barədə internet mənbəələrində belə bir qeyd vardır: "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, ermənilər tərəfindən əsir və girov götürülmə faktı danılan şəxslərin siyahısında Natiq Qasımovun da adı vardır.

Dövlət Komissiyasının dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, erməni tərəfi indiyədək Natiqin sonrakı taleyini Azərbaycandan və beynəlxalq təşkilatlardan gizlətməkdədir."

***Film Natiq Qasımovun əsir düşdükdən sonrakı həyatı barədə onun qardaşı, 1992-ci ildən bəri ömrünün və vaxtının əsas hissəsini Natiq haqqında həqiqətlərin axtarışına həsr edən qardaşı Nöfəl Qasımovun sözləri ilə yekunlaşır: "Natiqin son taleyinin necə olmasından asılı olmayaraq O, mənim üçün yaşayır".***

Film başa çatdıqdan sonra mən Nofələ yaxınlaşaraq elə mənim üçün də, hamımız üçün də Natiqin daim yaşayacağını bildirməkdən savayı başqa söz tapa bilmədim.

***P.S. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımız Cənab İlham Əliyev başda olmaqla Azərbaycan Əsgəri xocalıların da, Birinci Qarabağ savaşında canını qurban vermiş şəhidlərimizin də, o cümlədən Natiqin də qisasını aldı. Bu müharibədə Ali Baş Komandanımız tərəfindən şücaət göstərmiş hər bir vətən oğlunun dəyəri verildi. Və düşünürəm ki, cəsurluğu, mərdliyi, misilsiz şücaəti ilə vətənpərvərlik nümunəsi göstərmiş və gənc nəslə örnək olan Natiqin də bu qəhrəmanlığının dəyəri veriləcəkdir.***

# Şahmat haqqında bilmədiklərimiz

**Adalet.az ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "İncəsənət və fiziki tərbiyə" fənn birləşməsi kafedrasının fiziki tərbiyə müəllimi Nigar Telman qızı Qaragözovanın "Dahilər və şahmat" yazısını təqdim edir.**

İnsanlar tərəfindən icad olunan oyunların içərisində elə bir oyun var ki, həm idmana, həm elmə, həm də incəsənətə yaxındır. O, yaddaşı gücləndirir, diqqəti və səbri artırır, çətin vəziyyətlərdən çıxış yolu tapmaq və ani qərar qəbul etmək vərdişləri formalaşdırır. Yəqin ki, söhbətin şahmatdan getdiyi məlumdur. Şahmat - iki oyunçu arasında taxta lövhə üzərində keçirilən əyləncəli, heç bir gizli məlumatı özündə əks etdirməyən, rəqabətli strateji oyun növüdür. Şahmat dünyanın ən qədim oyunlarından biridir. Rəvayətə görə şahmat Hindistanda yaradılmış və daha sonra şahmat İrana, oradan ərəb ölkələrinə, oradan da Avropaya yayılmışdır. Şahmatın Avropaya yayılmasında isə açar ölkə İspaniya idi. Bizans İmperatorluğunun da şahmatın inkişafında rolu az olmadı.



İlk vaxtlar şahmatın adı satranc olmuşdur. Sonradan dəyişikliklərə uğramış və şahmat adını almışdır. İndiyə qədər də bəzi ölkələrdə şahmata satranc deyilir. Əvvəllər şahmat çox asta bir oyun idi. Ancaq 1400-cü illərin sonlarında iki uzaqmənzilli fiqurun (fil və vəzir) kəşf edilməsi oyunun sürətini artırdı. Şahmatla bağlı ilk kitabın müəllifi Luçena isə bu kitabda (1497-ci il) şahmatın yeni qaydalarını elan etdi. O vaxtdan indiyə qədər bu qaydalar olduğu kimi qalır. Şahmat iki tərəfin - ağ və qara fiqurlarla oynayan rəqiblərin mübarizəsidir. Hər tərəfin bir şah, bir vəzir, iki top, iki fil, iki at və səkkiz piyada olmaqla 16 fiquru olur. Şahmat lövhəsi 64 - 32 ağ və 32 qara xanadan ibarətdir. İspaniyadan sonra İtaliya, Fransa, Almaniya, Amerika Birləşmiş Ştatları və Rusiyada da şahmat çox sürətlə yayılmağa başladı. 19-cu əsrin sonlarında isə artıq şahmatın ilk ulduzları məlum idi: Anderssen, Morfi, Rubinşteyn və Steynits. 1850-ci illərdən başlayaraq, ilk peşəkar turnirlər keçirilməyə başlandı. Nəticədə, 1886-cı ildə o dövrün ən güclü iki şahmatçısı Steynits və Sukertort arasında ilk dünya çempionatı keçirildi. Steynits bu çempionatda 10 qələbə, 5 heç-heçə və 5 məğlubiyyətlə qalib gəldi. Şahmat üzrə ilk dünya çempionu Vilhelm Steyinitz olmuşdur. Sonradan dünya çempionları bu ardıcılıqla olmuşdur: Emanuel Lasker, Xose Raul Kapablanka, Aleksander Alyoxin, Maks Eyve, Mixail Botvinnik, Vasili Smıslov, Mixail Tal, Tiqran Petrosyan, Boris Spasski, Rober Fişer, Anatoli Karpov, Harri Kasparov, Vladimir Kramnik, Veselin Topalov. Sonuncu dünya çempionu hindistanlı Visvanathan Ananddır.Lakin qeyd etmək lazımdır ki,şahmat çempionlarının

tanınmasında problemlər var.Çünki 90-cı illərin ortalarında dünya şahmat tacının sahibi uğrunda iki - FİDE xətti və Harri Kasparovun təşkilatçılığı ilə yaranan təşkilatın xətti ilə yarışlar keçirilirdi.Bu isə eyni zamanda dünyada iki şahmat çempionunun olmasına gətirib çıxarmışdı.Lakin 2005-ci ildən etibarən şahmat çempionları yalnız FİDE xətti ilə müəyyən olunur.

**Azərbaycanda da şahmatın böyük inkişaf yolu var. Daha qədim zamanlarda Azərbaycanda böyük şahmatçılar olmuşdur.**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 68
Çapa imzalanmışdır: 18.03.2022